BU GÜN MİLLİ MƏCLİSƏ SEÇKİLƏR KEÇİRİLİR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 188 (9643) 1 sentyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# 990 namizəd, 6 milyon 421 min 960 seçici, 6478 seçki məntəqəsi



Xatırladaq ki, Prezident İlham Əliyevin iyunun 28-də imzaladığı sərəncamla altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisi buraxılıb və sentyabrın 1-nə parlamentə növbədənkənar seçkilər təyin edilib. Ötən dövrdə Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təqvim planı üzrə Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlər vaxtında icra olunub. Həm namizədlərin qeydə alınması, həm də təşviqat dövründə hər hansı problem meydana çıxmayıb.

Bu gün seçki marafonunda 990 namizəd mübarizə aparır. Bu parlamentdə bir yer üçün təxminən 7 nəfərdən çox namizədin mübarizə aparması deməkdir. Namizədlərdən 676-sının siyasi mənsubiyyəti var.

Namizədlərin avqustun 9-dan başlayan seçkiqabağı təşviqatı avqustun 31-i səhər saat 8:00-da başa çatıb. Bu dövr ərzində namizədlər onlar üçün müəyyən edilmiş açıq və qapalı yerlərdə seçicilərlə görüşlər keçirərək təşviqatla məşğul olublar. Qeyd edək ki, növbədənkənar seçkilərdə təşviqat üçün 3469 açıq və 2037 qapalı yer müəyyən edilmişdi.

Seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb və respublikamızda 6 milyon 421 min 960 nəfər seçici qeydə alınıb. Ən yaşlı qadın seçicinin 134, ən yaşlı kişi seçicinin isə 109 yaşı var. Seçkilərdə ilk dəfə iştirak edən seçicilərin sayı isə 51 min 141 nəfərdir.

Onu da qeyd edək ki, seçicilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində səslərini verəcəklər. Hələ səsvermə günündən xeyli əvvəl bütün səsvermə məntəqələri lazımi avadanlıqlarla təchiz olunaraq tam hazır vəziyyətə gətirilib. Seçki məntəqələrindən 6343-ü daimi, 135-i isə müvəqqətidir.

→ 4

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan İmaməddin Xəlilovu təbrik edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov - qızıl medal! Türkiyə parataekvondoçusu Fatih Çelik - gümüş medal! Hər iki idmançını təbrik edir, onlara yeni qələbələr arzulayıram! Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!"



## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında gümüş medal qazanan Raman Saleyi təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında gümüş medal qazanması ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Gümüş medal! Paraüzgüçü Raman Saley Azərbaycanı "Paris-2024" Yay Paralimpiya Oyunlarında layiqincə təmsil etdi! İdmançımızı təbrik edir, ona güc, enerji və yeni qələbələr arzulayıram!"

## Azərbaycan-Qırğızıstan əlaqələri xalqlarımızın iradəsindən güc alır



### Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sadır Japarova

Hörmətli Sadır Nurqojoyeviç!

31 Avqust - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Qardaş Qırğızıstanda Sizin rəhbərliyiniz altında icra olunan irimiqyaslı proqramlar və layihələr ölkənizin hərtərəfli inkişafına, xalqınızın sosial-iqtisadi tərəqqisinə və rifahına xidmət edir.

Gündən-günə genişlənən və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan-Qırğızıstan əlaqələri tarixən dostluq şəraitində yaşamış və bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımızın iradəsindən, bir-birinə bəslədiyi qarşılıqlı hörmətdən güc alır. Dövlətlərarası münasibətlərimizin ötən dövr ərzində birgə səylərimizlə inkişaf edərək yeni mərhələyə qədəm qoyması məmnunluq doğurur. Şübhəsiz, qarşılıqlı səfərlərimiz və mütəmadi görüşlərimiz bunun üçün yaxşı şərait yaratmışdır.

Bu gün ölkələrimiz arasında bir sıra sahələrdə, xüsusilə də ticarət, iqtisadiyyat, investisiya və nəqliyyat sahələrində əməkdaşlıq uğurla inkişaf edir. Əminəm ki, qardaş xalqlarımızın rifahı naminə birgə səylərimizlə mövcud tərəfdaşlıq potensialının reallaşdırılmasına, ənənəvi dostluq əlaqələrimizin və səmərəli işbirliyimizin daha da genişlənməsinə nail olacağıq.

İyulun əvvəlində Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfərinizi və apardığımız müzakirələri yüksək qiymətləndirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2024-cü il*

## Azərbaycan-Malayziya münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk

### Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimə

Əlahəzrət!

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Biz Azərbaycan ilə Malayziya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə xüsusi əhəmiyyət veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın bundan sonra da uğurla davam etdirilməsi üçün birgə səylər göstərəcəyik. Noyabr ayında Bakıda təşkil ediləcək COP29 çərçivəsində iqlim dəyişmələri ilə mübarizə sahəsində Malayziya ilə sıx əməkdaşlıq edəcəyimizə ümidvaram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Malayziya xalqına daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2024-cü il*

**SEÇKİLƏRDƏ FƏAL İŞTİRAK EDİN!**

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 138-ci kitabı çapdan çıxıb




**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 138-ci kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2024-cü ilin may-iyul aylarını əhatə edir.

Həmin dövrdə ölkəmizin iqtisadi həyatında mühüm hadisələrdən biri iyun ayında keçirilmiş Bakı Enerji Həftəsi olub. Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz- "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərinin açılış mərasimlərində çıxış edib. Dövlətimizin başçısı dərinməzmunlu çıxışında Xəzər dənizinin geri çəkilməsi səbəbinə də aydınlıq gətirib.

**Sitat:** *Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə - çaylar sərhədlərimizin hüdudları kənarındadır. Bizim bununla bağlı məsuliyyətimiz sıfra bərabərdir və heç bir ciddi tədbirlər görülməzsə, böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.*

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgilər zamanı Azərbaycan Prezidentinin "Euronews" telekanalına müsahibəsinin mətni də bu kitaba daxil edilib.

Oxucular Prezident İlham Əliyevin iyun ayında Misir Ərəb Respublikasına rəsmi, Türkiyə Respublikasına işgüzar səfərlərinin materialları ilə bu kitabda tanış ola bilərlər. Dövlətimizin başçısı iyul ayında Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstanda səfərdə olub. Həmin səfər zamanı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" də qəbul edilib. Azərbaycan Prezidenti iyul ayında həmçinin Pakistanda rəsmi səfərdə olub. Bütün bunlar haqqında ətraflı məlumatlar çoxcildliyin 138-ci kitabına daxil edilib.

Prezident iyul ayında Qarabağ bölgəsində səfərdə olub, Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib. Dövlətimizin başçısı çıxışında türk dövlətləri ilə əlaqələrin genişləndirilməsinin Azərbaycanın xarici siyasətində prioritet istiqamət olduğunu, eləcə də Türk Dövlətləri Təşkilatının dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməsinin vacibliyini vurğulayıb.

**Sitat:** *Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.*

*Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır.*

Dövlətimizin başçısının çıxışının tam mətni, eləcə də "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" yeni kitabda yer alıb.

Azərbaycan Prezidentinin "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və "yaşıl gələcək" üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfransın, "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçılarına müraciətləri də yeni kitabda toplanıb. Kitabda dövlətimizin başçısının Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin mətni də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 138-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Bakıda Qırğızıstanın müstəqillik günü təntənə ilə qeyd edilib








Avqustun 31-də Qırğız Respublikasının müstəqilliyinin 33-cü, Qara-Qırğız Muxtar Vilayətinin 100-cü ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin (İB) təsisçisi və rəhbəri Leyla Əliyeva, dövlət və hökumət nümayəndələri, altıncı çağırış Milli Məclisin deputatları, ölkəmizdəki diplomatik korpusun təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rəsmi qəbulda əvvəlcə Azərbaycanın və Qırğızıstanın Dövlət himnləri səsləndirilib.

Tədbirdə iştirakına görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya səmimi təşəkkürünü və minnətdarlığını bildirən Qırğız Respublikasının ölkəmizdəki səfiri Maksat Mamıtkanov ölkələrimizin dost və qardaş olduqlarını diqqətə çatdırıb. Vurğulayıb ki, bizi bir-birimizə sıx tellər bağlayır, ölkələrimiz arasında qarşılıqlı əlaqələr, birgə fəaliyyətimiz əla səviyyədədir.

"Qoy bizim dostluğumuz əbədi olsun və günü-gündən dərinləşsin. Biz bu dostluğu, strateji əməkdaşlığımızı yüksək qiymətləndiririk. İki ölkə arasında siyasi dialoq mövcuddur. Birgə layihələrimiz davam etdirilir", - deyə səfir bildirib.

Ölkəsinin keçdiyi inkişaf yolundan danışan diplomat qırğız xalqının müstəqillik uğrunda çətin mərhələlərdən keçdiyini bildirərək deyib: "Qırğız Respublikası digər türkdilli dövlətlər kimi Azərbaycanla əməkdaşlığa, əlaqələrin dərinləşdirilməsinə böyük önəm verir. Ölkələrimiz müxtəlif beynəlxalq təşkilatlarda uğurla təmsil olunurlar".

Qırğızıstan Prezidentinin cari ilin aprelində ölkəmizə dövlət səfərinin önəmini diqqətə çatdıran səfir Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxunub, onun ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində rolunu qeyd edib.

Xalqlarımıza sülh, əmin-amanlıq arzulayan diplomat tarixi köklərə əsaslanan Qırğızıstan-Azərbaycan dostluğunun ümumi maraqlar əsasında bundan sonra da yüksələn tempdə inkişaf edəcəyinə əminliyini bildirib.

Qırğız Respublikasının müstəqillik günü münasibətilə təbriklərini çatdıran Leyla Əliyeva qırğız xalqına əmin-amanlıq, firavanlıq arzulayıb və İssık-Kul gölünə həsr etdiyi şeirini səsləndirib.

Tədbirdə Leyla Əliyevaya xatirə hədiyyəsi təqdim edilib.

Azərbaycan hökuməti adından Qırğız dövlətini və xalqını təbrik edən energetika naziri Pərviz Şahbazov isə bildirib ki, xalqlarımız arasında ənənəvi dostluq və qardaşlıq əlaqələri tarixən mövcud olub. Azərbaycan-Qırğızıstan əlaqələri strateji tərəfdaşlıq səviyyəsindədir.

"Azərbaycan və qırğız xalqlarının tarixi dostluğa və qardaşlığa əsaslanan əlaqələri hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə uğurla inkişaf edir. Azərbaycan və Qırğızıstan liderlərinin qarşılıqlı səfərləri, birgə səyləri ilə münasibətlərimiz inkişaf edərək yeni mərhələyə qədəm qoyub. Bu gün ölkələrimiz arasında bir sıra sahələrdə, xüsusilə də ticarət, iqtisadiyyat, investisiya və nəqliyyat sahələrində əməkdaşlıq uğurla inkişaf edir və mühüm layihələr həyata keçirilir. 2022-ci il aprelin 20-də Qırğızıstan Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanması münasibətlərin yüksək mərhələyə adlamasında əhəmiyyətli rol oynayıb", - deyə nazir diqqətə çatdırıb.

Ölkələrimiz arasındakı iqtisadi əlaqələrdən, bərpaolunan enerji istiqamətində səmərəli əməkdaşlıqdan, külək və enerji sahəsi üzrə qoyulan birgə investisiyalardan danışan Pərviz Şahbazov Qırğız Respublikasının Azərbaycanı işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərində də dəstəklədiyini qeyd edib.

O, ölkələrimiz arasındakı mövcud strateji tərəfdaşlıq, ənənəvi dostluq əlaqələrinin, səmərəli işbirliyinin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov və digər çıxış edənlər Qırğızıstanı müstəqillik günü münasibətilə təbrik edərək, qırğız xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıblar.

Tədbirin sonunda Azərbaycan-Qırğızıstan dostluğunu əks etdirən videoçarx nümayiş olunub.

# Bakıda Bəhreyn rəssamlarının əsərlərindən ibarət sərgi açılıb

Avqustun 30-da Bakıda Bəhreyndə fəaliyyət göstərən RAK İncəsənət Fondunun rəssamlarının əsərlərindən ibarət sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov iştirak ediblər.

Sərginin açılışında çıxış edən RAK İncəsənət Fondunun təsisçisi, görkəmli bəhreynli rəssam və kolleksiyaçı Raşid Al Xalifa bəhreynli rəssamların tükənməz istedadlarını Azərbaycandakı sənətsevərlərlə bölüşmələrindən məmnunluğunu ifadə edib. O qeyd edib ki, RAK İncəsənət Fondu beynəlxalq tərəfdaşlığı və qarşılıqlı anlaşmanı təşviq edir.

Raşid Al Xalifa bildirib ki, əməkdaşlıqda məqsəd bəhreynli sənətkarların zəngin qobelenlərini Bakının canlı və rəngarəng incəsənət səhnəsinə təqdim etməkdir.

Sonra çıxış edən "Azərxalça" ASC-nin sədri Emin Məmmədov deyib ki, rəssam Raşid Al Xalifa və RAK İncəsənət Fondu ilə əməkdaşlıq incəsənətin, beynəlxalq dostluğun və mədəni anlaşmanın daha geniş təşəkkül tapdığını əks etdirir.

"Bəhreynin müasir incəsənət nümunələrinin ümumi mənzərəsinin Bakıda canlandırılmasından məmnunluq duyuram. İnanıram ki, bu, ölkələrimiz arasında tərəfdaşlıq imkanlarının daha da genişlənməsinə gətirib çıxaracaq".

Qeyd edək ki, bundan əvvəl Heydər Əliyev Mərkəzində Raşid Al Xalifanın bir neçə sərgisi təşkil olunub.











# Yeni DOST, reabilitasiya və peşə hazırlığı mərkəzləri yaradılır

Sosial sahədə aparılan işlərin bir istiqaməti olaraq DOST, reabilitasiya, peşə hazırlığı mərkəzləri şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi işləri davam edir.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bildirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev regionlarda əhalinin DOST, reabilitasiya, peşə hazırlığı xidmətlərinə əlçatanlığının artırılmasının, bu məqsədlə müvafiq xidmətləri göstərəcək yeni müəssisələrin yaradılmasının əsas prioritetlərdən olduğunu qeyd edib.

İclasda son illərdə bu sahədə mühüm addımlar atıldığı diqqətə çatdırılıb. Bildirilib ki, artıq 7 DOST mərkəzi, Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində Qarabağ Regional DOST Mərkəzinin filialı açılıb. Həmçinin nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi müasir tələblərə uyğun qurulub, Qəbələ və Şəmkirdə Uşaq Reabilitasiya mərkəzləri tikilərək istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında da yaxın aylarda Regional DOST Mərkəzi açılacaq. Həmçinin Naxçıvanda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin, muxtar respublikanın rayonlarında DOST filiallarının yaradılması nəzərdə tutulur.

Hazırda Quba, Sabirabad, Sumqayıt, Gəncədə DOST mərkəzlərinin tikilməkdə olduğu, Masallıda da bu il DOST Mərkəzinin inşasına başlanılacağı qeyd edilib. Şəkidə DOST mərkəzinin, bir sıra rayonlarda DOST filiallarının, Şəki, Quba, Sabirabad, Masallıda peşə hazırlığı, Ağcabədi və Qubada uşaq reabilitasiya mərkəzlərinin və s. yaradılması üçün aparılan layihələndirmə işləri diqqətə çatdırılıb. Kəlbəcərdə əlilliyi olan şəxslər üçün reabilitasiya, bir sıra rayonlarda sosial xidmət müəssisələrinin yaradılacağı bildirilib.

Sosial xidmətlər sahəsində görülən işlərdən bəhs olunub. Bu il 4,3 min nəfər tənha ahıl və əlilliyi olan şəxsə evlərində (səyyar) sosial-məişət xidmətlərinin göstərildiyi, 2,2 mindən çox şəxsin stasionar və yarımstasionar şəraitdə sosial xidmətlərlə təmin edildiyi, 107 uşağın övladlığa verildiyi qeyd edilib.

İclasda DOST xidmətləri, reabilitasiya, peşə hazırlığı mərkəzləri şəbəkəsinin genişləndirilməsi, sosial xidmətlər, həssas qruplarla bağlı sosial dəstək layihələrinin icrası və digər sahələrdə görülən işlər, qarşıda duran vəzifələr müzakirə olunub, daha 44 peşə və kvalifikasiya standartı təsdiq edilib.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Növbədənkənar parlament seçkiləri ilə əlaqədar mətbuat konfransı keçirilib




Avqustun 31-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar parlament seçkiləri ilə əlaqədar mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, yerli və xarici media subyektlərinin nümayəndələri tərəfindən operativ şəkildə işıqlandırılan mətbuat konfransında Milli Məclisə seçkilərə son hazırlıq işləri barədə yekun statistik göstəricilər təqdim olunub və məlumatlar verilib.

Tədbirdə çıxış edən Məzahir Pənahov bildirib ki, seçkilərin hazırlanıb keçirilməsinə məsul orqan kimi MSK ilk gündən növbədənkənar parlament seçkilərini Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə uyğun təşkil etməyə çalışıb. "Atdığımız bütün addımlar şəffaf şəkildə həyata keçirilib, media nümayəndələri də prosesləri müşahidə ediblər. Beynəlxalq qurumların müşahidə missiyaları, o cümlədən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) artıq avqustun əvvəllərindən Azərbaycandadır. ATƏT DTİHB bölgələrdə geniş şəkildə fəaliyyət göstərib. Həmçinin onların nümayəndələri MSK-nın iclaslarında da iştirak ediblər", - deyə MSK sədri əlavə edib.

O, Milli Məclisdə 125 deputat yerinin və buna görə də ölkədə eyni sayda seçki dairəsinin olduğunu diqqətə çatdıraraq qeyd edib: "Ölkə üzrə ümumi seçicilərimizin sayı 6 milyon 421 min 960 nəfərdir. Daimi seçici siyahısı üzrə olan seçicilərin sayı 6 milyon 308 min 851, müvəqqəti seçicilərin sayı isə 113 min 109 nəfərdir. Daimi seçicilərin 47,57 faizi kişi, 52,43 faizi isə qadındır. Ən çox seçici 30-39 yaş aralığındadır. Onlar seçicilərin 23,64 faizini təşkil edirlər. Seçki günü 18 yaşı tamam olan seçicilərin sayı 374, Milli Məclisə seçkilərdə ilk dəfə iştirak edən seçicilərin sayı isə 51 min 141 nəfərdir".

Bildirib ki, seçicilərimizin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün bütün şərait yaradılıb. Milli Məclisə seçkilər 6478 seçki məntəqəsində keçiriləcək. Onlardan 6343-ü daimi, 135-i isə müvəqqətidir. Müvəqqəti məntəqələr səsverməyə 5 gün qalmış yaradılıb. Bütün seçki məntəqələri şəffaf fəaliyyət göstərir, müşahidəçilər prosesləri sərbəst müşahidə etmək imkanına malikdirlər. Lakin müşahidə aparmaq baxımından müvəqqəti məntəqələrin öz daxili qanunları mövcuddur ki, onlar gözlənilməlidir. Daimi məntəqələrdə isə müşahidəçilər üçün bütün qaydalar Seçki Məcəlləsinə əsasən tətbiq olunacaq.

Azərbaycan nadir ölkələrdəndir ki, 125 dairə seçki komissiyasının təqribən 80-i üçün yeni binalar tikilib. Ümumilikdə isə DSK-ların binaları yüksək keyfiyyətdədir və müasir tələblərə cavab verir. Bu gün ölkədəki bütün dairə seçki komissiyalarında seçki fəaliyyətini həyata keçirmək üçün maksimum şərait yaradılıb.

Seçkilərlə əlaqədar yaradılan 125 dairənin 10-nun məcburi köçkün dairələri olduğunu vurğulayan MSK sədri deyib ki, Milli Məclisə seçkilərdə 397 min 862 məcburi köçkün 574 məntəqədə səs verə biləcək.

M.Pənahov eyni zamanda bildirib ki, ən yaşlı qadın seçici 1890-cı il təvəllüdlü Əzizova Tamam Əli qızının 134 yaşı var. O, 78 saylı Lənkəran kənd seçki dairəsinin 38 saylı məntəqəsində qeydiyyatdadır. Azərbaycanda ən yaşlı kişi seçicinin isə 109 yaşı var. 1915-ci il təvəllüdlü Hilal İsa oğlu İbrahimov 29 saylı Sabunçu dördüncü seçki dairəsində seçici siyahısındadır. MSK sədri parlament seçkilərində deputat mandatı uğrunda 990 namizədin mübarizə aparacağını deyib. Diqqətə çatdırıb ki, deputatlığa namizədlərdən 305 nəfərinin namizədliyi 25 siyasi partiya tərəfindən irəli sürülüb. Cəmiyyətin müxtəlif təbəqələri seçkilərdə iştirak baxımından fəallıq nümayiş etdirirlər. Hər dairəyə 7-dən çox namizəd düşür. Bu da geniş seçim imkanının olduğunu deməyə imkan verir.

M.Pənahov qeyd edib ki, parlament seçkilərində müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə 112 min 749 nəfər yerli müşahidəçi akkreditasiyadan keçib. Onlardan 65 minə yaxını 24 siyasi partiyanın müşahidəçiləridir. Eyni zamanda seçkiləri müşahidə etmək üçün 51 beynəlxalq qurumdan və 69 ölkədən 598 nəfər akkreditə olunub.

"Biz ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə hər zaman əməkdaşlıq edirik. Onlar yekunda ATƏT Parlament Assambleyası ilə bir yerdə hesabatla çıxış edirlər", - deyən komissiya sədri diqqətə çatdırıb ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosundan 227 nəfər, ATƏT Parlament Assambleyasından 61 nəfər müşahidəçi qeydiyyatdan keçib.

Onun sözlərinə görə, parlament seçkiləri ilə əlaqədar "exit-poll" keçirmək üçün Mərkəzi Seçki Komissiyasında üç təşkilat - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyi və "Sosioloji Tədqiqatlar Mərkəzi" qeydə alınıb. Onlardan ikisi öz fəaliyyətini xarici partnyorları ilə birgə qurublar. Bu təşkilatlar geniş imkanlara malikdir. Təşkilatlar 2500-dən artıq məntəqədə öz fəaliyyətlərini həyata keçirəcəklər.

## *Türkiyə YSK-nın sədri:* "Azərbaycan xalqının demokratik dəyərlərə inancı yüksək səviyyədədir"

Avqustun 31-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar parlament seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Yüksək Seçim Kurulunun (YSK) sədri Ahmet Yenerin rəhbərlik etdiyi müşahidə missiyasının üzvləri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə MSK sədri seçkilərin müşahidəsinə 600-ə yaxın beynəlxalq və 112 mindən artıq yerli müşahidəçinin qoşulduğunu, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırıldığını qonaqların diqqətinə çatdırıb. O, medianın seçkiləri sərbəst şəkildə izləyə biləcəyini deyib, ölkədəki siyasi partiyaların və vətəndaş cəmiyyəti institutlarının seçkilərin müşahidəsində xüsusilə fəallıq göstərdiyini vurğulayıb. Respublika ərazisində 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov bildirib ki, ölkədə fəaliyyət göstərən 26 partiyadan 25-i seçkilərdə iştirak edir. O, həmçinin Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 2471 məntəqədə fiziki məhdudiyyətli şəxslər üçün pandusların quraşdırıldığını deyib.

Parlament seçkilərinin Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə keçiriləcəyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirən MSK sədri qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb. Seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb.

MSK-dakı səmimi görüşə görə nümayəndə heyəti adından təşəkkürünü bildirən Ahmet Yener Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu qeyd edərək prosesləri fəal şəkildə izləyəcəklərini vurğulayıb. Bildirib ki, Azərbaycan xalqının demokratik dəyərlərə inancı yüksək səviyyədədir. O, bu il fevralın 7-də keçirilən prezident seçkilərində yüksək seçici fəallığı müşahidə etdiklərini xatırladıb. Bildirib ki, prezident seçkiləri şəffaf və demokratik şəkildə keçirilib. Qonaq sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində də eyni ab-havanı müşahidə edəcəklərinə əminliyini bildirib.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## *Aleksandr TERENTYEV:* "Növbədənkənar parlament seçkiləri Azərbaycan üçün çox vacib prosesdir"

Avqustun 31-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar parlament seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Rusiya Federal Məclisinin Federasiya Şurasının müşahidə missiyasının rəhbəri Aleksandr Terentyev ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə M.Pənahov seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçinin qoşulduğunu, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kameralar quraşdırıldığını diqqətə çatdırıb.

MSK sədrinin sözlərinə görə, parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. O bildirib ki, budəfəki seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. Namizədliyi qeydə alınan 305 nəfər 25 siyasi partiyanın nümayəndəsidir. Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib. Milli Məclisə seçkilərin Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə keçiriləcəyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirən MSK sədri deyib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb.

Müşahidə missiyasının rəhbəri Aleksandr Terentyev öz növbəsində MSK-dakı səmimi görüşə görə təşəkkürünü bildirib, Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirakdan məmnun olduğunu qeyd edərək prosesləri fəal şəkildə izləyəcəyini vurğulayıb. Bu seçkinin Azərbaycan üçün çox vacib proses olduğunu bildirən qonaq qeyd edib ki, ilk dəfədir növbədənkənar parlament seçkiləri ölkənin bütün suveren ərazilərində keçiriləcək. A.Terentyev insanların seçki prosesi ilə bağlı yüksək əhvali-ruhiyyədə olduğunu müşahidə etdiyini diqqətə çatdırıb.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## MSK sədri Məzahir Pənahov MDB PA-nın müşahidə missiyası ilə görüşüb



Avqustun 31-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA) beynəlxalq müşahidəçilər qrupunun koordinatoru Andrey Yatskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə MSK-nın sədri növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaşın özünün səsvermə hüququndan istifadə edə biləcəyini deyib. Bildirib ki, Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu diqqətə çatdırıb.

MSK sədri qeyd edib ki, seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub. Bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib. Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 2471 məntəqədə fiziki məhdudiyyətli şəxslər üçün pandusların quraşdırıldığını deyən M.Pənahov əlavə edib ki, həmçinin səsvermədə iştirak edəcək gözdən əlillər üçün trafaretlər hazırlanıb.

M.Pənahov eyni zamanda növbədənkənar parlament seçkiləri ilə əlaqədar "exit-poll" keçirmək üçün üç təşkilatın müraciət etdiyini vurğulayıb. O, Milli Məclisə seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcəyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirib.

MSK sədri qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb.

Müşahidə missiyasının koordinatoru Andrey Yatskin öz növbəsində MSK-dakı səmimi görüşə görə nümayəndə heyəti adından təşəkkürünü bildirib, Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu qeyd edərək prosesləri fəal şəkildə izləyəcəklərini vurğulayıb. MDB PA-nın Azərbaycan Milli Məclisi ilə münasibətlərinin yaxşı səviyyədə olduğunu diqqətə çatdıran qonaq ölkədə növbədənkənar parlament seçkilərinə hazırlıq prosesini yüksək qiymətləndirib.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## Belarus-Rusiya İttifaqının Parlament Məclisinin müşahidə missiyası Mərkəzi Seçki Komissiyasında olub



Avqustun 31-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Belarus-Rusiya İttifaqının Parlament Məclisinin müşahidə missiyasının rəhbəri Sergey Raçkovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MSK sədri seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən çox yerli müşahidəçinin qoşulduğunu, ölkə üzrə seçki məntəqələrində səsvermə günü prosesini fasiləsiz izləmək üçün 1000 veb-kameranın quraşdırıldığını söyləyib.

M.Pənahov deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Bildirib ki, Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu diqqətə çatdırıb.

Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov 2471 məntəqədə fiziki məhdudiyyətli şəxslər üçün pandusların quraşdırıldığını deyib.

Vurğulanıb ki, Milli Məclisə növbədənkənar seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcək. İşğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb.

Müşahidə missiyasının rəhbəri Sergey Raçkov Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu vurğulayıb, seçki prosesini fəal şəkildə izləyəcəklərini deyib. O, seçkilərə hazırlıq prosesini izləmək üçün bir neçə məntəqəyə baş çəkdiklərini və hazırlığın yüksək səviyyədə olduğunu bildirib, həmçinin seçkilərin təhlükəsiz şəraitdə keçəcəyindən əminliyini ifadə edib.

Görüş çərçivəsində həmçinin seçki ilə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# YAP Sədrinin müavini Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının müşahidə missiyasının nümayəndələri ilə görüşüb

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının müşahidə missiyasının rəhbəri - Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov və Parlament fəaliyyətinin qaydaları və təşkili komitəsi sədrinin müavini Aleksandr Terentyevlə görüşüb.





İlyas Umaxanov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. O, təmsil etdiyi missiyanın geniş müşahidə təcrübəsinə malik olduğunu və Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərə də böyük maraq göstərdiyini söyləyib.

İlyas Umaxanov seçki qanunvericiliyinə uyğun olaraq ədalətli rəqabət mühitinin, o cümlədən namizədlər üçün bərabər imkanların yaradılmasının mühüm əhəmiyyət daşıdığını bildirib.

Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıqla bağlı gördüyü işlər haqqında məlumat verən YAP Sədrinin müavini 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin də ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq rəqabətli mühitdə keçiriləcəyinə əminliyini ifadə edib.

Tahir Budaqov seçkilərə hazırlığın yüksək səviyyədə olduğunu qeyd edərək yerli və beynəlxalq müşahidəçilərə seçki prosesini izləmək üçün bütün şəraitin yaradıldığını qeyd edib.

Sonra YAP Sədrinin müavini Tahir Budaqov müşahidə missiyasını maraqlandıran sualları cavablandırıb və onlara fəaliyyətində uğurlar arzulayıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Parlament seçkiləri ilə bağlı hüquqi məsələlər ətrafında fikir mübadiləsi aparılıb

Avqustun 31-də Konstitusiya Məhkəməsində Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərlə bağlı Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının beynəlxalq müşahidəçiləri ilə görüş keçirilib.





Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlara seçki prosesində Konstitusiya Məhkəməsinin fəaliyyəti barədə ətraflı məlumat verən sədr Fərhad Abdullayev bildirib ki, cəmiyyət və hüquqi dövlət inkişaf etdikcə seçki prosesi də inkişaf edərək təkmilləşir.

Sədr həmçinin görüş iştirakçılarına Konstitusiya Məhkəməsinin növbədənkənar parlament seçkiləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasında və qanunlarında təsbit edilmiş səlahiyyət və funksiyaları barədə ətraflı məlumat verib.

Görüş zamanı Azərbaycan Prezidentinin sorğusu əsasında Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi ilə bağlı 2024-cü il 21 iyun tarixli müvafiq Qərarın Konstitusiyaya uyğunluğunun yoxlanılmasına dair qəbul edilmiş Plenumun Qərarında əks edilmiş hüquqi mövqelər haqqında ətraflı bəhs olunub.

Qeyd edilib ki, respublikamızın ərazi bütövlüyü və dövlət suverenliyi təmin edildikdən sonra ölkənin bütün ərazisində ilk dəfə olaraq parlament seçkiləri keçiriləcək. Bu ilin noyabr ayında keçiriləcək mötəbər beynəlxalq tədbirlər zamanı Milli Məclisin ölkənin ərazi bütövlüyünün bərpasından sonra yeni tərkibdə təmsil olunması, parlamentin yeni çağırışının tam formalaşdırılması və vətəndaşların seçki hüququnun realizəsinin təmin edilməsi baxımından növbədənkənar parlament seçkilərinin sentyabrın 1-də keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

MDB Parlamentlərarası Assambleyasının beynəlxalq müşahidəçilərinin rəylərinin və təkliflərinin seçki prosesi üçün vacibliyi vurğulanıb.

Qonaqlar bildiriblər ki, növbədənkənar parlament seçkiləri ərəfəsində ümumi prosesi daha dərindən öyrənmək üçün Konstitusiya Məhkəməsindəki bu görüş onlar üçün xüsusi əhəmiyyət kəsb edir.

Görüş zamanı parlament seçkiləri ilə bağlı hüquqi məsələlər ətrafında fikir mübadiləsi aparılıb, bu sahədə qanunvericilikdə Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə toxunulub.

Fərhad Abdullayev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına əminliyini bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini, MDB PA-nın beynəlxalq müşahidəçilər qrupunun koordinatoru Andrey Yatskin və digər rəsmi nümayəndələr onları maraqlandıran bir sıra suallar ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

# YAP Mərkəzi Aparatında MDB PA beynəlxalq müşahidəçilər qrupunun üzvləri ilə görüş keçirilib





Avqustun 31-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) beynəlxalq müşahidəçilər qrupunun üzvləri ilə görüş keçirilib.

Görüş imkanının yaradıldığına görə təşəkkürünü bildirən Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini, MDB PA-nın beynəlxalq müşahidəçilər qrupunun koordinatoru Andrey Yatskin missiyanın tərkibi və fəaliyyəti haqqında məlumat verib.

O, seçki prosesinin müşahidəsi çərçivəsində Azərbaycanda bir sıra görüşlər keçirdiklərini, Azərbaycanın seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olduğunu və namizədlərin seçkilərdə iştirakı üçün yaradılmış şəraiti müsbət qiymətləndirdiklərini vurğulayıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov MDB PA müşahidəçilərinin təmsil etdikləri ölkələrin bir-biri ilə ənənəvi dostluq münasibətlərinə malik olduğunu bildirib, bu cür missiyaların təşkilata üzv ölkələr arasında seçki təcrübəsinin mübadiləsi baxımından önəmini qeyd edib.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycanın demokratik seçki təcrübəsinə malik olduğunu, 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin də azad, şəffaf və ədalətli keçirilməsi üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırıb.

Tahir Budaqov bu seçkilərin Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra bütün ölkə ərazisində keçirilən ilk parlament seçkiləri olmasını xüsusi vurğulayaraq seçkilərə hazırlıq tədbirləri haqqında ətraflı məlumat verib, bununla bağlı fəaliyyətin partiyanın İdarə Heyətinin 2024-cü il 3 iyul tarixli iclasında təsdiq etdiyi Tədbirlər Planı əsasında ölkənin seçki qanunvericiliyinə uyğun həyata keçirildiyini bildirib, missiya üzvlərinin suallarını cavablandırıb.

*R.CƏFƏRLİ, "Azərbaycan"*

# 990 namizəd, 6 milyon 421 min 960 seçici, 6478 seçki məntəqəsi

Növbədənkənar parlament seçkiləri kampaniyası özünün ən mühüm fazasına qədəm qoydu. Bu gün Azərbaycanın bütün bölgələrini əhatə edən 125 seçki dairəsində parlament seçkiləri ilə əlaqədar səsvermə keçirilir. Seçkinin yekunlarına əsasən Azərbaycan Respublikasının yeddinci çağırış Milli Məclisi formalaşacaq.



## Əsas hərəkət və tədbirlər vaxtında icra olunub

Xatırladaq ki, Prezident İlham Əliyevin iyunun 28-də imzaladığı sərəncamla altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisi buraxılıb və sentyabrın 1-nə parlamentə növbədənkənar seçkilər təyin edilib. Ötən dövrdə Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təqvim planı üzrə Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlər vaxtında icra olunub. Həm namizədlərin qeydə alınması, həm də təşviqat dövründə hər hansı problem meydana çıxmayıb.

Bu gün seçki marafonunda 990 namizəd mübarizə aparır. Bu parlamentdə bir yer üçün təxminən 7 nəfərdən çox namizədin mübarizə aparması deməkdir. Namizədlərdən 676-sının siyasi mənsubiyyəti var.

Namizədlərin avqustun 9-dan başlayan seçkiqabağı təşviqatı avqustun 31-i səhər saat 8:00-da başa çatıb. Bu dövr ərzində namizədlər onlar üçün müəyyən edilmiş açıq və qapalı yerlərdə seçicilərlə görüşlər keçirərək təşviqatla məşğul olublar. Qeyd edək ki, növbədənkənar seçkilərdə təşviqat üçün 3469 açıq və 2037 qapalı yer müəyyən edilmişdi.

## Xarici müşahidəçilər 51 beynəlxalq qurumu və 69 ölkəni təmsil edirlər

Seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb və respublikamızda 6 milyon 421 min 960 nəfər seçici qeydə alınıb. Ən yaşlı qadın seçicinin 134, ən yaşlı kişi seçicinin isə 109 yaşı var. Seçkilərdə ilk dəfə iştirak edən seçicilərin sayı isə 51 min 141 nəfərdir.

Onu da qeyd edək ki, seçicilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində səslərini verəcəklər. Hələ səsvermə günündən xeyli əvvəl bütün səsvermə məntəqələri lazımi avadanlıqlarla təchiz olunaraq tam hazır vəziyyətə gətirilib. Seçki məntəqələrindən 6343-ü daimi, 135-i isə müvəqqətidir.

Seçkiləri siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və qeydə alınmış namizədləri təmsil edən müşahidəçilər izləyəcəklər. Müşahidəçi qismində seçkilərdə iştirak etmək üçün akkreditasiyadan keçən yerli müşahidəçilərin sayı 112 min 749 nəfərdir. Onlardan 65 minə yaxını 24 siyasi partiyanın müşahidəçiləridir.

Bundan başqa, Milli Məclisə seçkiləri müşahidə etmək üçün 51 beynəlxalq qurumdan və 69 ölkədən 598 nəfər akkreditə olunub. Üç təşkilat isə "exit poll" üçün Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçib. Onlar təxminən 2500-dən artıq seçki məntəqəsində öz fəaliyyətlərini həyata keçirəcəklər.

Milli Məclisə seçkilərin gedişatını internetdən birbaşa izləmək mümkündür. Belə ki, ölkə üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini müşahidə edə bilərlər.

Səsvermə 19:00-da başa çatacaq. Səsvermənin gedişi, seçicilərin səsvermədə iştirakı barədə gün ərzində 5 dəfə ilkin məlumatlar veriləcək.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# XİN: Paşinyanın Azərbaycan-Ermənistan normallaşma prosesi ilə ziddiyyət təşkil edən açıqlamaları təəssüf doğurur

Ermənistanın baş nazirinin avqustun 31-də keçirdiyi mətbuat konfransında növbəti dəfə Azərbaycan-Ermənistan normallaşma prosesi, bölgədə sülh və təhlükəsizliyin təmin olunması səyləri ilə ziddiyyət təşkil edən bir sıra açıqlamalar verməsi təəssüf doğurur.



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş nazirinin mətbuat konfransında Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirilib.

Mətbuat katibi qeyd edib: "Guya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialar tamamilə yanlışdır. Bu məsələdə Azərbaycan Konstitusiyası ilə Ermənistan konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi qəbuledilməzdir. Ermənistanın bu arqumentini heç bir beynəlxalq tərəfdaş qəbul etmir və bunun qeyri-ciddi olduğunu hər kəs bilir. Ermənistan konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil. İlk Azərbaycan Respublikası dövründə hansı ərazilərin Azərbaycanın tərkibində olduğu, onların nə zaman Ermənistanın tərkibinə qatıldığı isə tarixi faktlardır və bu faktları danmaq mümkün deyil. Bu, heç bir halda hazırda Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddialarının olması anlamına gəlmir.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin konstitusiyasındakı ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Məhz buna görə də Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Bununla yanaşı, baş nazirin Ermənistanın kütləvi silahlanma səylərinə bəraət qazandıran zaman səsləndirdiyi iddialar heç bir halda həqiqəti əks etdirmir. Əvvəla qeyd edək ki, 30 ilə yaxın müddətdə Azərbaycanın ərazilərini məhz elə istinad etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə, Alma-Ata Bəyannaməsinə zidd olaraq işğal altında saxlayan ölkənin Ermənistan olduğunu, hazırda da qonşularına qarşı ərazi iddialarının mövcudluğunu nəzərə alaraq, bu ölkənin silahlanmasının regional sülh və təhlükəsizliyə necə təhdid törətdiyini anlamaq çətin deyil.

Ermənistan tərəfinin guya Azərbaycanın hərbi büdcəsinin ölkənin ümumi daxili məhsulunun (ÜDM) 14-15 faizini təşkil etdiyini və bunun Ermənistandan qat-qat çox olduğunu bildirməsi aidiyyəti beynəlxalq təşkilatların hərbi büdcə ilə bağlı yaydıqları məlumatlara tamamilə ziddir və bu, dəfələrlə şişirdilmiş rəqəmdir. Bununla yanaşı, Ermənistanın hərbi xərclərini ötən illə müqayisədə 46 faiz artırması Ermənistanın militarizasiyasını sübut edən növbəti göstəricidir. Bununla yanaşı, Azərbaycanın guya İtaliyadan silah aldığı barədə baş nazir tərəfindən səslənən iddia həqiqəti əks etdirmir.

Minsk qrupu ilə bağlı baş nazirin mövqeyinə nəzər saldıqda da açıq-aydın görmək mümkündür ki, Ermənistan tərəfinin keçmiş münaqişənin qalığı olan qurumun bərpasına yönələn cəhdləri bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcudluğunu nümayiş etdirir.

Ermənistanın baş nazirinin bu problemləri gözardı edilə biləcəyi ilə bağlı məntiqi bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir.

Ermənistan sülh prosesinə ciddi yanaşdığını sübuta yetirmək üçün ziddiyyətli bəyanatlar və təxribatçı addımlardan çəkinməli, beynəlxalq hüququn norma və prinsiplərinə öz əməlləri, eyni zamanda real addımlar ilə hörmət etdiyini göstərməlidir".

# Bakı sülh şərtlərini bir daha bəyan etdi

## Ermənistan konstitusiyası dəyişilməli, Minsk qrupu ləğv edilməlidir

Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Bununla bağlı rəsmi Bakı dəfələrlə bəyan edib ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda iki ölkə arasında sülh sazişinin bağlanması mümkün deyil.




Lakin İrəvan absurd bəhanələr edərək konstitusiyasında dəyişiklik etməkdən yayınır. Bununla da sülh bağlansa belə, Azərbaycana qarşı ərazi iddiasından əl götürmək istəmir. Dayanıqlı sülhdə maraqlı olmayan İrəvan çalışır ki, gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variantı olsun.

Ötən cümə Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən zaman Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq dedi ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlət başçısı vurğuladı ki, bunun üçün Ermənistan konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və konstitusiya dəyişdirilməlidir.

### "Keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?!"

Ermənistanın digər bir təcavüzkar planı ATƏT-in keçmiş Minsk qrupunun ləğvinə qol qoymamasıdır. Faktdır ki, Minsk qrupunun 28 illik fəaliyyətinin nəticəsi danışıqlar prosesinin dalana dirənməsi olub. İşlərini yalnız bölgəyə turist səfərləri etməklə bitmiş hesab edən həmsədrlər bu müddətdə münaqişənin Ermənistanın xeyrinə sonsuzadək dondurulmasına çalışıblar. İkilistandartlı səbəblər ucbatından Qarabağ münaqişəsinin həlli yalnız müharibə yolu ilə mümkün oldu. Buna görə Minsk qrupunun ləğvinə hüquqi cəhətdən də son qoyulmasının vaxtı, əslində, çoxdan çatmışdı. Bu qrupun ləğvi üçün Azərbaycanla Ermənistan birgə ATƏT-ə müraciət etməlidirlər. Lakin Ermənistan birgə müraciətdən yayınır, bununla da ölkəmizə qarşı gələcəkdə də ərazi iddiası irəli sürmək niyyətində olduğunu açıq şəkildə ortaya qoyur.

Sözügedən görüşdə Prezident İlham Əliyev vurğuladı ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir. Dövlətimizin başçısı Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını dedi: "Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?!"

### Bununla bağlı əsasnamə imzalanıb

Azərbaycan hər zaman regionda normallaşmaya nail olunması, davamlı sülhün əldə edilməsi üçün təşəbbüslərlə çıxış edir, bu istiqamətdə əməli işlər gerçəkləşdirir. Bu ilin əvvəlindən Azərbaycan ilə Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiya işlərinə başlanılması, ikitərəfli danışıqlara start verilməsi kimi müsbət addımlar da Bakının səylərinin mühüm nəticəsidir.

Avqustun 30-da Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında əsasnamə imzalanıb. Məlumata görə, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, komissiyaların birgə fəaliyyəti haqqında əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb. Vurğulanıb ki, hazırda Azərbaycan və Ermənistan dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

Göründüyü kimi, Azərbaycanın münasibətlərin normallaşdırılması istiqamətində təşəbbüsləri müsbət nəticə verir. Lakin Ermənistan Qərb himayədarlarının qızışdırması ilə müharibə eyforiyasına qapılaraq sülhdən yayınır. Bu məqamla bağlı dövlətimizin başçısı da söylədi ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil: "Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir".

Amma revanşa qapılması, Azərbaycana qarşı ərazi iddiasından əl çəkməməsi Ermənistanı bir dövlət olaraq uçuruma aparır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd olunub







Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qardaş xalqlarımızın şəhidlərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib. Sonra Türkiyə xalqının zəfər tarixindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya böyük öndər Mustafa Kamal Atatürkün "Türkün qapısı" adlandırdığı Naxçıvanda bayramı birgə qeyd etməkdən məmnunluğunu ifadə edib, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər bayramı münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub.

Baş konsul Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun dünyaya örnək olduğunu bildirib, dövlət başçılarının müəyyənləşdirdiyi hədəflər əsasında birliyimizin, birgə əməkdaşlıq və strateji müttəfiqliyimizin davamlı inkişaf xətti ilə irəlilədiyini qeyd edib. Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə təbriklərini çatdıran Asip Kaya, Naxçıvanın bu yolda tarixboyu apardığı haqlı mübarizəni ortaq türk tarixinin şanlı səhifələrindən biri kimi dəyərləndirib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfəri və antiterror əməliyyatları nəticəsində suverenliyinin tam bərpasını böyük sevinc və qürur hissi ilə qarşıladıqlarını vurğulayan baş konsul, sentyabrın 1-də keçiriləcək parlament seçkilərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə xalqının şanlı zəfərini birlikdə qeyd etməyin böyük məmnunluq doğurduğunu bildirib, qardaş Türkiyə xalqını təbrik edib.

Vurğulayıb ki, bu şanlı zəfər böyük Türkiyə dövlətinin müstəqillik yolunda əsaslı dönüm nöqtəsi olub, qardaş xalqın sarsılmaz iradəsini, yenilməzliyini, mübarizliyini və əzmini bütün dünyaya bəyan edib. Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsini ehtiramla yad edən səlahiyyətli nümayəndə qardaşlıq və dostluq münasibətlərimizin prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən davam etdirilərək yüksək zirvələrə çatdığını vurğulayıb.

Qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri xalqlarımızın birlik və bərabərliyini ifadə etməklə yanaşı, bölgədə sülhün və əmin-amanlığın da qarantıdır. Ümid körpüsü yalnız coğrafi birliyimizi deyil, eyni zamanda bir millət, iki dövlət münasibətlərimizi təcəssüm etdirir. Gələcəkdə reallaşdırılacaq Zəngəzur dəhlizi bu əlaqələri möhkəmləndirməklə Naxçıvanın enerji və nəqliyyat-tranzit imkanlarından daha geniş və səmərəli istifadə olunmasında önəmli rol oynayacaq. Dövlət başçılarımızın iştirakı ilə Naxçıvanda təməli qoyulan İğdır-Naxçıvan qaz kəmərinin inşası da bu mənada böyük əhəmiyyət daşıyır.

Sonda Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi tərəfindən hazırlanmış Türkiyənin şanlı hərb tarixindən bəhs edən videoçarx nümayiş olunub.

# ABŞ-də yaşayan azərbaycanlı gənclərin ilk forumu keçirilib

ABŞ-nin Corc Vaşinqton Universitetində bu ölkədə yaşayan azərbaycanlı gənclərin ilk forumu keçirilib.




AZƏRTAC-ın məlumatına görə, forumda ABŞ-nin 20-dən çox ştatında yaşayan tələbə-gənclər, diaspor nümayəndələri, elm adamları, Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın ABŞ-dəki səfirliyinin nümayəndələri iştirak ediblər.

Tədbirin əvvəlində Azərbaycan və ABŞ-nin Dövlət himnləri səsləndirilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin ruhu sükutla yad edilib. Amerika-Azərbaycan Gənclər Federasiyasının prezidenti Leyla Aslanova vətəndən uzaqda yaşasalar da, mənəvi bağlarının güclü olduğunu bildirib. Onun sözlərinə görə, xaricdə yaşayan gənclər öz vətənlərinin inkişafına töhfə vermək üçün istənilən imkanları dəyərləndirməlidir. O əlavə edib ki, əvvəlki nəsillər Azərbaycanın adının ucaldılması üçün çox böyük səylər göstəriblər və indi gələcək nəsillər üçün firavan həyat qurmaq müasir gənclərin əlindədir.



Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev çıxışında bu kimi forumların xaricdə yaşayan azərbaycanlıların şəbəkələşməsi, müzakirələrin aparılması, problemlərinin dinlənilməsi baxımından əhəmiyyətli olduğunu deyib. O, avqustun əvvəlində komitə tərəfindən Laçında gənclərin V Yay Düşərgəsinin keçirildiyini xatırladaraq, bu tədbirlərin artıq işğaldan azad olunmuş torpaqlarımızda reallaşdığını vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan dövləti diaspor fəaliyyətlərinə güclü dəstək verir və eyni zamanda komitə də bir çox layihələr həyata keçirir. "Siz bu gün qalib dövlətin gənclərisiniz, ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş dövlətin vətəndaşlarısınız. Siz burada yaxşı təhsil almaqla, bütün fəaliyyətinizlə Azərbaycanı təmsil etmiş olacaqsınız",- deyə Elşad Əliyev əlavə edib.

Azərbaycanın ABŞ-dəki səfirliyinin müşaviri Vüqar Qurbanov belə bir tədbirin keçirilməsinin böyük nailiyyət olduğunu deyib. Onun sözlərinə görə, burada azərbaycanlılar bir sıra uğurlar əldə ediblər və indiki gənclər bu nailiyyətlərin davamçıları olacaqlar. V.Qurbanov səfirliyin gənclərin fəaliyyətlərinə hər zaman dəstək verdiyini vurğulayıb.

Tədbirdə Corc Vaşinqton Universitetinin professoru Sevinc Məmmədova, Azərbaycan-Amerika Təşkilatları Alyansının prezidenti Minəvvər Vahabova çıxış ediblər. Onlar tələbə və diaspor nümayəndəsi kimi fəaliyyətlərindən, üzləşdikləri çətinliklərdən danışıblar. Qeyd olunub ki, hər bir azərbaycanlı istənilən addımında həm də Azərbaycanı təmsil etmiş olur. Çıxışlarda ABŞ-də təhsil alan gənclərimizin sayının gündən-günə artmasından sevinc ifadə olunub.

Tədbirdə "Gənclərin təhsil vasitəsilə inteqrasiyası", "Azərbaycanəsilli amerikalıların yeni nəsli: Mənim dünyam, ruhum, gözləntilərim", "Mən mümkünəm", "Xəyal et, inan, buna nail ol: dəyişiklik naminə gənclərin birliyi" mövzularında panel müzakirələri aparılıb.

Çıxışlarda forumun əhəmiyyəti, azərbaycanlı gənclərin ABŞ-yə inteqrasiyası, xaricdə təhsilin və işlə təmin olunmanın çətinlikləri və yolları, gənclərin şəbəkələşməsinin əhəmiyyəti və gələcək fəaliyyətdə hədəflər, icmanın və Azərbaycan dövlətinin hər zaman gənclərə dəstək olması diqqətə çatdırılıb.

Forumda həmçinin Diaspor Gənclərinin Laçında keçirilən V Yay Düşərgəsi, şəhidlərə həsr olunmuş "Tarix dərsi" adlı videoçarx, həmçinin Diaspor marşı nümayiş olunub.

Forum milli musiqimiz və milli rəqslərimizin nümayiş olunduğu bədii hissə ilə davam edib, həmçinin gənclərin breyn-rinq yarışı təşkil edilib.

Tədbir iştirakçılarına sertifikatlar təqdim edilib və "Birlikdə" adlı videoçarx nümayiş olunub.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistan sülh sazişini imzalamaqdan yayınır

"Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti ilə görüşdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələsinə də toxundu. Ölkə rəhbəri bir daha Ermənistanın vaxt udmağa çalışdığını, silahlandırıldığını diqqətə çəkdi".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Sosial Tədqiqatlar Mərkəsinin sədr müavini politoloq Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, Ermənistanın üçüncü ölkələrlə öz ərazisində hərbi təlimlər keçirməsi itirmiş olduğu mövqelərini hər hansı səviyyədə geri qaytarmağa çalışdığının göstəricisidir. Bu vəziyyəti 2020-ci ildən sonra ötən 4 ildə davamlı olaraq müşahidə edirik. "Prezident İlham Əliyev sülh sazişinin imzalanması üçün iki əsas şərti hər zaman səsləndirir. Birincisi, Ermənistan konstitusiyasında dəyişiklik edilməlidir. Çünki bu ölkənin Konstitusiyasının preambulasında müstəqillik bəyannaməsinə istinad edilir və orada da Azərbaycanın əzəli, tarixi ərazisi olan Qarabağın Ermənistana birləşdirilməsi öz ifadəsini tapıb. Deməli, Ermənistan Konstitusiyasında Azərbaycana ərazi iddiaları yer alıb. Dövlətimizin başçısı bunların aradan qaldırılmasını haqlı olaraq tələb edir. Çünki bu, gələcəkdə Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişinin hüquqi qüvvəsini sıfra bərabər edə bilər. Ermənistan Konstitusiyasının 116-cı maddəsinin 3-cü bəndində aydın mətnlə ifadə olunub ki, Ermənistanın imzaladığı beynəlxalq sənədlər ölkə Konstitusiyası ilə ziddiyyət təşkil edirsə, o, ratifikasiya oluna bilməz. Beləliklə, Paşinyan Konstitusiyaya dəyişiklik etmədən sülh müqaviləsi imzalasa belə, bu, zaman udulmasına hesablanmış addım olacaq. Bunu da Prezident İlham Əliyev yaxşı bilir, ona görə də Ermənistanın vaxt udmağa çalışdığını diqqətə çəkir. Bunu sübut edən digər amil isə Ermənistanın davamlı olaraq silahlandırılmasıdır", - deyə E.Mirbəşiroğlu bildirib.

Onun sözlərinə görə, Ermənistan gələcəkdə Qərb ölkələrinin hərbçilərinin birbaşa iştirakı ilə də Azərbaycana qarşı revanş edə bilər. Bunu başqa coğrafiyalarda görmüşük. Ermənistan da analoji addım ata bilər. Bunun sübutu da artıq var. Ermənistan bir müddət əvvəl Kəlbəcər istiqamətində Azərbaycan mövqelərini atəşə tutanda Amerika hərbi təlimatçılarının da prosesdə iştirakı ilə bağlı məlumatlar yayıldı. Bu, artıq ilkin əlamətlərdir, gələcəkdə genişmiqyaslı və açıq hal ala bilər.




E.Mirbəşiroğlu vurğulayıb ki, Cənubi Qafqazda təhlükəsizlik olduqca kövrəkdir, regionda vəziyyət gərginləşə bilər. ABŞ geosiyasi rəqibi olan Rusiyaya qarşı regionda ikinci cəbhə açmaq istəyir. Belə vəziyyətdə regionda hərbi-siyasi xarakterli gərginlik və xaos arta bilər ki, bu zaman ABŞ-nin alət kimi istifadə etdiyi Ermənistanın maraqlarına uyğun olaraq onun tərəfindən qarşıdurmalarda birbaşa iştirakı gözləniləndir.

Politoloqun fikrincə, Ermənistan ərazisinə ABŞ-nin iki hərbi təyyarəsinin və hərbi heyətinin gətirilməsi, onların erməni hərbi geyimləri ilə təminatı da ciddi narahatlıq yaradacaq məsələdir: "Prezident İlham Əliyev Ermənistanın olduqca təhlükəli oyun oynadığını diqqətə çatdırdı. Ermənistan Azərbaycana revanş etmək imkanlarını saxlamaq üçün kənardan da dəstək almaqla əlindən gələni edir. O, Konstitusiyaya dəyişiklik etmək fikrində deyil, sadəcə olaraq 2027-ci ildə belə bir addım atıla biləcəyi səsləndirilir. Konstitusiyaya dəyişiklik isə Paşinyan hakimiyyətinin daha da möhkəmləndirilməsinə xidmət etməklə ərazi iddialarını aradan qaldırmaya da bilər".

Azərbaycanın digər şərtinin ATƏT-in Minsk qrupunun ləğvi istiqamətində birgə müraciətlə bağlı olduğunu xatırladan ekspert deyib ki, Ermənistan buna da getmək istəmir. Ermənistan parlamentinin sədri Alen Simonyan Minsk qrupunun bundan sonra da fəaliyyətinin mümkünlüyünü söyləyib. Bu isə Ermənistana münaqişə vəziyyətinin sanki davam etdiyi təəssüratını saxlamaq imkanı verir. Ermənistan yekun sülh sazişini imzalayacağı təqdirdə Azərbaycanın şərtlərini qəbul etməli olacaq. Paşinyan da buna getmək istəmir. Ermənistan ATƏT-in Minsk qrupunun platformasından hər zaman dəstək alıb və ümid edir ki, bundan sonra da bu çərçivədə dəstək ala biləcək. "Ümumilikdə göz önündə olan mənzərə dövlətimizin başçısının da qeyd etdiyi kimi, Ermənistanın sülh sazişini imzalamaqdan hər vasitə ilə yayındığını və havadarlarının da canfəşanlığı ilə zaman qazanmağa çalışdığını aydın göstərir", - deyə politoloq vurğulayıb.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Ermənistanda militarizasiya siyasəti həyata keçirilir

### Belə olan halda sülh haqqında düşünmək mümkün deyil

"Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması heç vaxt olmadığı qədər yaxın görünürdü. Bunu şərtləndirən amillər var idi: ikitərəfli təmasların intensivliyi, sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı atılmış addımlar. Eyni zamanda COP29-a qədər iki dövlət arasında ən azı çərçivə sazişinin imzalanacağı ilə bağlı proqnozlar verilirdi".



Bu fikirləri "Azərbaycan" qəzetinə siyasi ekspert Elman Nəsirov deyib. O bildirib ki, COP29 tədbiri də sülh prosesinin tərkib hissəsi sayılırdı, çünki konfransın Azərbaycanda keçirilməsi ilə bağlı Ermənistan da loyal münasibət göstərmişdi. Lakin hadisələrin sonrakı gedişatı göstərdi ki, Ermənistan yenə köhnə ampluasındadır. Bu ölkənin müstəqil siyasət yürütmədiyi bir daha təsdiqini tapdı. Bəlkə Paşinyan Azərbaycanla sülh müqaviləsi bağlamaq, hətta tezləşdirmək istəyə bilərdi, amma o, son dərəcə Qərb havadarlarından asılı vəziyyətdədir, xüsusilə də Fransadan. "Fransa Ermənistanı əvvəl müdafiə silahları ilə təchiz edirdisə, indi hücum silahları verir. Hindistan da analoji addımlar atır. Bu ölkə ABŞ və Yunanıstandan da silahlar alır. Bir sözlə, Ermənistanda militarizasiya siyasəti həyata keçirilir. Belə olan halda Ermənistan sülh deyil, müharibə haqqında düşünməyə başlayır", - deyə o əlavə edib.

E.Nəsirov xatırladıb ki, Prezident İlham Əliyev dəfələrlə ən yüksək kürsülərdən Ermənistanla münasibətlərimizə yeni, ağ səhifədən başlamaq niyyətimizi bildirib. Təbii ki, Xocalı soyqırımını, Ermənistanın hərbi cinayətlərini unutmamaq şərtilə. Biz istəyirdik ki, qonşu olaraq münasibətləri yenidən quraq, çünki əbədi düşmənçilik də ola bilməz. Azərbaycan bu istiqamətdə üzərinə düşən bütün addımları atıb, sülh müqaviləsi ilə bağlı 5 baza prinsipini müəyyənləşdirib, hətta sülh sazişinin layihəsini də hazırlayıb. Ancaq bunun qarşılığında Ermənistan tez-tez atəşkəsi pozur, sərhəd bölgələrində hərbi təxribatlara əl atır.

Şərhçinin fikrincə, Ermənistanın addımları sülh prosesinə arxadan vurulan zərbə kimi qiymətləndirilə bilər: "Ermənistan siyasi rəhbərliyi dərk etməlidir ki, Azərbaycanla hərb yolu ilə danışmaq mümkünsüzdür. Azərbaycan qüdrətli dövlətdir. 2020-ci ildə tarixi Zəfərə imza atdıqdan sonra daha da güclənib. Prezident İlham Əliyev müstəqil, milli maraqlara söykənən siyasət həyata keçirir. Heç kim Azərbaycanla təzyiq dili ilə danışa bilməz. Azərbaycan Prezidenti xalqına arxalanır, xalq isə birmənalı şəkildə dövlət başçısını dəstəkləyir. Eyni zamanda Azərbaycanın güclü iqtisadiyyatı, sadiq müttəfiqləri var. Ən başlıcası isə işimiz haqq işidir. Ona görə də Azərbaycan bütün məqsədlərinə çatıb və qarşısına qoyduğu hədəflərə də çatacaq. Ermənistanın yeganə çarəsi Azərbaycanla sülhə gəlməkdir və bunu nə qədər tezləşdirsə, ona bir o qədər yaxşıdır".

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***



## İrəvanın eskalasiya istəyi özünə baha başa gələcək

"Aprel ayında Brüsseldə ABŞ, Avropa İttifaqı və Ermənistan arasında hərbi paktın imzalanmasından sonra Ermənistan sülh müqaviləsinin bağlanması istiqamətində davam edən prosesləri tamamilə darmadağın etdi. Əvvəlcə Böyük Britaniyada Prezident İlham Əliyevlə görüşdən imtina edən Paşinyan sonrakı dövrdə Ermənistan ordusunun Azərbaycan istiqamətində kifayət qədər aqressiv davranışlarına şərait yaratdı".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. O qeyd edib ki, Azərbaycan mövqeləri üzərində dəfələrlə PUA uçuşlarını həyata keçirmək cəhdləri, Naxçıvan və Şərqi Zəngəzur istiqamətində atəşkəsin intensiv pozulması həm ABŞ ilə Ermənistan arasında imzalanan sənədlərin, həm də keçirilən birgə hərbi təlimlərin məntiqi nəticəsidir. Hazırda Ermənistan həm ABŞ, həm Fransa, həm də Hindistan tərəfindən intensiv şəkidə silahlandırılır. "Otuzillik işğalçılıq siyasəti yürüdən bir dövlətin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək əvəzinə silahlanması və Azərbaycan sərhədləri yaxınlığında yeni hərbi infrastruktur yaratmaq cəhdləri Ermənistanın Azərbaycanla sülh sazişi imzalamaq niyyəti olmadığını göstərir. Digər tərəfdən, Ermənistan sülh sazişi üçün zəruri olan Konstitusiyaya dəyişikliyi növbəti üç il üçün təxirə salmaqla, indiyə qədər 4 il, bundan sonra da azı 3 il olmaqla, ümumilikdə 2027-ci ilə qədər Azərbaycanla sülh sazişi imzalamaq istəmir", - deyə ekspert bildirib.

Ə.Verdiyev vurğulayıb ki, Ermənistanın eskalasiya yaratmaq istəyi onun milli və dövlət maraqlarına tamamilə zidd addım olacaq. Ermənistan tərəfindən açılan atəş nəticəsində bir Azərbaycan əsgəri yaralanarsa, bu qarşı tərəf üçün dərin peşmanlıq yaşadacaq.

***Əsmər QALİBQIZI, "Azərbaycan"***

## Fransız hərbçilərdən sonra alman əsgərləri də Niamey bazasını tərk ediblər

Nigerin hakimiyyət orqanları ilə Almaniya arasında aparılan bütün danışıqlar nəticəsiz qaldıqdan sonra sonuncu alman əsgərləri bu gün Niamey hərbi bazasını tərk ediblər.



2023-cü ilin sonunda Fransa əsgərlərinin və sentyabrın 15-nə qədər Amerika ordusunun çıxması tələbindən sonra alman əsgərlərinin də ölkəni tərk etməsi tələb olunub. AZƏRTAC xəbər verir ki, Niger ordusunun baş qərargah rəisi Mamane Sani Kiaou, ümumilikdə, beş yük təyyarəsi reysi ilə 60 alman əsgəri və 146 ton texnikanın Almaniyaya göndərildiyini bildirib. O, yolasalma mərasimini alman əsgərlərinin Nigerdən tam şəkildə çıxarılmasının və onların təsirinin dayandırılmasının sonunu bildirən hadisə adlandırıb. Almaniya hərbçilərinin Nigerdən çıxmasına tərəflərin icarə müddətinin uzadılması ilə bağlı razılığa gələ bilməməsi səbəb olub.

Bildirilir ki, alman əsgərləri Niameyi tərk edərək, özlərindən sonra 130 milyon avro dəyərində baza qoyublar.

# Makronun ətrafında qalmaqallar bitmir

## Fransa üç böhranla üz-üzədir

Fransada yeni hökumətin qurulmasının uzanması ölkədə maliyyə və sosial böhran riskləri yaradır. Bunu ölkənin keçmiş prezidenti Nikola Sarkozi "Figaro"ya müsahibəsində deyib. Onun sözlərinə görə, Fransa 45 gündür hökumətsiz qaldığından hakimiyyət vəziyyətin ciddiliyini dərk etməlidir.

Sarkozi hesab edir ki, ölkə hazırda eyni vaxtda baş verə biləcək üç böhranla üz-üzədir. Məsələn, Fransada maliyyə böhranı yarana bilər.

Eks-prezident bildirib ki, "Fransanın borcunu, kəsirini və həddindən artıq xərclərini nəzərə alsaq, fikrimcə, büdcəsiz, hökumətsiz və ya maliyyə naziri olmadan qalmaq müdriklik deyil... Yaranmış vəziyyətdə həmçinin sosial böhran gözlənilir və bu da fransız ənənəsidir".

Sarkozi parlamentin buraxılmasının Parisi siyasi böhrana sürüklədiyini deyib: "Bütün bunlar belə qənaətə gəlməyə imkan verir ki, ölkə həqiqətən uçurumun kənarındadır".

Yada salaq ki, iyulun sonunda Fransanın solçu "Yeni Xalq Cəbhəsi" blokunun parlament seçkilərində qalib gələrək baş nazir postuna vahid namizəd - Lüsi Kaste ilə bağlı razılığa gəldiyi barədə məlumat yayılmışdı. Bununla belə, Fransanın bəzi mətbu orqanları dövlət başçısı Emmanuel Makronun "10 dəqiqə ərzində onun namizədliyini rədd etdiyini" yazıb.

Bu arada, BFMTV-nin sifarişi ilə keçirilmiş sorğunun nəticələrinə görə, fransızların təxminən yarısı "Yenilməyən Fransa" (LFİ) partiyasının Milli Assambleyada Prezident Emmanuel Makronun istefası ilə bağlı təklifinin tərəfdarı olduqlarını bildirib.



Respondentlərin 49 faizi təklifin tərəfdarı, 50 faizi isə əleyhinə olduğunu bildirib. Yeni Xalq Cəbhəsinə (NFP) səs verən fransalıların 64 faizi, Milli Birlik (RN) və onun müttəfiqlərinin seçicilərinin yarısı bu impiçment prosedurunun lehinə olduqlarını deyiblər. Sağçı və solçuların 74 faizi isə hesab edir ki, sözügedən təklif Prezidentin istefasına səbəb olmayacaq.

Parlament seçkilərindən yeddi həftədən çox vaxt keçməsinə baxmayaraq, yeni hökumətin formalaşmamasına gəlincə, respondentlərin 63 faizi hesab edir ki, bunun üçün ilk növbədə Makron və onun komandası məsuliyyət daşıyır. Respondentlərin 27 faizi isə Yeni Xalq Cəbhəsinin (NFP) məsuliyyət daşıdığını bildirib.

Növbəti hökumət başçısına gəlincə, fransızların 41 faizi istefa verən baş nazir Qabriel Attalın yenidən təyin olunmasını istəyir. İkinci yerdə Milli Birlik (RN) partiyasının sədri Jordan Bardella (38 faiz), 3-cü yerdə isə keçmiş baş nazir Bernard Kaznöv (28 faiz) gəlir.

Xatırladaq ki, avqustun 26-da Prezident Emmanuel Makron partiya liderləri və parlamentdəki fraksiyaların rəhbərləri ilə məsləhətləşmələrdən sonra NFP tərəfindən dəstəklənən hökumətin qurulmasını istisna edib. Makronu vəzifə səlahiyyətlərindən sui-istifadədə təqsirləndirən "Yenilməyən Fransa" partiyası onu istefaya məcbur etmək üçün Konstitusiyanın 68-ci maddəsi ilə (vəzifə səlahiyyətlərini icra edə bilməmək) hədələyir.

Qeyd edək ki, həmin maddə səlahiyyətlərin icrası ilə açıq şəkildə bir araya sığmayan pozuntular baş verdikdə, prezidentin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsini nəzərdə tutur.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***




# İqlim dəyişmələri qidamıza da təhlükə yaradır

## Əbəs deyil ki, bu məsələ bütün COP-ların müzakirə mövzusu olmuşdur

**İqlim dəyişmələri qlobal ərzaq təhlükəsizliyinə ciddi təhlükə yaradır ki, bu da istehsal olunan qidanın həm keyfiyyətinə, həm də kəmiyyətinə böyük təsir göstərir. Proses çoxşaxəlidir və qida sisteminə müxtəlif aspektlərdən zərər vurur. Nəticədə insan sağlamlığı qlobal qida təhlükəsizliyinin mənfi təsirlərindən təhlükə altına düşür.**



Qida təhlükəsizliyinin mənbəyi kənd təsərrüfatından gəlir. İqlim dəyişmələri nəticəsində temperatur dəyişir, ekstremal hava hadisəsi torpağa və suya təsir edir, nəticədə quraqlıq baş verir, yaxud gərək olmayan zamanda güclü yağışlar yağır, daşqınlar olur, meyvə ağacları vegetasiya dövrünü keçməmiş çiçəklər tökülür, biomüxtəliflik pozulur, tozlanma baş tutmur, məhsuldarlıq az qala sıfra enir. Bu ekstremal hadisələr məhsuldarlığı aşağı salır, məhsulun keyfiyyətinə mənfi təsir göstərir.

Qidanın yığımında, saxlanmasında, daşınmasında və paylanmasında da iqlim dəyişmələri maneə yaradır. Ekstremal hava şəraiti infrastruktura zərər vurur, ərzaq mallarının bazarlara çatdırılmasını çətinləşdirir. Bu hallar təkcə ərzağın keyfiyyətinə və azalmasına yox, həm də qiymət artımına səbəb olur. Əhalinin həssas qrupundan olan xəstə və aztəminatlı adamların qidalanma imkanları aşağı düşür. Üstəlik kəndlinin illərlə başına dolandığı torpaq əkinçiyə istədiyini vermir, iqtisadi itkilər özünü göstərir, yoxsulluq artır. Ona görə də insanlar alternativ qida vasitələri axtarmaq üçün başqa yerlərə getməli olur ki, bunun da bir ayrı fəsadları ortaya çıxır. Hələ onu demirik ki, temperaturun və havanın dəyişməsi zərərvericilərin və xəstəliklərin yayılmasına münbit şərait yaradır.

Belə olan hallarda fermerlər kənd təsərrüfatında yeni üsullar tətbiq etməyin yollarını tapmalı, quraqlığa davamlı məhsullardan toxum və sortlardan istifadə etməklə təkmilləşdirilmiş suvarma sistemlərinə sərmayə qoymalı və iqlimə uyğun "ağıllı kənd təsərrüfatı" texnikalarını tətbiq etməlidirlər. Yeni su anbarlarının təşkili, əlavə meşələrin salınması, fövqəladə hallara cavab verə biləcək təcili planların işlənib hazırlanması və s. aqrar sektorun gündəliyində mühüm məsələ olmalıdır. Bütün bu məsələlər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) gündəliyində yer alıb.

Təbii ki, insan sağlam qida ilə təmin olunmalıdır. Doğuluşdan son nəfəsinə qədər çalışan insan yaşamaq üçün sağlam qidalanmalıdır. Ona görə də COP səviyyəsində aparılan bütün müzakirələrdə qida təhlükəsizliyi əsas mövzulardan olub. Çünki hər zaman ərzaq təhlükəsizliyi iqlim dəyişikliyi səbəbindən bəşəriyyətin üzləşdiyi qlobal problem kimi qəbul edilib.

Ərzaq təhlükəsizliyi ilə əlaqədar görülən tədbirlərdən biri də müasir aqronomluğun mənimsənilməsi və davamlı əkinçiliyin inkişafı üçün məhdud resurslardan səmərəli istifadə olunmasıdır. Əhali arasında qənaətli istehlakın və davamlı həyat tərzinin vacibliyi ilə bağlı maarifləndirici təbliğatın aparılması da bu təhlükənin təsirini azaldır. Biz gələcək nəsil qarşısında məsuliyyətimizi heç zaman unutmamalıyıq. Onlara qoyub getdiyimiz planetin mühafizəsi üçün həyata keçirməyi planlaşdırdığımız heç bir tədbiri ləngitməyə haqqımız yoxdur.

COP29-un fəaliyyət göstərəcəyi günlərə kimi əlaqədar qurumların qida təhlükəsizliyinə necə əməl etmələrinə gəlincə deyə bilərik ki, xeyli vaxtdır bu istiqamətdə mübarizə aparılır. COP29 Əməliyyat Şirkətinin məlumatına görə, yerli hotellərin təhlükəsizlik və dayanıqlılıq səriştələrinin artırılması istiqamətində təlim proqramının icrasına başlanıb. Proqram beynəlxalq qida təhlükəsizliyinin tələb və qaydalarının baza prinsipləri əsasında Azərbaycana məxsus yerli xüsusiyyətlər nəzərə alınmaqla tərtib edilib və Ətraf Mühitin Sağlamlığı üzrə Lisenziyalı İnstitut (CIEH - Chartered Institute of Environmental Health) tərəfindən təsdiqlənib. Proqramın əsas məqsədi COP29 konfransı zamanı dünyanın müxtəlif ölkələrindən Azərbaycana səfər edəcək çoxsaylı ziyarətçilərin ən yüksək qida təhlükəsizliyi standartlarına uyğun müstəsna iaşə və qonaqlama təcrübəsini təmin etməkdir. Qida tədarükçüləri, hotel, restoran və ümumiyyətlə, ictimai iaşə obyektlərinin əməkdaşları üçün nəzərdə tutulan bu proqram çərçivəsində ilk təlimlər artıq başa çatıb.

Mütəxəssislər deyirlər ki, COP29 qidanın təhlükəsizliyi yönündə əlverişli fürsətdir. Çünki bu istiqamətdə aparılan monitorinqlər, görülən işlər qidanın təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərəcək. Özü də ölkəmizə gələn xarici qonaqların rayonlara da səfər edəcəkləri üçün qida təhlükəsizliyi ilə bağlı tədbirlər tək Bakıda deyil, regionlarda da aparılmalıdır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# COP29 könüllüləri "Eco Enacthon" layihəsində iştirak ediblər



COP29 Azərbaycan Əməliyyat Şirkətinin təşkilatçılığı ilə COP29 könüllüləri üçün "Eco Enacthon" layihəsi baş tutub. AZƏRTAC xəbər verir ki, iki gün davam edən bu interaktiv layihədə könüllülər aktual ekoloji problemlərin həlli istiqamətində orijinal və innovativ layihələrin hazırlanması ətrafında bir araya gəliblər.

Avqustun 29-30-da Heydər Əliyev Mərkəzində keçirilən tədbirin ilk günündə COP29 könüllüləri ixtisaslaşmış ekspertlər tərəfindən aparılan iqlim dəyişmələri və dayanıqlılıq, tullantıların idarə edilməsi və çeşidlənməsi kimi müxtəlif ekoloji mövzularda, eyni zamanda dayanıqlı biznes ideyalarının təkmilləşdirilməsi, məhsul brendlərinin yaradılması və idarə olunması kimi praktiki mövzularda təlimlərə qatılıblar.

Əldə edilən nəzəri və praktiki biliklər proqramın ikinci günündə keçirilən ekoloji layihə müsabiqəsində tətbiq olunub. Belə ki, "Eco Enacthon" yarışının qaydalarına əsasən, bir neçə komandaya bölünən könüllülər gün ərzində verilən tapşırıq və mövzular üzrə öz layihələrini təkmilləşdirərək münsiflər heyəti qarşısında təqdim ediblər. Komanda ruhunu möhkəmləndirən və birgə səylərin vacibliyini bir daha nümayiş etdirən "Eco Enacthon" çərçivəsində könüllülər dayanıqlı enerji həllərindən innovativ tullantıların idarə olunması təşəbbüslərinə qədər müxtəlif sahələri əhatə edə biliblər. Nəticədə ən kreativ yanaşma ilə işlənilən və daha çox aktuallıq daşıyan layihələr münsiflər heyəti tərəfindən qalib elan edilib, müvafiq komanda üzvlərinə mükafatlar təqdim olunub.

İqlim dəyişmələrinin təsirlərinin qarşısının alınmasında gənclərdə innovativ düşüncənin təşviqi və mövcud problemlərə fərqli yanaşmanın stimullaşdırılmasına, aktiv və təşəbbüskar gənclərin potensialının dəstəklənməsinə xidmət edən bu layihə könüllülərə öz ideyalarının daha sərbəst ifadəsi və tətbiqi, bunun üçün müvafiq sahələr üzrə ekspertlərdən dəyərli mentor məsləhətlərinin alınması üçün platformanı təmin edib.

# <u>Ekoloq:</u> "Kağızın təkrar emalında iştirak etməklə daha sağlam planetə töhfə verə bilərik"

**Kağızın təkrar emalı tullantıların dayanıqlı idarə edilməsi üçün vacib komponentdir və ətraf mühit üçün çoxsaylı faydaları var. İstifadə olunmuş kağızı təkrar emal etməklə biz təbii resurslara olan yükü əhəmiyyətli dərəcədə azalda, çirklənməni minimuma endirə və meşələrin qırılmasının mənfi təsirlərini azalda bilərik. Bunu AZƏRTAC-a açıqlamasında "EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin sədri ekoloq Firuzə Sultanzadə söyləyib.**

O bildirib ki, kağızın təkrar emalının vacib amillərindən biri təbii sərvətlərin qorunmasıdır. Belə ki, kağız istehsalı meşələrin qırılmasının əsas səbəblərindən biridir, çünki bunun üçün böyük miqdarda odun tələb olunur. Kağızın təkrar emal edilməsi xam ağaca tələbatı azaldır və beləliklə, meşələri qoruyur. Meşələr biomüxtəlifliyin, su hövzələrinin qorunması və iqlimin tənzimlənməsi üçün çox önəmlidir.

"Kağızın təkrar emalı nəticəsində həmçinin suya və enerjiyə də qənaət olunur. Bu, xüsusilə su qıtlığı ilə üzləşən regionlarda mühüm resurs olan suya qənaət etməyə kömək göstərir. Həmçinin kağızın təkrar emal edilməsi ağaclardan yeni kağız istehsal etməkdən 60-70 faiz daha az enerji sərf edir. Enerji istifadəsində bu azalma iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verən daha az istixana qazı emissiyasına gətirib çıxarır. Digər tərəfdən isə daha az enerji istifadə etməklə təkrar emal həm də qalıq yanacaqlardan asılılığı və kağız istehsalı ilə bağlı karbon izlərini daha da azaldır", - deyə F.Sultanzadə diqqətə çatdırıb.

Onun sözlərinə görə, təkrar emal prosesi eyni zamanda kağızın tullantı poliqonuna düşməsinin qarşısını alır: "Təkrar emal etməklə biz mövcud poliqonların ömrünü uzada və yenilərinə olan ehtiyacı azalda bilərik. Həmçinin kağızın təkrar emalı prosesi yeni kağız istehsalı ilə müqayisədə daha az hava və su çirklənməsi yaradır. Bu, kağız istehsalı prosesi zamanı tez-tez buraxılan kükürd birləşmələri kimi zərərli kimyəvi maddələrin azaldılmasını əhatə edir".

Təkrar emal sənayesinin toplama, emal və istehsal baxımından iş yerlərini yaratdığını deyən ekoloq bildirib ki, bu, ekoloji məqsədləri dəstəkləməklə yanaşı, yerli iqtisadiyyatları stimullaşdırmağa kömək edir. Eyni zamanda bu proses müəssisələr üçün xərclərə də qənaət edir. Belə ki, şirkətlər təkrar emalda iştirak edən aşağı emal xərcləri səbəbindən tez-tez daha ucuz olan təkrar emal edilmiş kağız məhsullarını almaqla xərcləri azalda bilər.

"Kağızın təkrar emalı materialları mümkün qədər uzun müddət istifadədə saxlamaqla dövri iqtisadiyyatı dəstəkləyir. Bu yanaşma yeni resurslara ehtiyacı azaldır və ətraf mühitə təsirləri minimuma endirərək daha davamlı gələcəyə kömək edir. Təkrar emal fərdləri və müəssisələri ümumi tullantıların azaldılması və enerjiyə qənaət kimi digər sahələrdə ekoloji cəhətdən daha təmiz təcrübələri qəbul etməyə təşviq edə bilər", - deyə ekoloq vurğulayıb.

F.Sultanzadə əlavə edib ki, kağızın təkrar emalı təkcə resurslara qənaət etmir və çirklənməni azaltmır, həm də ekosistemlərin qorunmasında və iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır. Kağızın təkrar emalında iştirak etməklə fərdlər və təşkilatlar daha sağlam planetə töhfə verə və təbii ehtiyatların gələcək nəsillər üçün mövcud olmasını təmin edə bilərlər. Bundan əlavə, o, dayanıqlılıq mədəniyyətini təşviq edir, cəmiyyət dəyərlərini ətraf mühitə nəzarət və məsuliyyətli istehlaka doğru dəyişməyə kömək edir.



# Abicanda Afrika ölkələrinin COP29-a hazırlıq məsələləri müzakirə olunur

Avqustun 30-da Kot-d'İvuarın paytaxtı Abicanda işə başlayan və sentyabrın 2-dək davam edəcək Afrikada İqlim Dəyişikliyi və İnkişaf üzrə 12-ci Konfransda (CCDA-XII) Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində iqlim dəyişikliyinin yaratdığı təcili çağırışlarla mübarizə aparmaq üçün əsas maraqlı tərəflərin koalisiyası bir araya gəlib.



AZƏRTAC BMT-nin Afrika İqtisadi Komissiyasının (ECA) saytına istinadla xəbər verir ki, Bakıda keçiriləcək COP29 konfransından əvvəl Afrika Ətraf Mühit Nazirləri Konfransı (AMCEN) ilə yanaşı keçirilən CCDA-XII innovativ həlləri araşdırmaq, ən yaxşı təcrübələri bölüşmək və strateji tərəfdaşlıq qurmaq üçün liderləri, siyasətçiləri, ekspertləri və müdafiəçiləri birləşdirmək, Afrikanın aşağı karbonlu, iqlimə davamlı gələcəyə keçidini sürətləndirmək məqsədi daşıyır.

Kot-d'İvuarın ətraf mühit naziri Jak Assahor Konan açılış nitqində iqlim böhranının qlobal istixana qazı emissiyalarının 4 faizindən azına malik olan, lakin iqlimlə bağlı nəticələrin əsas ağırlığını daşıyan Afrikaya qeyri-mütənasib təsirini vurğulayıb. COP29 iqlim konfransında bu məsələnin diqqət mərkəzində olacağını qeyd edən nazir bildirib: "Bu mənfi təsirlərə uyğunlaşmaq Afrika üçün böyük narahatlıq doğurur və adekvat maliyyələşdirmənin təmin edilməsi əsas məsələdir. Bu konfransın "Afrikada iqlimə uyğunlaşma və dayanıqlığın maliyyələşdirilməsi" mövzusu və burada toplanan təcrübə Azərbaycanda keçiriləcək COP29 konfransında qitə üçün ümid işığı təklif edir".

ECA-nın icraçı katibinin müavini və baş iqtisadçı Hanan Morsi iqlim maliyyəsində kritik çatışmazlığı vurğulayıb: "2009-cu ildə illik 100 milyard dollar vəd edilməsinə baxmayaraq, qlobal iqlimə davamlılığı dəstəkləmək üçün lazım olan təxminən 1,3 trilyon dolların yalnız bir hissəsi səfərbər edilib. Uyğunlaşma üçün qlobal iqlim maliyyəsinin 2025-ci ilə qədər gözlənilən ikiqat artımdan daha çox azalması iqtisadiyyat üçün ciddi təhlükə yaradır".

Afrika Birliyi Komissiyasının kənd təsərrüfatı, "yaşıl iqtisadiyyat" və davamlı ətraf mühit (ARBE) üzrə komissarı Cosefa Korreya Sako isə bildirib ki, Afrikanın iqlim öhdəlikləri üçün böyük maliyyə vəsaiti tələb olunur. O əlavə edib: "Afrika ölkələrinin bu vəzifələri tam şəkildə həyata keçirməsi üçün təxminən 3 trilyon ABŞ dollarına ehtiyacı olacaq. Bununla belə, iqlim fəaliyyəti üçün adekvat maliyyənin təmin edilməsi mühüm problem olaraq qalır. COP28-in nəticələri və cari ilin noyabrında Bakıda, Azərbaycanda keçiriləcək COP29-da aparılacaq müzakirələr bu baxımdan dönüş nöqtəsi ola bilər. Hamımız COP29-a hazırlaşarkən vahid mövqedən çıxış etməli, diqqətimizi Afrika üçün geniş miqyasda iqlim maliyyəsini səfərbər etməyə yönəltməliyik".

Afrika İnkişaf Bankının iqlim dəyişikliyi və "yaşıl inkişaf" üzrə direktoru Entoni Nyonq isə bildirib ki, qitə ölkələri COP29 iqlim konfransında maliyyə məsələləri ilə yanaşı, qabaqcıl texnologiyaların təmin edilməsinə, yaşıl enerji mənbələri və karbonsuzlaşdırma sahəsində inkişaf etmiş ölkələrin maksimum yardımına nail olmağa çalışmalıdır.

CCDA-XII iqlim maliyyəsi, "yaşıl inkişaf", iqlim ədaləti və regional əməkdaşlıq kimi kritik mövzulara diqqət yetirir. Konfrans Afrika liderləri, siyasətçiləri və ekspertləri üçün qitəni davamlı və möhkəm gələcəyə doğru aparacaq strategiyalar üzərində əməkdaşlıq etmək üçün mühüm platforma təqdim edir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Azərbaycanı bu gün dünya üçün əhəmiyyətli edən həm də yerləşdiyi coğrafi məkan və mükəmməl nəqliyyat infrastrukturuna malik olmasıdır. Dünyanın iki cəbhəyə bölündüyü indiki vaxtda nəqliyyat dəhlizlərinə nəzarət ön plana keçib. O üzdən həm Qərb, həm də Şərq bloku Azərbaycanla münasibətləri yaxşılaşdırmağa çalışırlar.**

## Şərq də, Qərb də Azərbaycanın yükdaşımalarda mühüm qovşaq ölkə olduğunu qəbul edir

Dünyanın ən önəmli iki beynəlxalq marşrutunun qovuşduğu ərazidə yerləşən ölkəmizdə hələ illər öncə sözügedən istiqamətdə ciddi infrastruktur layihələri icra olunmuşdur. Üstəlik Azərbaycan ölkə ərazisində gördüyü işlərlə kifayətlənməyib, Gürcüstanda da dəmir yolu infrastrukturunun yenidən qurulmasına hər cür, o cümlədən maddi dəstək vermişdir. Qonşu ölkəyə simvolik faizlə uzunmüddətli kredit ayrılmış, tikintinin vaxtında başa çatması üçün texniki yardım göstərilmişdir.

İndi işğaldan azad olunan ərazilərdə yeni dəmir yolu xətləri inşa edilir. Bu ərazilərin əsasən dağlıq relyefini nəzərə alsaq, görülən işlərin nə qədər çətin olduğu anlaşılar. Buna baxmayaraq, işlər sürətlə davam edir. Məqsəd ölkənin bütün ərazisində dəmir yolu infrastrukturunu inkişaf etdirməkdir. Çünki ölkə iqtisadiyyatının inkişafında bu, mühüm amillərdən biridir.

Məlum olduğu kimi, Orta dəhlizdə yüklərin daşınmasına böyük tələbat yaranıb. Bu səbəbdən dəhlizin texniki imkanlarını müasir dövrün tələblərinə uyğunlaşdırmaq lazımdır. Dünyanın ən böyük istehsalçısı olan Çin yüklərini təhlükəsiz və qısa zamanda daşımaq üçün "Bir kəmər, bir yol" layihəsinə milyardlarla dollar investisiya qoyub. İndi isə layihədə önəmli rolu olan Orta dəhlizdə görülən işləri sürətləndirmək niyyətindədir. ÇXR bu məqsədlə dəhlizin keçdiyi region ölkələri ilə əməkdaşlığı dərinləşdirir.



Prezident İlham Əliyevin Çinə son səfəri zamanı sözügedən sahədə əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəlinməsi də bunu sübut edir. Səfər zamanı imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında" Birgə Bəyannamənin 2.3-cü bəndində deyilir: "Tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə, "Bir kəmər, bir yol" çərçivəsində bütün sahələrdə praktik əməkdaşlığı dərinləşdirməyə, Azərbaycan və Çin hökumətləri arasında beynəlxalq multimodal daşımaların inkişafına dair saziş imzalanmasını sürətləndirməyə hazır olduqlarını bildirirlər". Həmin bəndin bu bəyannaməyə salınması onu göstərir ki, Çin ölkəmizlə Orta dəhlizdə əməkdaşlığı daha da dərinləşdirmək niyyətindədir.

ÇXR strateji əməkdaşlıq bəyannaməsindən dərhal sonra "Azərbaycan Dəmir Yolları" QSC ilə yeni sahələrdə əməkdaşlığa başladı. İki ölkənin dəmiryolçularının görüş zamanı Orta dəhlizə yeni yüklərin cəlb olunması, qarşılıqlı əlaqələrin mövcud və gələcək inkişaf perspektivləri, hər iki tərəfi maraqlandıran aktual məsələlər və Azərbaycan ərazisindən keçən tranzit daşımaların Çin tərəfindən subsidiyalaşdırılması barədə fikir mübadiləsi aparıldı. Bundan sonra tərəflər arasında əməkdaşlığa dair memorandum imzalandı. Həmin sənəd iki ölkə arasında dəmir yolu nəqliyyatı sahəsində əlaqələrin inkişafına və Orta dəhliz üzərindən daşımaların həcminin artırılmasına xidmət edəcək.

Azərbaycanda infrastruktur layihələrinə maraq göstərən tərəf təkcə Çin deyil. Avropa İttifaqı da Çinlə ticarəti qarşılıqlı şəkildə inkişaf etdirmək üçün Orta dəhlizin önəmli ölkəsi olan Azərbaycanla əməkdaşlığa can atır. Aİ ilə Azərbaycan Xəzəraşırı yüklərin ləngiməməsi üçün Ələt Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyətini artırmaq üçün danışıqlar da aparıb. Bu danışıqların nəticəsi olaraq Aİ sözügedən məqsədin reallaşması üçün bir neçə milyard avro investisiya qoymaq istədiyini bəyan edib. Bir sözlə, Şərq də, Qərb də Azərbaycandakı mövcud dəmir yolu infrastrukturunun inkişafı üçün sərmayə qoymağa və texniki dəstək verməyə hazırdır.

Xatırladaq ki, Azərbaycan da öz növbəsində Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsinin modernləşdirilməsinə və genişləndirilməsinə dəstək verib. Bu istiqamətdə ötən il mayın 16-dan başlanan işlər cari il mayın 20-də başa çatıb. Məqsəd həmin marşrut üzrə yükdaşımaların həcmini ildə 5 milyon tona çatdırmaqdır. Bu sahədə əməkdaşlıqda daha fəal olan tərəf isə Azərbaycandır. Ölkəmizin təşəbbüsü ilə Azərbaycanla Gürcüstan Bakı-Tbilisi-Qars dəmir yolunun idarə olunması üçün birgə müəssisə yaradıb. Təşəbbüsə Qazaxıstan da qoşulub və üstəlik Türkiyə və Çin də buraya qatılmaq niyyətində olduğunu bildirib. Bir sözlə, ölkəmizin təşəbbüsü sayəsində geniş bir coğrafiyanı birləşdirən ölkələr əməkdaşlığı daha da genişləndirmək barədə qərarlı görünürlər.

Azərbaycan "Şimal-Cənub" marşrutunda da önəmli işlər görür. Hədəf yolun ötürücülük qabiliyyətini daha da artırmaqdır. Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfəri zamanı mətbuata verdiyi bəyanatda bu barədə bildirmişdir: "Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal-Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox - 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır. Ümidvaram ki, hazırkı şəraitdə Rusiya və Azərbaycan, həmçinin bu dəhlizin digər iştirakçıları birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər. Bir daha deməliyəm ki, biz bu il həmin dəmir yolu sahəsinin tələb edilən ötürücülük qabiliyyətinə malik olması üçün modernləşdirilməsi məqsədilə təxminən 120 milyon dollar ekvivalentində vəsait nəzərdə tutmuşuq".

*Rüstəm KAMAL, "Azərbaycan"*

## İşğaldan azad edilmiş ərazilərdə tikinti-quraşdırma işlərinə yatırılan investisiyalar 53 faiz artıb

**2023-cü ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan tikinti-quraşdırma işləri üçün 6 milyard 141,787 milyon manat vəsait ayrılıb.**



Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, bu, 2022-ci illə müqayisədə 53,1 faiz artım deməkdir.

Məlumata əsasən, bu investisiyanın 64,1 faizi, yəni 3 milyard 937,536 milyon manatı Şərqi Zəngəzur, 35,9 faizi, yəni 2 milyard 204,251 milyon manatı isə Qarabağ iqtisadi rayonlarına yönəldilib. 2022-ci ilin eyni dövrü ilə müqayisədə bu göstəricilər müvafiq olaraq 82 faiz və 19,3 faiz artıb.

Hesabat dövründə Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna yatırılan investisiyalar 2 dəfə artaraq 54,123 milyon, sənayeyə yatırılan vəsaitlər 32,3 faiz artaraq 240,263 milyon, tikinti sahəsinə ayrılan vəsaitlər isə 3,3 dəfə artaraq 383,163 milyon manata çatıb. Ticarət və nəqliyyat vasitələrinin təmirinə qoyulan investisiyalar 57,4 dəfə artaraq 11,471 milyon, nəqliyyat və anbar təsərrüfatına yatırılan vəsaitlər isə 7,9 faiz azalaraq 1 milyard 368,187 milyon manat olub. İqtisadiyyatın digər sahələrinə yatırılan investisiyalar isə 2,6 dəfə artaraq 197,192 milyon manata çatıb.

2023-cü ildə Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna investisiyalar 10,7 dəfə artaraq 294,245 milyon, sənaye sektoruna yatırımlar isə 14,4 dəfə artaraq 678,628 milyon manat təşkil edib. Tikinti sahəsinə ayrılan vəsaitlər 4,1 dəfə artaraq 893,564 milyon, nəqliyyat və anbar təsərrüfatına qoyulan vəsaitlər 16 faiz artaraq 2 milyard 33,965 milyon manat olub. İqtisadiyyatın digər sahələrinə yatırılan investisiyalar isə 36,7 faiz azalaraq 110,408 milyon manata enib. Ticarət və nəqliyyat vasitələrinin təmirinə isə investisiya ayrılmayıb.

## Goranboyda təsərrüfatların 80 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Onlayn Azərbaycan" layihəsi çərçivəsində "Aztelekom" MMC tərəfindən Goranboy rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradılıb.**

Nazirlikdən verilən məlumata görə, Goranboy şəhərində şəbəkənin tikintisi başa çatıb. Rayonun əksər kəndlərində və Goran qəsəbəsində 29927 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb.

Ümumilikdə, rayonda mövcud təsərrüfatların 80 faizdən çoxunun genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 10175 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam edir.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə aparılır.

"Əsrin müqaviləsi" - 30

# 5707 tanker "qara qızıl"

### BTC indiyədək Səngəçaldan Ceyhana 4,3 milyard bareldən çox neft çatdırıb

**"Əsrin müqaviləsi" imzalandıqdan cəmi üç il sonra - 1997-ci il noyabrın 12-də İlkin Neft Layihəsi (İNL) çərçivəsində "Çıraq" platformasından hasilata başlandı. Qarşıdakı illərdə "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının da istismara daxil olacağı nəzərdə tutulurdu.**

Odur ki, mövcud ixrac marşrutlarından başqa, daha böyük bir xəttin çəkilməsinə ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin tikilməsi ideyası irəli sürüldü.

1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə imzalandı. 1999-cu il noyabrın 18-də isə İstanbulda, ATƏT-in Zirvə toplantısında xəttin çəkilişi ilə bağlı növbəti sazişə imza atıldı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-nin ovaxtkı prezidentləri imzaladılar. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.

BTC qarşısında "yaşıl işıq" yandıran həmin sazişin imzalanması "Əsrin müqaviləsi"ndən sonra ölkəmiz üçün tarixi əhəmiyyət kəsb edən növbəti mühüm hadisə idi. Çünki Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi çərçivəsində çıxarılan nefti dünya bazarlarına nəql etmək üçün boru kəmərləri çəkilməsi zərurəti həm də bu səbəbdən yaranmışdı. Odur ki, 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri (QİBK) istifadəyə verilmişdi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və tikintinin müvəffəqiyyətlə başa çatdırılması göstərmişdi ki, Azərbaycan daha böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

Ancaq BTC-nin həm ölkəmizdəki, həm də xaricdəki bədxahları hər vasitə ilə bu layihənin reallaşmasına mane olmağa cəhd göstərirdilər. Deyirdilər ki, Azərbaycanın bu xətti doldurmaq üçün yetərincə nefti yoxdur. Gah kəmərin seysmik zonalardan keçəcəyindən guya narahat olurdular, gah da ətraf mühitə ziyan vuracağı barədə əsassız fikirlər söyləyirdilər.

Lakin Heydər Əliyev dühası ilə bu möhtəşəm layihə qalib gəldi. Dünyanın görkəmli siyasətçiləri və peşəkar neft mütəxəssisləri dönə-dönə vurğulayıblar ki, Heydər Əliyev olmasaydı, BTC də olmazdı.

BP-nin Xəzər regionunda xarici işlər və kommunikasiyalar üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli yazır: "Ümummilli Lider Heydər Əliyev mövcud seçimlər arasında Azərbaycan-Gürcüstan-Türkiyə ixrac marşrutuna üstünlük verdi. Bu gün bizim Bakı-Tbilisi-Ceyhan kimi tanıdığımız həmin boru kəmərinin ideya müəllifi, həyata keçirilməsinə nail olan şəxs məhz Ümummilli Lider olmuşdu. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan boru kəməri həmin dövr üçün zəruri, ancaq çox çətin hesab edilən və hətta bir mühəndislik möcüzəsi hesab edilən ixrac marşrutu idi. Çünki 1768 kilometr məsafəyə uzanan boru kəməri dağlardan, çaylardan keçərək coğrafi baxımdan çox mürəkkəb marşrut üzərindən salındı. Həmçinin bu ixrac marşrutu kifayət qədər mürəkkəb



mühəndislik işləri tələb edən ciddi və vacib bir layihə idi. Hətta investorlar bu qədər mürəkkəb layihəyə ciddi investisiya qoymağa bir qədər tərəddüd edirdilər. Amma məhz Ulu Öndərin siyasi iradəsi, qətiyyəti və eyni zamanda Gürcüstan və Türkiyə hökumətləri ilə bütün məsələləri kompromis qaydasında danışıqlarla həll etməsi investorlar üçün də başqa çıxış yolu qoymadı".

2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Ulu Öndərin iştirakı ilə kəmərin təməli qoyuldu. 2005-ci il mayın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə xəttə ilk neft vuruldu. BTC tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verildi. Layihənin tərəfdaşları ona Ulu Öndər Heydər Əliyevin adının verilməsi təklifini irəli sürdülər və bu təşəbbüs yekdilliklə bəyənildi. BTC bu uca adı şərəflə daşıyır.

Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunların hamısı reallıqdır.

BTC-nin necə nəhəng mühəndis qurğusu olduğunu göz önündə canlandırmaq üçün ona aid faktlardan bəzilərini yenidən yada salaq. Bu kəmər Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən xətt ölkəmizdə 443, Gürcüstanda 249 və Türkiyədə 1076 kilometrlik yol boyu uzanır. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür.

Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə Azərbaycanda - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyə ərazisindədir. BTC əvvəlcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilmişdi. 2009-cu ilin yazından isə onun gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon barelə çatdırıldı.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə həmçinin ekoloji riskləri azaldır. Başlıca şərtlərdən biri də kəmərin təhlükəsizliyidir. Boruları etibarlı şəkildə örtüklənmiş və bütün marşrutu boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işini davam etdirir. Bir sözlə, BTC bütün sınaqlardan şərəflə çıxır. Məlum olduğu kimi, Türkiyədə kəmərin bir hissəsinin keçdiyi bölgələrdə keçən ilin fevral ayında zəlzələ baş vermişdi. Lakin istər nefti nəql edən borular, istərsə də yerüstü qurğular heç bir mənfi təsirə məruz qalmamışdı. Bu da BTC-nin necə keyfiyyətlə inşa olunduğunun, möhkəmliyinin daha bir təsdiqi!

BTC fəaliyyətini fasiləsiz və təhlükəsiz davam etdirir. Hazırda kəmərlə əsasən Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşınır. Bundan əlavə, xəttə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də vurulur. Xatırladaq ki, BTC-nin səhmdarları bunlardır: BP (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total-Energies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "Ekson-Mobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləri. Ümumilikdə indiyədək BTC vasitəsilə təqribən 576 milyon ton (4,3 milyard bareldən çox) xam neft nəql edilib və Ceyhanda 5707 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Layihənin əməliyyatçısı olan BP-nin məlumatına görə, bu ilin birinci yarısında BTC ilə ixrac olunmuş təqribən 14 milyon ton (təxminən 110 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 150 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Prezident İlham Əliyevin dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Müdrik Prezidentimiz bu layihəni uğurla davam etdirməklə yanaşı, BTC-nin açdığı yolu böyük dəhlizlərə qovuşdurdu. Azərbaycan artıq 18 ildir xaricə həm də qaz ixrac edir. "Cənub qaz dəhlizi" şaxələnərək Avropanın enerji təhlükəsizliyində getdikcə daha mühüm rol oynayır. Bu gün səkkiz ölkə Azərbaycandan qaz alır və onların sayının artacağı gözlənilir. Biz Avropaya "yaşıl enerji" dəhlizi də çəkəcəyik və dövlətimizin başçısı deyir ki, bu, "Cənub qaz dəhlizi"ndən də böyük bir layihə olacaq.

*Flora SADIQLI, "Azərbaycan"*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 aprel (Bazar ertəsi günü) tarixli 157-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



AZƏRBAYCAN

Düşənbə, 13 rəcəbül-mürəccəb sənə 1337.
14 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

1919-cu sənəsi seşənbə [çərşənbə axşamı] günü aprelin 14-ündə, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

*T-105*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Dəvət**

Azərbaycan Cümhuriyyətinin Bakı qəzası Əxzi-əsgər [Hərbi çağırış] idarəsi bina tutub fəaliyyyətə başlayıbdır.

Camaati-müsəlman! Fəramuş etməyin [unutmayın] ki, hər bir əsgərliyə dəvət olunan şəxs borcludur qəlbən gəlib öz vəzifəsini ifa eyləsin və bununla həmin şəxs öz millətinə böyük bir xidmət göstərər və Azərbaycan Hökumətinin yaşamağına səbəb olar.

Camaati-müsəlman! Yad ediniz ki, hökumətin paydar [daimi] olmağına ləşkər lazımdır. Ona binaən [ona görə] o şəxslər ki, əsgərlik vəzifəsindən gərdənkeş olub [boyun qaçırıb] gəlməzlərsə, özlərinə millət yanında böyük eyib gətirərlər və digər [yandan] qanuna müvafiq böyük bir tənbehə [cəzaya] düçar olacaqdır.

*Azərbaycan Hökumətinin*
*Bakı qəza Əxzi-əsgər idarəsi tərəfindən*

## MALİYYƏ NAZİRİNİN QƏTNAMƏSİ

**30 Mart 1919 sənə**

**Azərbaycan Hökuməti tərəfindən buraxılacaq 100 manatlıqlar xüsusunda**

1) İndiyə qədər işlədilməkdə olan pullardan başqa hökumət tərəfindən təsdiq edilmiş şəkildə 100 manatlıq Azərbaycan dövləti pulları buraxılsın.

2) Göstərilən pullar dövlət əmvalı [malları] ilə təmin edilir.

3) Maliyyə nazirinə həvalə olunsun ki, həm[in] pulların işlənməsi qanunu və buraxılması qaydalarını nəşr edib "Azərbaycan" qəzetəsinin qismi-rəsmisində həmin pulun 1919-cu il şəklini təsvir ilə elan etsin.

*Maliyyə naziri*
*vəzifəsini ifa edən:*
*Əliağa Həsənzadə*

## AZƏRBAYCAN CÜMHURİYYƏTİ TƏRƏFİNDƏN BURAXILACAQ 100 MANAT QİYMƏTİNDƏ OLAN PULLARA DAİR QANUN

1) 1919-cu sənədə yeni təsdiq edilmiş 100 manatlıq pulların nümunələrini əhali görərək həman pullar ilə aşina olmaları üçün Cümhuriyyətin bütün xəzinəxanalarında qoyulması lazım olduğu kimi, bütün məhəlli [yerli] istiqraz idarələrində qoyulmalıdır ki, bu növlə bütün əhali həman nümunələri görüb onlarla aşina olsunlar.

2) Azərbaycan Cümhuriyyəti tərəfindən 1919-cu sənəsində buraxılacaq 100 manatlıq pulların əhali arasına Bakı xəzinəsindən 1919 sənədə aprel ayının 10-undan və qeyri xəzinələrdən isə məzkur [deyilən] 100 manatlıq pullardan onlara lazımi miqdarda verildikdən sonra intişar ediləcəkdir [yayılacaqdır].

3) 1919-cu sənə şəklində olan 100 manatlıq pullarını Bakı xəzinəsi ləkəli, əzilmiş, cırılmış, çirklənmiş vəyainki zədələnmiş buraxmamalıdır.

4) 1919-cu sənə şəklində olan zədələnmiş 100 manatlıq pulların dörddən üç hissəsi qalmamış ola vəyainki heç olmazsa nişanı, bir tərəfində nömrə və ya imzası olmaya vəyainki əvvəlki nömrələrdən biri olmamış ola və bir də yeni nömrələrin birisindən bütün nömrə düzəltmək qeyri-mümkün olarsa, alver məqamında qəbul edilməyəcəkdir. Cırılmış və ya parçalanmış yüz manatlıq pullar həmçinin qəbul edilməyir [o halda ki,] parçalanmış hissələr bir-birlərinə tutuşdurulduğu vaxtda nömrələri, nişanları cırılmamış pullar kimi düz gəlməyə vəyainki böylələrini tutuşdurduqda parçaların həman puldan olmadığı aşkar olar.

*Maliyyə naziri:*
*Əliağa Həsənzadə*

## 1919 SƏNƏSİNDƏ BURAXILAN 100 MANATLIQ PULLARIN TƏSVİRİ

Pullar adi ağ kağızda olaraq su nişanı olmadan təb [çap] edilmişdir. Pulun tulu [uzunu] 138 millimetrə və ərzi [eni] isə 89 millimetrədir.

**Üz tərəfi**

Üz tərəfi 1) yazılardan və 2) tormisal [torşəkilli] nəqşlərdən ibarətdir.

**Yazısı**

Yazısı tünd qəhvəyi rəngdə təb edilmişdir. Biletin yuxarısında 5 millimetrə böyüklüyündə adi hürufla [hərflərlə] "Azərbaycan Hökuməti" yazılmışdır. Həman yazı biletin yuxarı tərəfdə olan haşiyəsinin ortasında xalis, sarı-əlif [sarı-zeytuni] fonunda yerləşdirilmişdir.

İkinci xətt [sətir]: "yüz manat" kəlmələri ilə müdəvvir-misal [dairəşəkilli], biletin ortasında, onun tulunun [uzunluğunun] üçdən bir hissəsini işğal edərək [tutaraq] yerləşdirilmişdir. Həman yazı böyük kəlmələrlə mənquş hürufat [naxışlı hərflər] ilə ki, bunun yuxarı yarısı qırmızı-misal [qırmızıya çalan] qəhvərəngi sayəsilə [kölgəsilə], aşağı hissəsi isə tünd qəhvəyi rənglə icra edilmişdir. Hürufat aşağı və sağ tərəfdən tünd qəhvəyi millərlə çəkilmişdir.

Üçüncü xətt: türk dilində biri-birlərilə müttəsil hürufatdan [birləşmiş hərflərdən] ibarət iki kəlməni təsvir edir: "Azərbaycan Hökuməti". Bu xətt 10 millimetrə ərzində nazik tünd qəhvəyi rənglərlə boyanmış millərin üstündə yazılmışdır. Bu sözlərdən birinin hürufatı tünd qəhvəyi rənglə yazılıb sarı-əlif xətt ilə dövrələnmişdir. O biri kəlmənin hürufatı isə açıq sarı rəngdən əlavə tünd qəhvəyi rənglə dəxi yazılmışdır.

Dördüncü xətt: biletin ortasında ən iri hürufat ilə türkcə "yüz manat" yazılmışdır. Hürufatın rəngi, kağızın əsl rəngi bəyaz olduğu kimi bəyazdır. Hürufat tünd qəhvəyi kontura ilə, aşağıdan və sağdan isə ikişər nazik xətt [ilə] dövrələnmişdir.

Beşinci xətt: "Saxta[sı]nı yapanlar qanunən təqib edilir" kəlmələri tünd qəhvəyi rəngdə kiçik hürufat ilə icra edilmişdir.

Altıncı xətt: "Qanun ilə" kəlməsi hər tərəfdən bir hərf [boyunda] yuxarıdakı xətdən qısadır. O, yuxarıdakı xətdən bir az iri və aralı olaraq yazılmışdır.

Yeddinci xətt: türk dilində yazılmış və beşinci, altıncı xətlərin eyni ilə tərcüməsidir.

4, 5, 6 və 7-ci xətlər açıq sarı rəngli tor nəqşli xalını təsvir edən yerdə yazılmışdır.

Biletin sol tərəfinin aşağı hissəsində sütunlar və xalı arasında sadə yazılmış "yüz" hürufatının üstündə tünd qəhvəyi rənglə iki xətdə yazılmışdır: "Heyəti-Vükəla rəisi" [Nazirlər Kabineti sədri] və bunun altında Heyəti-Vükəla rəisinin imzası.

Bir az aşağı həman hürufatla yazılmışdır: "Maliyyə naziri" və bunun aşağısında Maliyyə nazirinin imzası.

Biletin aşağı hissəsində sağ tərəfdə həman sözlərin tərcüməsi olaraq türk dilində yazılmışdır. "100" dəxi türkcə yazılmışdır.

Biletin haşiyəsi hər iki tərəfdən iki sütunlarla təkyələnmiş [dəstəklənmiş], Şərq üsulunda tağ təsvir edir. Sütunlar tünd qəhvəyi rənglə mənquşdur [naxışlanmışdır]. Haşiyənin yuxarı küncləri mürəbbe [kvadrat] olaraq, içərisində dövrə içində "100" yazılmışdır.

Biletin aşağı tərəfində sütunlarla xalının arasında 4 millimetrə tulunda [uzunluğunda] həndəsə üsulu ilə sınıq xətlərin arasında yeddi dəfə, yuxarıda "manat", aşağıda isə "yüz" yazılmışdır.

Sütunların əsası iki xətlə ayrılır və həman şrift ilə yazılmışdır: "yüz manat".

Biletin mərkəzi yuxarı tərəfdən iki böyük dövrə ilə sıxılmış, xalının yan və aşağı tərəfində dörd ulduzlu nəqşlər vardır. Bu nəqşlərin aşağı tərəfi qırmızı-qəhvəyi rənglə yazılmışdır. Xalının aşağı tərəfində saçaqlar var. Xalının yuxarısı iki tərəfdən yeddi dəfə dışarı çıxmış müdəvvir [girdə] xətləri mühitdir [əhatə edir]. Yuxarı və aşağı tərəfdən açıq sarı rəngli xətlər vardır.

Bu müdəvvir xətt xalının yuxarı guşələrindəki iki dövrələrlə mərbutdur [bağlıdır]. Bu dövrələrin içində qırmızı-qəhvərəngli və aşağı tərəfdən tünd rənglə rənglənmiş sol dövrədə "yüz", sağ tərəfdə isə türkcə "yüz manat" yazılmışdır. Bu dövrələrin aşağı və yuxarı tərəflərində nəqşlər vardır. Böylə ki, aşağıdakı nəqş yuxarıdakından böyükdür. Haşiyə[lənmiş] xalı və əsası açıq sarı rəngli bir-birinə keçirilmiş dövrələrlə yazılmış tor təsvir edir.

**Biletin dal tərəfi**

Biletin dal tərəfi 1) yazı 2) dalğamisal [dalğaşəkilli] tordan ibarətdir.

**Yazısı**

Yuxarı xətdə "Azərbaycan Hökuməti" tünd qəhvəyi millərin üstündə yazılmışdır. Bu kəlmənin hürufatı [hərfləri] kağızın öz rəngi ilə yazılmışdır. Hürufatın içində bilinməz nazik xətlər vardır.

Bu kəlmələr adi hürufatla yazılıb hər iki tərəfdən nəqşlərlə araya alınmışdır. Haşiyənin mürəbbeləri[ni]n bitişdiyi yerdə səkkizguşəli ulduz əmələ gəlir ki, bunların sağ tərəfindəkində rusca "1919 il" və sol tərəfindəkində türkcə "1335 sənə" yazılmışdır.

İkinci xətdə müdəvvir [girdə] olaraq türkcə "Azərbaycan Hökuməti" yazılmışdır. Bu kəlmələrin hürufatı kağızın adi rəngi ilə yazılıb sağ və aşağı tərəflərdən tünd qəhvəyi rənglə əhatələnmişdir.

Üçüncü xətt: on mürəbbe-misal [kvadratşəkilli] yerdə açıq rəngli "yüz manat" yazılmışdır. Böylə ki, "yüz" mürəbbenin sol küncündə, "manat" isə sağ tərəfdə yazılmışdır. Bu kəlmələrin hürufatı açıq qəhvərənglə yazılıb mərkəzə yavuqlaşdıqca kiçikləşir.

Dördüncü xətt: mürəbbenin aşağı tərəfində sağ və sol guşələrində birər dəfə "yüz" yazılmışdır. Bundan daha aşağı xırda sadə xətlə yazılmışdır: yuxarıda birinci xətdə – "bərabər işlənir", ikinci xətdə əvvəlki xətdən bir qədər uzun və böyük hərflə – "Rusiya dövləti", üçüncü xətdə isə vəsəti [orta] hürufat ilə "kağız pulu ilə" yazılmışdır. Bu kəlmələr üç dəfə nazik millər ilə əhatələnmişdir.

Sağ tərəfdə həman növ ilə və həman sözlər türkcə yazılmışdır: "Rusiya dövlət kağız pulu ilə bərabər işlənir."

Biletin sol tərəfində rəngsiz haşiyə üstündə və aşağısında yazı ilə "yüz manat" yazılmışdır. Biletin sağ tərəfindəki haşiyəsində həmin bu sözlər rusca olaraq yazılmışdır.

Ancaq rusca manat kəlmələri mənquş [naxışlı] hüruf ilə yazılmışdır.

Biletin mərkəzi qırmızı-qəhvəyi rəngli və səkkiz guşəli ulduzu təsvir edən dövrədən ibarət olub, içərisində türkcə "yüz manat" yazılmışdır. Dövrənin ətrafını on altı parçalı özgə bir dövrə əhatə edir ki, hər bir parçasında rusca və türkcə "yüz manat" yazılmışdır. Parçaların dövründə [dövrəsində] isə rusca "rublə" yazılmışdır. Biletin dal tərəfi dalğalı tor misalında rənglərlə boyalanmışdır.

*Maliyyə naziri:*
*Əliağa Həsənzadə*

## KİRİMƏYİRLƏR

Qarabağın general-qubernatorluq şəklinə salınması işi Azərbaycanın daxili işlərindən olaraq bitmiş bir məsələ olduğu halda, erməni partiyaları – daşnaq və qeyri-daşnaq – "Qarabağ məsələsini" həll edilməmiş hesab edib, dedi-qodularına davam edirlər və kirimirlər.

Bu məsələdə erməni partiyalarını yandıran, Azərbaycan hökumətinin Qarabağda general-qubernatorluq təşkili əmrindən artıq, bu əmrin ingilis ali komandanlığı tərəfindən təsdiq və təsvib edilməsi [bəyənilməsi] keyfiyyətidir.

Bunun üzrədir ki, erməni partiyalarının qəzetələri ingilis baş komandanlığını söyüb erməni mənafeyini daim müdafiə edə gəlmiş olan ingilisləri "bivəfa"lıqla ittiham edirlər.

Görünür ki, ermənilər bu zəndə və bu ümiddə imişlər ki, erməni müdafiəsi ilə məşhur olan ingilislər ermənilərin bütün haqq və nahaq tələb və arzularını, başqalarının hüquq və ixtiyaratını tapdalayacaq qədər müdafiə edəcək və ermənilərin "xatirəsi" üçün haqqı nahaqqa verəcəklərmiş.

Erməni partiyaçılarının zənnincə, hər şey ki, ermənilər tərəfindən istənilir, ədalət üzrə ibraz olunan istəkdir və çünki Yevropa ədalətpərəstdir, erməni istəklərini əmələ gətirməyə borcludur.

Lakin görünür ki, Yevropa əhli olan ingilislər ədalətə erməni partiyalarının gözüylə baxmaq və bu təbiri [sözü, ifadəni] yalnız erməni mənafeyini əsas tutaraq təfsir etmək [yozmaq] istəməyib, öz gözləri və öz ağılları ilə iş görməyi səlah [doğru] bilirlər.

Yevropa əhlindən ingilislərdən başqa firənglər dəxi bu axır zaman erməni hirs [hərislik] və tamahına diqqət nəzərini yetirib bu hirs və tamahı azaltmağı vacib bilirlər.

Qarabağın Azərbaycan torpağı olmaq üzrə Azərbaycan general-qubernatoruna tapşırılması əmrinin Qafqaz inglis baş komandanlığı tərəfindən təsdiq və təsvib edilməsini bu məsələnin gələcəkdə bizim mənfəətimizə müvafiq olaraq həll ediləcəyini isbat edən bir əlamət kimi tələqqi etmək [qiymətləndirmək] olar. İngilislər bu məsələdə bizim haqq və erməni iddiaçılarının nahaq olduğunu iqrar etmiş [təsdiqləmiş] olurlar. Şübhəsiz, əgər biz general-qubernatoru Qarabağa deyil, İrəvan uyezdlərinə təyin etmək istəsəydiksə, ingilislər bizim nahaq iş tutmaq istədiyimizi görüb mane olardılar. Amma Qarabağa mane olmadılar. Çünki bu yerin Azərbaycan torpağı olduğu ingilis məhafilində [dairələrində] dəxi müəyyən və müqərrər [təsdiqlənmiş] bir məsələdir.

Qarabağı general-qubernatorluq şəklinə salmaq hökumətimizin məqul [məntiqli] əmrlərindən biri olan kimi, burada general-qubernator olmaq üzrə Xosrov Paşa bəy Sultanov həzrətlərinin təyin edilməsi dəxi eyni dərəcədə müvafiq və yerli-yerində qərar edilmiş bir intixab [seçim] ədd [hesab] edilməlidir. Xosrov Paşa bəy həzrətlərinin Qarabağ üçün ən münasib və müvafiq bir general-qubernator olmasını ingilis baş komandanlığı dəxi iqrar etmişdir ki, bu xüsusda bugünlərdə nəşr etmiş olduqları proklamasyonarında [bəyannamələrində] Xosrov Paşa bəyin əmrlərinə tabe olmağı yerli əhaliyə və baxüsus [xüsusilə] ermənilərə tövsiyə edirlər.

Həqiqət, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücuda malik olan kimi, sağlam və səlamət politika yeridən və təhti-idarəsinə [idarəsi altına] tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilərin Xosrov bəyi "erməni-sevməz" deyə nəzərə verməyi erməni partiyaçılarının bir çox qövlü [sözü] kimi müğayiri-həqiqət [həqiqətə zidd olan] rəylərdən biridir. Xosrov bəy Qarabağın, bilafərqi-millət [millət fərqi qoymadan] hər bir əhlinə bir nəzərlə baxan və ümum Qarabağ əhlinin asayiş və istirahəti üçün bir dərəcədə çalışan ədalət tərəfdarı bir hakimdir. Əlbəttə, əgər erməni cühəlası [cahilləri] erməni partiyaçılarının təhrik və təşviqi ilə bədədalıq [tərbiyəsizlik] edib ölkədə iğtişaş və şuriş [qarışıqlıq, şuluqluq] salmaq istəyəcəklərsə, Xosrov bəy bu kimi ümum Qarabağ əhli üçün zərər və ziyanlı olan hadisələrə qeydsiz baxmayıb, təmini-asayiş üçün əlindən gələn tədbirləri ittixaz edəcəkdir [tədbirləri görəcəkdir]. Buna da əminik, əgər Qarabağda sülh və asayişlə yaşamaq istəyən ermənilərə qarşı müsəlman cühəlası tərəfindən nalayiq hərəkətlər baş versə, Xosrov bəy bu xüsusda da lazımi tədbirlər görüb müqəssirləri cəzalandıracaqdır.

Hər halda Qarabağ ermənilərinin asayiş və istirahətlə yaşaması öz tərzi-hərəkətlərindən asılı bir məsələdir. Məhəlli [yerli] hökumətə tabe olub da öz iş-güclərinə məşğul olarlarsa, rahat yaşarlar, yox, əgər daşnaq və əmsalı təşviqatına uyub da Azərbaycan Hökumətini tanımamaq və qəsdən iğtişaş salmaq istəsələr, o halda yaman güzəran keçirmələrinə səbəb özləri olarlar.

İngilislər Qarabağ general-qubernatorluğunu təsdiq etmədən əvvəl erməni partiyaçılarının çığır-bağırlarına və fitnəamiz [fitnəkar] təhrikatlarına bir məna verməк olardı. Böylə məna ki, ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələndirmək istəyirlər. Lakin indi, yəni bir halda ki, baş komandanlıq pişəzvəqt [qabaqcadan] işdən və general-qubernatorun hərəkəti-müdəbbiranəsindən [tədbirli hərəkətindən] xəbərdar oldu və bu əmri təsdiq etdi, o halda erməni partiyaçılarının bugünkü qışqırığı yersiz və mənasızdır. Bu gündən sonra Qarabağda ermənilər tərəfindən bədədalıqlar baş verərsə, deyil Azərbaycan general-qubernatoru, bəlkə ermənilərin özləri komandanlıq gözündə ləkələnib yaman ad qazanarlar. Bu isə gələcəkdə erməni məsələsi həllinə dəxi sui-təsirlər [mənfi təsirlər] buraxar. Hirs və tamah erməni partiyaçılarının gözünü yummamış olsa, işin bu cəhətini nəzərə alıb da, əvvəl-əvvəl erməni camaatı üçün zərər yetirə bilən fəna hərəkətlərdən əl çəkər və Qarabağ haqqında birkərəlik kiriyərlər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(keçən nömrələrdən mabə'd)*

Qardaşlardan və oğullardan bəhs etdikdə, mən heç vaxt əziz bacılarımızı və qızlarımızı xatirdən çıxarmam. Cahanın birinci gözəllik mövqeyini və rütbəsini tutan əlbəttə qadındır. Qadın aləmi-islam dünyasında, baxüsus [xüsusən] türk aləmində bəzi narəva əhvallardan naşi [rəva görülməyən işlər, haqsızlıqlar səbəbindən] hüquqi-bəşəriyyədən məhrum qılınmışdır.

Əlbəttə, istiqlaliyyətimizi elan etdiyi[miz] gündən, şübhəsiz, qaldırdığımız istiqlaliyyət baydağımızın dəstəsindən qadınlarımız da kişilərlə bərabər bərk yapışmışlardır. Hərgah millətin sağ əlini kişilər təşkil edirsə, təbii, sol əl qadınlardır. Zahirdə öylə görünür ki, guya bütün zəhməti çəkən sağ əldir və sol əl həqiqət üzrə mənfəətsizdir. Ancaq bu hal böylə deyildir. Sol əlin qədir-qiyməti o vaxt bilinər ki, şikəstlik tapa. Bizim türk xalqımız bu halda sızıldayan sol əl ilə meydana çıxıbdır. Xəstəyə əlac edilməzsə, o zaman ümidində olduğumuz tərəqqiyə çatmaq qeyri-mümkündür.

Mən burada qadın aləmini sol ələ müqayisə eylədikdə, heç vaxt onları rəncidəxatir etmək [xatirlərinə dəymək] qəsdində deyiləm, bəlkə qüvvə və hərəkət münasibətilə sol əldəki zəriflik xasiyyəti olmaq üçündür. Mən qadınların hüquqda tam mənasilə kişilərlə müsavi [bərabər] olması tərəfdarıyam. Ancaq mən arzu edirəm ki, qadınların gözəlliyi həya və ismət pərdəsində həyatımızın bütün cərəyanına belə daxil olub, qabalıqları zərifləşdirməklə həyati-ictimaiyyəmizə hüsn-təsir bəxş etsin.

Mənim şəkkim yoxdur ki, bizim Azərbaycan xanımlarımız gözlərini cahan mərkəzi olan Parisin ancaq "L'Avenyu Pera" küçəsinə tikməyəcəklər ki, orada gündə bir növ yeni moda libas icad olunur və bu xanımların ədəbiyyatı yalnız libas şəkilli jurnallardan ibarət olmayacaqdır. Biləks [əksinə], vətəndaş xanımlarımız ciddi təlim və tərbiyəyə istinad edib millətimizin onlardan gözlədiyi mənfəəti verə biləcəklərdir. Böylə işləmək nəticəsində Azərbaycanın bütün nöqtələri işıqlanmış olacaq və bizim asimanımızda genə vətənimizin şəfəqli ulduzları parıldamağa başlar. Həman ulduzların nurunu çoxdan bəri şimaldan gəlmiş istibdadın qara, qəliz və heybətli buludları almışdı.

Mən yenə keçirəm fövqdə [yuxarıda] zikr etdiyimiz siyasi əhvalımıza. Vətənimizi çulğamış və istibdad sayəsində şiddətlənmiş olan fırtına nəticəsində biz siyasi nəzərdən tam mənasilə qul olduq.

Gəncə xanlığı alınandan sonra Azərbaycanın o biri xanlıqları da bir-bir alındı. Bu əhvaldan sonra millətimiz üçün uzun bir dövrdür ki, təqribən yüz iyirmi sənə qəmginlik, işıqsızlıq və məyusluq bir həyat zamanı davam etdi və bu qədər uzun bir müddətdə millətimiz ağır zəncir altında əsarətdə saxlanıldı. Boyunduruğun cəfasını ancaq o millət anlayar ki, hansının boynunda daima istibdadın ağır zənciri asılmış ola.

İnsan istəyir ki, gözünü yumub millətimizin o qaranlıq aləmindən uçub, özünü 1918-ci sənənin yaz günlərinə yetirsin. Yəni Azərbaycan türklərinin qışın kəsaləti [ölgünlüyü] və şiddətindən qurtarıb da yaz günlərilə bərabər təzə həyata, tərənnümə və diriliyə başlamasına baxsın.

Hər millətin tarixi ya qəmginlikdən, yaxud şadlıq səhifələrindən ibarət olur. Qəmginlik və əsirliyə aid səhifələri vərəqlədikcə, o zaman hürriyyət – o ali müqəddəslik qədri bilinir. Burada xatirimə qəribə Venedikdə (Venesiya) Ədliyyə məhkəməsinin qapısı üstündə yazılmış bir lövhə düşdü ki, rəvayətə görə o lövhədə bu sözlər yazılmış imiş. Ədliyyə məmurları hər dəfə məhkəmə idarəsinə girməkdən əvvəl məcburdurlar ki, qapının astanasında dayanıb bu lövhəni oxusunlar: "Ricordeve del povero Fornaretto". Yəni "Xatirinizə bədbəxt dəyirmançının əhvalını salınız."

Dəyirmançının hekayəsi bu imiş: Dəyirmanının yavuqluğunda gündüz günorta bir nəfəri xəncərlə qətlə yetirirlər. Qatil dəyirmançını görüb xəncərini öldürdüyü adamın sinəsindən çəkib çıxartmağa fürsət tapmayıb qaçır. Dəyirmançı ölən şəxsə rəhmi gəlib xəncərin dəstəsindən tutub çıxartdığı halda bunu qarovullar görürlər. Bu cinayət məhkəməyə istintaqa verilir. Məhkəmənin hakimi dəyirmançının yalvar-yaxarmasına və bilmərrə [əsla] müqəssir olmadığına əsla inanmayıb qətlinə hökm verir. Dəyirmançını qətnaməyə görə boğazdan çəkirlər. Onun asılmasından sonra əsl qatil aşkar olur. Lakin iş-işdən keçmiş və yazıq dəyirmançı məhkəmə qətnaməsinin xətasının günahsız qurbanı düşür. Bizə də peşmançılıq və nədamət üz verməsin deyə qara mərmər daş üzərində iri və qızıl xətt ilə böylə bir şey yazmalıyıq: "Memento servitutem", yəni "Əsirliyi xatirdə saxla."

Bu cürə lövhənin təsiri o şəxslərə faydalı görülər ki, öz şəxsi mənfəətlərini millətin mənafeyindən fövq [uca] tutaraq sədaqətlə millətinə xidmət edənlərin ayaqları altında quyu qazırlar və unudurlar o gözəl və pürmənə [mənalı] sözləri: "Salus populi suprema lex", yəni "Millətin mənfəətini gözləmək birinci və müqəddəs vəzifədir." Biz gərək bir-birimizə quyu qazmaq əvəzində təpələr qurmalıyıq ki, onların üstündən səsimizi səsə verib bilümum [hamılıqla] vətənimizin nəfinə [xeyrinə] çalışaq.

Əlbəttə, biz dünənədək ayağımızdakı zəncirin davamını və bugünkü şadlıq həyatımızı xatirəmizdən çıxararsaq, böyük xəyanət etmiş olarız. Əgər doğrudan-doğruya sədaqətlə, dürüstanə və pakizəliklə əlimizdəki hürriyyətin saxlanılması qeydinə səmimanə surətdə qalmaz isək, sizi əmin edirəm ki, hürriyyət genə qanadlarını bir-birinə çalıb əlimizdən uçub gedər. Biz isə yenə təkrar rəzalət içində əsirlikdə qalarız.

19-cu, baxüsus 20-ci əsrlər o əsrlərdir ki, millətimiz onlarda nəhayətsiz və hədsiz müsibətlərə və imtahanlara giriftar olmuşlardır. Burada millətimizin çəkdiyi müsibətlərini izhar etməyə imkanım yoxdur. Ancaq deməliyəm ki, bu qədər millətimizə rəva görülən zülmün baisi Türkiyə və İran ilə həmhüdud olduğumuz olmuşdur. Bura, yəni Azərbaycan ölkəsi bir çox vicdansız və insafsız jandarmalara bir meydan idi ki, bədbəxtliyimizdən və sədaqətimizdən onlar öz məmuriyyət xoşbəxtlik dərəcə və rütbələrini artırırlardı.

Birinci növbətdə bizə verilən əziyyətlərə "İttihadi-islam" [İslam birliyi] baydağı altında ittihad yapmağımız səbəb olmuş, sonra isə bizi "türkpərəstlik"də töhmətləndirdilər. Axırda muxtariyyət – separatizm ünvanı ilə təqsirləndirdilər.

Bu jandarmalara bir imzasız və adsız kağız kifayət edirdi ki, onlar onunla mərkəzdə tufan qoparıb Peterburqa dalı kəsilməz teleqram göndərirdilər ki, onların fəaliyyətləri və huşyarlığı [ayıq-sayıqlığı] nəticəsində hökumətə qarşı bir sui-qəsdin üstünü açmışlardır. Hərgah kimsəyə səhnə qabağında asılmış pərdənin qoparılması imkanı olarsa, o zaman səhnənin içində millətin müqəddəs tutduğu şeylərin zəlil olduğunu görəcəklər. Beəlavə [əlavə olaraq], orada dar ağacı, kündə, zəncir və qamçı görüləcək ki, onlarla günahsızlara sorğu-sualsız əziyyət verməkdə olurlar. Qabaq tərəfdə isə döşlərində parıldayan nişan taxanları, yəni jandarmaların gəzməyi müşahidə olunacaq.

İstibdad öylə bir şəkil almışdı ki, Allaha ediləcək ibadət də jandarmaların nəzarəti altında icra olunurdu. Camaatın ibadətinə xidmət edəcək məscidin tikilməsinə böyük zəhmətdən sonra icazə verilirdi. Xarabaya dönmüş məscidlərin təmirinə para buraxılmayırdı. Bütün Qafqaz müsəlmanlarının baş ruhanisi sayılan şeyxülislama verilən məvacib polisə idarəsinin ən kiçik məmuruna verilən məvaciblə bərabərdi. Bakı Ədliyyə Məhkəməsinin sədri inqilabi-kəbirdən [Böyük inqilabdan] əvvəl idarəsində "Quran"a məxsus qayırılan yerin götür[ül]məyinə əmr edir və "Quran"ı hörmətsiz dərəcəyə qədər məmurların gözü qabağında qoydurur. Rusiyada hüquq şöbəsini qurtarmış müsəlmanlara ədliyyə məhkəmələrinə qanuni vəkil sifətində daxil olmaq ixtiyarı verilməmişdi. Halbuki qeyri millətlərdən bu ixtiyar alınmamışdı. Qeyri hökumət idarələrinə baxanda ədliyyə idarələri əzəllərdə bir növ babat idi. Çünki ədliyyədə oturanların başlarında 1864-cü sənənin gözəl qanunnamələri hifz edilirdi. Fəqət zəmanə gərdişi ilə bərabər o qanunun yavaş-yavaş aradan götürülməsi vaqe olduqca, ədliyyə məmurları da qeyri məmurlar kimi ənam və nişan iştahasına düşdülər. Xırda və ibtidai təhqiqat şöbələrinə gəldikcə, oradakı yarımçılıq tərcümanlar vasitəsilə həll edilən [işlər], amma bununla bərabər, ədliyyə aləmində bugünədək Anatoli Fyodoroviç Koni və sair onun kimi şəxslər görünür, hansılar ki, 1864-cü ilin qanunlarının düzəlməyinə xidmət etmişlərdir.

Rusiyanın Koni və yaxında ölmüş Muromtsev kimi oğullarının hüzurunda yalnız Azərbaycan türkləri deyil, bütün İslam ziyalıları ehtiramla təzim edəcəklərdir. Əfsus ki, Qafqaziya məhkəmələri başında Konilər və Muromtsevlər deyil, Laqodalar kimi mərifətsizlər qoyulmuşlardı. Məhkəmə işləri ticarətə qoyulmuşdu. Şahidlər isə "Quran"a and içib, yalan deyib insaflarını qızıla satırdılar. Məhəlli [yerli] məhkəmə idarələrimizdə öz ana dilimiz işlənməyirdi. Oradakı hakimlər də dilimizi bilməyirdi və bilmək də istəməyirdilər və öz hüquqşünaslarımızdan da məhkəmələrimizdə hakim təyin etməyirdilər. Buna görə məhkəmədəki işlər[i] yarımçılıq tərcümanlar vasitəsi ilə verirdilər və onlardan asılı görüldüyündən bütün idarələrdə hüquqsuzluq və nizamsızlıq görünürdü.

Maarif idarələrinə gəldikdə – ki, bu idarələrə bizim əqidəmizcə maarif adı gərək verilməyəydi, bəlkə zülmətə xidmət edən idarələr adlandırılaydı – türk dilimiz bütün məktəblərdən qovulmuşdu. Rəsmiyyəti gözləmək xəyalı ilə türk balalarına ancaq həftədə bir dərs oxumaq ixtiyarı verilirdi ki, bu dərs də ancaq şagirdlərin yorğun və həvəsdən düşdüyü zamanda təyin olunmuşdu. İnsana qarşı bundan artıq da xəyanət və zülüm olarmı ki, millətin öz ana dilini oxumağına mane olsunlar. Bir millətin birinci və ali neməti və fəxri onun dilidir. Onun dilini əlindən almaq onu öldürmək deməkdir. Öylə ki, məşhur Mikelancelo və Rafael kimi rəssamların çəkdikləri şəkillərin eyni rəngini silmək və onu pozulmuş halda qoymaq kimi əhvaldır. Şəkil və rəsimlərin şübhəsiz gözəlliyini göstərən ancaq onun rəngidir ki, bunun silinməsi ilə yerdə ancaq bez parçası qalar ki, o da zibil zənbilində özünə məkan tapar. Levitski kimi məşhur bədxah, müstəbid müəllimlərin bərəkətindən bizim ziyalı cavanlarımızın ana dili bir parça hərəkətsiz və nitqsiz ətə dönmüşdür. Əgər müsəlman xalqından bir nəfər türk balalarına məxsus milli bir məktəb güşadı [açılması] qəsdində olsaydı, dərhal qəsd etdiyi məramına dair ona lazımi cəza verilirdi və açıqcasına dövlətə xain zənn edilirdi.

Qeyri idarələrə keçdikdə, onların xətti-hərəkətlərini və fəaliyyətlərinin nə qədər fəna olduğunu dərk etməmək üçün yanlarından ötüb keçmək lazım gəlirdi.

Zülümün və hüquqsuzluğun ən şədidi [şiddətlisi] köçəri işləriylə mübaşir [məşğul olan] idarələrdə cəm edilmişdi. Bu idarələrin fəaliyyəti sayəsilə bütün məhsuldar və gözəl yerlərimizi müsəlman əkinçilərin zorla əlindən alı[nı]b Rusiyadan gəlmə xaxollara və sairələrə hədiyyə edilirdi. Təbii, bu da bir biinsaf siyasət idi ki, Azərbaycan türklərinin əlindən ata-baba yurdunu alıb və gəlmə rəiyyətinə sorğu-sualsız və ədaləti basdalayıb verilsin.

Hərgah bu dediklərim zülümlərin və hüquqsuzluğun üstünə Azərbaycan türk xalqından əsgər aparma[ma]ğı əlavə olunarsa, o zaman bu millətin üstünə qoyulan xərc və vergilərdən savayı, mühafizəsinə də yol verilmədiyi aşkar olar. Müsəlman xalqının bu vəziyyətdə və bu şərait altında gün keçirməklərini görməklə, onların üzərlərində rəva görülməyən cəfa və əziyyətlərin hər vaxtda cari olduğu şübhəsizdir. Azərbaycan türkləri üçün bu əhvalın nə qədər fəna olduğu daha bundan aşkar olur. Müsəlman ilə bərabər bir yerdə yaşayan qeyri millətlərə əsgəri təlim və nizam öyrədilir və müsəlmanlardan isə bu çağa qədər olan bütün var-yox silahları əllərindən alınır. Bu cəhətdən müdafiə və mühafizə günü müsəlmanlar qeyri millətlərin qarşısında namus və qeyrətlərinin qurbanı olurlar. Burada bir dəfə xatirə gətirməliyiz ki, müsəlmanlar əsgəri nizam və məşqi görülmədiyindən 1905-ci, 1914, 1917 və 1918-ci sənələrin qanlı faciələrindən hədsiz və hesabsız xəsarətə, can tələfatına düçar olmuşlardır.

Burada mən Rusiya müstəbid hökumətinin insafsız və rəhmsiz məmurlarının kim olduqlarını bir-bir göstərməyə lüzum görmədim. Çünki onların adlarının qeydi lüzumsuz olmaqla, əgər doğrudan o fikirdə olmuş olsaq, o zaman millətimizin hüququnu paymal edənlərin [tapdalayanların] siyahısını tutmağa böyük və pək də qalın bir təqsirnamə yazmaq vacib idi. Bu da, təbii, bizim işimiz deyildir.

Məəttəəssüf [təəssüf ki], biz Azərbaycan türkləri, üstündən alitəbiətlik, nəcabət və insaniyyət sifətləri əskik olmayan və Lev Tolstoylar və sairələr yetirmiş həqiqi rus millətini içimizdə görməmişik və o milləti ki, Azərbaycan müstəqil dövləti yenə vaxtında beynəlmiləl qayda üzrə onunla ticarət, iqtisad və sair cəhətdən dostanə əlaqə bərpa edəcəkdir. Təbiəti həmişə cahangirlik siyasətinə zidd və müğayir olan və Azərbaycan Cümhuriyyətinə inqilabi-kəbirin doğurduğu doğma bir çocuq kimi baxan və ona ehtiram bəsləyən ruslar bilməlidirlər ki, azərbaycanlılar həmişə onlara məhəbbət və qardaşlıq göstərəcəklərdir.

(yenə var)

*Adil xan Ziyadxan*

## TELEQRAF XƏBƏRLƏRİ

**Yekaterinodar** – İngilis heyətinin məlumatına görə Dinu mövqifində [stansiyasında] vaqondan çıxmaqda olan məşhur bolşevik Trotskiyə qatarın müşayiətçisi (pravadniki) bir neçə güllə atmışdır. Trotski Petroqrada xəbər vermişdir ki, güllə başından bir santimetrə yuxarı papağından dəymişdir. Trotskini müşayiət edən afserlərdən [zabitlərdən] biri qətl [edilmiş], digəri yaralanmışdır.

**Stokholm** – Leninin məşhur tərəfdarı və sol sosialist Emil Stanq Rusiya səyahətindən Norveçyaya qayıtmışdır. O özünün Rusiya səyahətindən "sosial-demokrat" qəzetəsinə böylə məlumat verir: Belə ki, özünün bolşevizmaya məhəbbətinə baxmayaraq Stanq Rusiya ticarətinin mükəmmələn [tamamilə] dayandığını bildirmişdir. Rusiyada 100 nəfər əmələdən [fəhlədən] fəqət [sadəcə] 30 nəfəri işləyir. Qalan əmələlər isə kəndlərə dağılıb bolşevik puluna çörək verməyən kəndçilərdən cəbrən [zorla] çörək alırlar. Rusiyada aclıq həddini keçmiş, əhali aclığa görə müflis olmuşdur. Stanq 6 min nəfərin atılmaqla edam edildiklərini təsdiq edir. Bu səyyah deyir ki, Müttəfiqlərin dəniz ablukaları [blokadaları] ancaq Rusiyada bolşevizmin yıxılmasına səbəb olacaqdır.

**Cenevrə** – Petroqradda olan İsveçrə səfiri Odier Stokholma varid olmuşdur [gəlmişdir]. Qəzetəçilərlə müsahibə edərkən mümaileyh [adı keçən şəxs] demişdir ki, Petroqradda İsveçrə səfarətxanasını [səfirliyini] 9 dövlətin təbəələri mühafizə edir: İngiltərə, Belçika, Hollanda, Lüksemburq, İtaliya, Yunanıstan, Fransa, Yaponiya və Çin. Səfarətxanalar öz qulluqçularının ədədini birə-on artırmağa məcbur olmuşdur. Odierin səyi nəticəsi olaraq nəinki neçə yüz əcnəbiləri, hətta 180 nəfər rusları da ölümdən xilas etmək mümkün olmuşdur. Odier Petroqradın və Moskvanın şimdiki halını qayət fəci [acınacaqlı] bir surətdə təsvir edir.

Şura Hökuməti Odierə məlum eyləmişdir ki, Rusiya, Müttəfiq dövlətlərin hamı şəraitini [bütün şərtlərini] qəbula hazırdır. Bu şərtlə ki, Müttəfiqlər iqtisadi ablukanı [blokadanı] qaldırıb, Rusiya ilə diplomasi əlaqəyə başlasınlar. Şura Hökuməti Rusiyanın ticarətini düzgün bir yola qoymaqdan qətiyyən acizdir.

Odier ilə bərabər Rusiyadan, İtaliyanın Moskvada sakin olan konsulu da qayıtmışdır. O da təsdiq edir ki, Rusiya əhalisinin bolşevizmdən ümidi kəsilmişdir.

**Kiyev** – Ümumrusiya Fövqəladə İstintaq Komissiyasının binagüzarlığı [sərəncamı] ilə bir çox sol eserləri həbs etmişlərdir.

**Şura Hökumətinin büdcəsi**

1918-ci ildə Şura Rusiyanın büdcəsi 31 milyard xəsarət vermişdir. Belə ki, Rusiyanın 1918-ci ildə 15 milyard mədaxili olduğu halda, 46 milyard zərər olmuşdur. Qırmızı ordunun saxlanmasına 15 milyard pul məsarif edilmişdir.

Melitopol – Bolşevik qoşunları Çonqar və Sivaş körpüsü təriqi [yolu] ilə Krım torpağına varid olmuşlardır [çatmışlar]. Ağ qoşunlar Canköyə ricət etmişlərdir [çəkilmişlər]. Fərarilərin sözlərinə görə, Ağ qvardiyanın arxasında kazaklarla afserlər arasında müsadimə [toqquşma] vaqe olmuşdur.

* Parisdən xəbər verilir ki, Polşa sərhədi rəyiamm [referendum] ilə təyin ediləcəkdir.

**Polyaklar bolşevizm əleyhinə**

Bolşeviklərlə mübarizədən ötrü polyaklar beş korpus qoşun təşkil etmişlərdir. Bunların ikisi Litva qoşunları ilə birlikdə bolşeviklərlə müharibə edirlər.

**Almaniyanın təzminatı**

Parisdən xəbər verirlər ki, Almaniyanın verəcəyi təzminat 25 milyard hesab olunur. Bu pulu Almaniya nəğd verə bilmədiyindən, Almaniyanın qızıl mövcudatının və əcnəbi dövlətlərdə olan məbləğlərinin göndərilməsi təsəvvür olunur. Harold Koksun hesabına görə, Almaniyanın qızıl mövcudatı 150 milyon, əcnəbi dövlətlərdə olan məbləği isə 500 milyondan ibarətdir.

**Bolşeviklər və Gənc Türklər**

Londondan xəbər verirlər ki "Tayms" qəzetəsinin İstanbul müxbiri "İttihad və tərəqqi" (Gənc türklər) komitəsi ilə bolşeviklərin münasibatı olduğunu xəbər verir.

**Fransada həbslər**

Cenevrədən teleqrafla xəbər verirlər ki, Parisdən verilən məlumata görə, Paris fəhlə birjası sindikalistlərinin başçılarından bir neçə nəfəri həbs edilmişdir. Bu həbslərə səbəb ümumi siyasi tətil gözlənməsi olmuşdur.

**İtaliyanın təzminatı**

Zürixdən xəbər verirlər ki, "Stampa" qəzetəsinin məlumatına görə, İtaliya Mərkəzi dövlətlərdən 6 milyard lirə təzminat tələb etmişdir.

**Cəmiyyəti-Əqvam bayrağı**

Londondan xəbər verirlər ki, Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] bayrağı 3 parçadan ibarət olacaqdır.

Yuxarı, aşağı parçaları ağ, ortadakı isə mavi (göy) rəngdə olacaqdır. Bu bayraq birinci dəfə olaraq mütarikə müahidənaməsi mövcibincə [atəşkəs sazişinə əsasən] Müttəfiq dövlətlərə verilmiş olan düşmən gəmilərində qaldırılacaqdır.

**Vilhelmin oğlunun həbsi**

Berlindən xəbər verirlər ki, Vilhelmin kiçik oğlu Yoaxim, monarxiya hərəkatı qaldırmaq qəsdi ilə spartaklara külli miqdarda pul verməkdə müttəhim edildiyindən, Veymarda həbs edilmişdir.

**Transilvaniyada iğtişaş**

Odessadan xəbər verirlər ki, Transilvaniyada böyük iğtişaş başlanmışdır. 8 min nəfərdən ibarət Romaniya dəstəsi üsyançılar tərəfindən pərakəndə edilmişdir.

**Ukrayna pulları**

Odessadan xəbər verirlər ki, Ukrayna Xalq Komissarları Şurası Ukrayna pullarının məhv edilməsi əmrini vermişdir.

**Yaponiyalıların Sibiryadan çəkilməsi**

İstanbuldan xəbər verirlər ki, 34 min nəfərdən ibarət Sibiryada olan Yaponiya əsgərləri tədriclə Sibiryadan çəkilib getməkdədirlər. Sibiryada asayiş saxlamaqdan ötrü az bir miqdar əsgər saxlanacaqdır.

## SÜLH ƏTRAFINDA

**Çin və Yaponiya**

Parisdən bildirilir: Sülh Konfransında olan Çin vəkilləri qəzetə mühərrirləri ilə müsahibə edərkən demişlər: Çin öz üzərində olan ağırlıqdan azad edilməlidir və Almaniyanın Şantouda olan haqqı ləğv edilməlidir. Yaponiyanın Kiao-Çaoya olan iddiasına və nagəhani [gözlənilməz] bir surətdə 1915-ci ilin ibtidasında [əvvəlində] Yaponiyanın təqdim etdiyi 21 maddəli tələbnaməsinə qarşı protesto eyləmişlərdir. O zaman Çin dövləti Yaponiyanın bu tələbatını qəbula məcbur idi. Zira əks-təqdirdə Yaponiya dava ilə təhdiddə bulunmuşdu. Sonra bəyan etmişlər ki, 1914-1915-ci illərdə Çinin müharibəyə qarışmasına Yaponiya mane oldu və Çinin Müttəfiqlərə olan müavinətini [köməyini] qeyd etmişlərdir. Belə ki, müharibə zamanında Çin əmələləri Müttəfiqlərin fabrikalarında çalışmışlar və Çinin 100 min müsəlləh [silahlı] qoşunları Avropaya getməyə hazır idilər, fəqət nəqliyyat vasitələri olmadığından təxirə düşmüşdü.

Yaponiya nümayəndələri hakəza [habelə] qəzetə müxbirlərini qəbul etmişlərdir. Sayondzi müxbirə bəyan eyləmişdir ki, Yaponiyanın meyli Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfinədir. Yaponiya axirüləmr [nəhayət] insaniyyəti yeni bir dövrdə gördüyündən xoşbəxtdir. Nəhayət, Sayondzi əlavə eyləmiş: Mən ümidvaram ki, Çin Yaponiyanın ədalətli və qanuni tələblərini anlar, nəhayət sülh və müsalimətin [əmin-amanlığın] bərpasına müvəffəq olar.

**Sülh Konfransında ermənilərin tələbatı**

"Tayms" qəzetəsi 1919-cu sənə 27 fevral tarixindəki nömrəsində yazır:

Bu gün Müttəfiq Dövlətlər Şurası Ermənistan Cümhuriyyəti sülh nümayəndələrini istema etdi [dinlədi]. Ermənilər qonşuluqda olan müsəlman vilayətlərini də istəyirlər. Aqaronyan "Tayms" qəzetəsi müxbirinə böylə məlumat vermişdir:

*"Erməni Milli Şurası 1918-ci sənə mayın 27-sində Ermənistan istiqlaliyyətini elan etdi. Sonra erməni Parlamanı dəvət və hökumət təşkil edilib, Milli Şura bütün ixtiyaratını hökumətə vermişdir. Hal-hazırda Ermənistan Cümhuriyyətinin 60 min mürəbbe kilometrə [kvadrat kilometr] yeri vardır, əhalisi də 2 milyon nüfusdan [nəfərdən] ibarət, qoşunu 30 mindən 40 min nəfərədəkdir. Ermənilər Dünya müharibəsinin birinci günündən Müttəfiqlərə qoşulub türklərin təklifini rədd etmişlərdir. Ermənistan nümayəndələrinin Sülh Konfransına qəbul edilməmələri Ermənistan əhalisi üçün böyük bir zərbə olardı. Ona görə də mənim hökumətim, mənim təhti-idarəmdə [idarəm altında] olan vəkillərə mühəvvəl etmişlər [tapşırmışlar] ki, bu tələbatı Sülh Konfransına təklif edim:*

*1) Meydani-müharibədə tökülən qanlara müqabil qazanılan Ermənistan istiqlalı təsdiq edilsin.*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 aprel (Bazar ertəsi günü) tarixli 157-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*2) Ermənistan Cümhuriyyəti nümayəndələri Sülh Konfransına buraxılsın.*

*O ki, qaldı bizim sair milli tələbatımıza, biz də milli prinsipə istinadən təklif ediriz:*

*1) Ermənistan Cümhuriyyətinə Türkiyənin də ermənı ilə məskun olan yerləri mülhəq olmalıdır [birləşdirilməlidir].*

*[2)] Bir də ermənilər dənizə çıxmağa müsaidə istəyirlər."*

## QƏZETƏLƏRDƏN

**Culfa-Təbriz dəmiryolunda**

Culfa-İrəvan dəmiryolunda hərəkat başlanmışdır. Martın 24-ündə Culfadan Təbrizə bir çox sərnişinlərlə birinci qatar varid olmuşdur [gəlmişdir].

- Təbriz ilə Tiflis arasında bu yaxınlarda teleqraf münasibatı [rabitəsi] bərpa ediləcəyi təsəvvür olunur.

**Erməni siyasi nümayəndəsi**

Sarkis Araratyan İran hökuməti nəzdinə Ermənistan siyasi nümayəndəsi təyin edilmişdir.

**Rusiya məsələsi**

Rusiya məsələsi mühüm olduğuna görə, Müəzzəm [Böyük] Dövlət Nümayəndələri Şurası Rusiya məsələsini qəti surətdə həll edib qurtarmayınca, başqa məsələlərlə məşğul olmayacaqdır.

**Rusiya nümayəndələri**

Müəzzəm Dövlət Nümayəndələri Şurası qərar qoymuşdur ki, Parisdə olan rus firqələri nümayəndələri Ümumrusiya Hökuməti üzvləriədd [hesab] edilə bilməzlər. Ona görə Sülh Konfransında iştirak etməyə haqları yoxdur.

## TÜRKİYƏDƏ

**Türk xanımlarının xitabəsi**

İstanbulda nəşr olunan "İləri" qəzetəsi yazır:

*"Avropada hüququmuzu müdafiə məqsədi ilə milliyyətimizin heyəti-ümumiyyəsi haqqındakı yanlış cərəyanların önünə keçiləcək və bu xüsusda rəfiq və şəfiq [şəfqətli, mərhəmətli] və münsif [insaflı] qəlbli fransız nisvanına [qadınlarına] haqqı və həqiqəti bildirmək üçün xanımlarımız tərəfindən yazılan xitabənin düvəli-mötəlifə mümərssilləri [Antanta nümayəndələri] vasitəsilə Parisə isal edildiyi [göndərildiyi] xəbər alınmışdır."*

**Yeni mətbuat müdiri**

Yenə həman qəzetənin yazdığına nəzərən, Türkiyədə mətbuat müdirliyinə məşhur şair üstad [Recaizadə] Əkrəm bəyin oğlu Ərcümənd Əkrəm bəy təyin edilmişdir.

**Tələbələrin övdəti**

Vyanada təhsildə bulunan türk tələbə və talibələri [oğlan və qız tələbələri] Hilali-Əhmər [Qırmızı Aypara] mürəxxəsi [nümayəndəsi] doktor Hikmət [Gizer] bəyin təşəbbüsatı ilə bugünlərdə İstanbula övdət edəcəkdir [qayıdacaqdır].

**"Etilaf və Hürriyyət" firqəsi**

İstanbul qəzetələrinin yazdığına görə "İttihad və Tərəqqi" komitəsi süqutundan sonra "Etilaf və Hürriyyət" firqəsi tərəfindən böyük hərəkat və fəaliyyət müşahidə olunmaqdadır. Məzkur [adı çəkilən] firqənin ən ciddi fəaliyyəti fəqət "İttihad-Tərəqqi" firqəsinə mənsub olanları tövqif [həbs] və divani-hərbə [hərbi məhkəməyə] təslim etməkdən ibarətdir. Bugünlərdə həman firqəyə mənsub olan bir çox adamlar tövqif edilmişdir. O cümlədən İsmayıl Haqqı bəy [Canbulat], [Qara] Kamal bəy, Nurəddin Ziya bəy, Yusif bəy, Şükrü əfəndi, Camal bəy və qeyriləri dəxi dərdəst edilmiş [tutulmuş] və divani-hərbiörfiyə [hərbi məhkəməyə] verilmişdir.

"Etilaf və Hürriyyət" firqəsi ətraf şəhərlər və qəzalarda bir çox şöbələr açmaqdadır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

* Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, müştərək müqavilənaməyə [kollektiv müqaviləyə] baxan etilaf [uzlaşma] komisyonu iclasında aprelin 9-da fəhlə nümayəndələri aprelin 1-dən məvaciblərin artırılmasını və mənzil pulu və qeyrənin verilməsini tələb etmişdirlər. Bununla bərabər, fəhlə nümayəndələri müəssisə sahiblərindən tələb etmişlər ki, cavab aprelin 12-sinədək verilsin. Vaxtın az olduğunu nəzərə alaraq fəhlə nümayəndələri aprelin 16-sınadək bəkləməyə razı olmuşlar.

* Daxiliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Bakıda işbu qayda üzrə mənzil həczi [müsadirəsi] qərara alınmışdır: Mənzillər fəqət [ancaq] hərbi müəssisələr, hökumət dairələri və hökumət əzasından [üzvlərindən] ötrü həcz edilə bilər.

* Gədəbəy zavodu fəhlə komitəsi sədri Mirzə Sadıq Məsai Nəzarətinə teleqrafən məlum etmişdir ki, nazirin qərardadı zavod müdiriyyəti tərəfindən qəbul edilmişdir. Müdiriyyət fəhlə komitəsini tanımaq belə istəmir. Fəhlə komitəsi təcili tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

## QAFQAZİYA KONFRANSI

**Azərbaycan Hökumətinin Ermənistan Cümhuriyyəti nəzdində olan siyasi nümayəndəsi M[əhəmməd] xan Təkinskinin Xariciyyə nazirinə verdiyi nota**

2 aprel 1919, nömrə 21

Ermənistan Cümhuriyyətinin Xariciyyə naziri cənablarına

Azərbaycan Cümhuriyyətinin Xariciyyə naziri Zaqafqaziya cümhuriyyətləri arasında dəmiryol, posta-teleqraf, gömrükxana, maliyyə və mübadileyi-əmval [mal mübadiləsi] məsələləri haqqında saziş və müqavilənamələr əqdi [bağlanması] üçün Gürcüstan Cümhuriyyətinin Xariciyyə nazirinin fevralın 22-sində teleqrafla verdiyi təklifi alıb, müzakirə üçün Azərbaycan Cümhuriyyətinin Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal etmişdir. Azərbaycan Cümhuriyyətinin Vükəla Şurası həman təklifə baxıb təqdir etməklə bərabər, dəvət edilməsi təsəvvür olunan konfransda bu aşağıdakı məsələlərin də müzakirə olunmasını öz tərəfindən lazım görür:

1) Qafqaziya Cümhuriyyətləri Konfransında iştirak edənlərin istiqlaliyyəti mütəqabilən [qarşılıqlı surətdə] təsdiq edilib və bu barədəki bütün dövlətlərə xitabən təntənəli akt elan edilsin.

2) Məzkur [adı çəkilən] cümhuriyyətlərin müdafiəsi üçün Sülh Konfransında hər yerdə lazım olduğu zaman müttəhidülrəy [birgə, yekdil] çıxışda bulun[ul]sun.

3) İstiqlaliyyətimiz üzərinə kimin tərəfindən təcavüz olarsa, onu rəf etməktən [aradan qaldırmaqdan] ötrü müdafiə və tədarükat tədbirləri görülsün.

4) Hamı sərhəd, torpaq və yaxud başqa mübahisəli məsələlərin sazişlə həlli, hərgah saziş hüsula gəlməsə, həkəm [arbitraj] məhkəməsi köməyi ilə olsun.

Bütün cümhuriyyətlərdən ötrü kəskin bir vəziyyət alan qaçqınlar məsələsi nizama salınsın.

Konfransın dəvət ediləcəyi yerə gəldikdə, tutduğu mövqe və Dağıstan Cümhuriyyətindən ötrü də əlverişli olması nöqteyi-nəzərində ən münasib yer Bakı şəhəridir. Hərgah konfransın Bakıda dəvət ediləcəyinə mümaniət [maneə] görünsə, o zaman Azərbaycan Hökuməti konfransın Tiflisdə dəvət edilməsinə razıdır. Konfrans dəvətinin bu il mart ayında təyin edilməsi arzu olunur.

Bununla bərabər, Zaqafqaziya daxilində, Batum və Qars oblastları daxilində "Qafqaziyayi-Cənubi-Qərbi" [Cənub-Qərbi Qafqaziya] adında beşinci bir cümhuriyyət təşkil edilmişdir ki, bunun da mənafeyi Qafqaziya cümhuriyyətləri ilə sıxı bir surətdə əlaqədar olduğundan, siyasi və iqtisadi məramnamədə saziş hüsula gətirməkdən ötrü Azərbaycan Hökuməti məzkur [deyilən] cümhuriyyətin də həman konfransda iştirak etməsini lazım görür.

Azərbaycan Cümhuriyyətinin qətnaməsini sizin hökumətinizə xəbər verib rica edirəm ki, yuxarıda zikr olunan məsələlər haqqında hökumətinizin qərarını və konfransın dəvət edilməsi məkanının və vaxtının təyinini mənə xəbər verəsiniz.

*M[əhəmməd] xan Təkinski*

**Ermənistanın cavab notası**

Azərbaycan Cümhuriyyətinin siyasi nümayəndəsi həzrətlərinə

Zaqafqaziyanın dörd cümhuriyyətlərinin dəvət edilməsi təsəvvür olunan konfransı məramnaməsinə əlavə olmaq haqqında aprelin 2-də 21 nömrəli notanıza cavab olaraq xəbər verirəm ki:

Məzkur cümhuriyyətlərin istiqlaliyyəti nöqteyi-nəzərində durmaqla bərabər, Ermənistan hökuməti Gürcüstan hökumətinə etdiyi kimi, Azərbaycan hökumətinin istiqlaliyyətini öz tərəfindən təsdiq etməyini Azərbaycan hökumətinə xəbər verir. Bu münasibətlə bütün hökumətlər qarşısında təntənəli aktın elan edilməsini Ermənistan hökuməti ancaq Qafqaziya daxilində mövcuda gələn cümhuriyyətlərin sərhəd-torpaq ilə əlaqədar olan məsələlərin[in] mütəqabil [qarşılıqlı] saziş və sülhlə həllindən sonra mümkün və yerli ədd [hesab] edir.

Ermənistan hökuməti böylə təsəvvür edir ki, torpaq məsələlərinin həlli məzkur cümhuriyyətlərin istiqlaliyyətini müttəhidən müdafiə etmək üçün, həmçinin bu istiqlaliyyətləri mümkün olan təhlükələrdən müdafiə etməkdən ötrü müttəhid sazişlə tədbirlər görüldü.

Qaçqınlar məsələsinin nizama salınması bilatərəddüd [tərəddüdsüz] konfrans məramnaməsinə daxil edilməlidir.

Ermənistan hökuməti öz tərəfindən təklif edir ki, təbəiyyət [vətəndaşlıq] şərait və qaydaları və bir cümhuriyyət vətəndaşının digər cümhuriyyət daxilində hüququnun təmin edilməsi konfrans məramnaməsinə daxil edilsin.

Ermənistan hökuməti Qafqaziyayi-Cənubi-Qərbi Cümhuriyyətinin konfransda iştirak etməsinin qəbulunu qeyri-mümkün ədd [hesab] edir.

Konfransın dəvət ediləcəyi yerin Tiflis şəhəri olması ən münasibdir. Konfransın dəvət edilməsi vaxtı konfransda iştirak edən hökumətlər arasındakı müxabirədən [xəbərləşmədən] sonra təyin edilə bilər.

*Ermənistan Xariciyyə naziri: Tiqranyan*

## HEYƏTİ-MÜRƏXXƏSƏLƏRİMİZ

Məlum olduğu üzrə, Paris Sülh Konfransına göndərilmiş olan heyəti-mürəxxəsələrimiz [nümayəndə heyətimiz] neçə müddətdən bəri İstanbulda dayanıb qalmışdı. Bunun səbəbləri haqqında da bir çox şayiələr çıxırdı. Heyəti-mürəxxəsəyə daxil olan həzəratdan müdirimiz Ceyhun bəy Hacıbəyli əfəndinin İstanbuldan yazmış olduğu xüsusi bir məktub bu məsələni bir dərəcə anlatmaqda olduğundan, qismən iqtibasla qarelərimizə [oxucularımıza] təqdim ediriz. Ceyhun bəy yazır ki:

*"... Olsun ki, bugünlərdə Parisə gedək. (Məktub çoxdan yazılmışdır.) Hələlik 3 nəfərə izin verirlər getsin. Bu barədə müzakiratda bulunuruq. Türk hökuməti Əhməd [Ağaoğlu] bəyi tutdu. Ona bu vəzifəni tapşırmaq böyük bir xəta idi. Onun səbəbinə fransızlarla ingilislər bizə dəxi fənə nəzərlə baxırlar. Mən fransız qəzetələrində bir qədər təşviqata girişdikdən və fransızlar arasında bir qədər tanış bulduqdan sonra bizə şimdi artıq iltifat edirlər və çalışırlar ki, hamımızı Parisə buraxmağa izin alsınlar."*

**İran heyəti-mürəxxəsəmizin Tehrana vürudu**

"Rə'd" qəzetəsinin məhəlli əxbarat [yerli xəbərlər] qismində yazıldığına görə, İran hökuməti yanına göndərilmiş olan Azərbaycan Cümhuriyyəti heyəti-mürəxxəsəsi İsmayıl xan Ziyadxanov, general şahzadə Hümayun Mirzə Qacar, Bakı konsulxanasının Mühakimat [Ədliyyə] şöbəsi rəisi Həbibulla xan cənablarının müşayiəti ilə cəmadiyəlsaninin 25-də Tehrana varid olub [çatıb] Müqtədir əl-Mülkün bağında iqamət etməkdədir.

## PARLAMAN ƏTRAFINDA

Azərbaycan Məclisi-Məbusanına aşağıdakı teleqraflar gəlmişdir:

Teymurxanşuradan: Azərbaycan ordusunun kəndi paytaxtlarına ilk vürudu [daxil olması] xəbərini aldıqda, Qafqaz Cibaliyyun Müttəfiqlərinin Cümhuriyyəsi [Birləşmiş Dağlılar Respublikası] Şurası mənə Şura və bütün Dağıstan tayfaları ismindən qardaşımız və yeganə müttəfiqimiz olan Azəri türklərinin mümessili [Azəri türklərini təmsil edən] Məclisi-Məbusanı təbrik eyləməsini tapşırmış. Bakı şəhərinə Azərbaycanın müsəlləh [silahlı] qüvvəsi daxil olmaqla, baha qiymətlərlə hasil olmuş yeni müsəlman hökumətinin istiqlaliyyətini mühafiz olub bir daha sabit olması müstərhəmdir [arzu olunur]. Müttəfiqlər şurası əmindir ki, nəcib Azərbaycan milləti irəlidə də daima və hər bir cəhətdə qövlən və feilən əskidə kimi yenidən genə Qafqaz hökumətlərinin hürriyyət və istiqlaliyyət[i] uğrunda qanını tökən Dağıstan tayfaları ilə çiyin-çiyinə gedəcək.

Yaşasın cavan Cümhuriyyənin ümid və dayanacağı olan şanlı Azərbaycan ordusu!

*Müttəfiqlər Şurası sədri naminə:*
*Vassan-Gəray Cabaqi[yev]*

* * *

6 aprel tarixli Ağdaşda olan Ərəş mahalı mitinqi ümidvar olur ki, Müttəfiqlər komandanı öz hökumətlərinə mitinqin zeyldəki [aşağıdakı] xahişini bəyan edər:

Əzim [böyük] Avropa müharibəsi nəticəsi olaraq böyük və kiçik millətlərin sərbəst və istiqlaliyyət üzrə yaşamaq haqları müdafiə ediləcəyi elan edildi. Bunun əksinə olaraq, cahangirlik [imperializm] iddiasında bulunan dəvairin [dairələrin] əskilərdən bəri İstanbul və Boğazları müdafiə üçün mütəmadiyən [daimi] davam etmiş olan müharibələrdən dolayı xurdxaş olmuş Türkiyəni dəhşətli bir surətdə cəzalandırmaq üzrə onun əlindən İstanbul və Boğazları almaq məramı sövq edilir. Türkiyənin müqəddəs hüququ ayaq altına alınmasına qarşı olan suiqəsdə müqabil mitinq protesto izhar edərək əzim dövlətlərin insaniyyətpərvərlik və mərhəmət hissiyyatına uyub, 400 milyonluq bir İslam millətinin başçısı olan Türkiyənin müqəddərat və hüququnu mühafizə üçün tədabir ittixaz edəcəklərinə [tədbirlər görəcəklərinə] ümidvar olur.

*Mitinq sədri: Məhərrəm Asif oğlu*
*Katib: Məhəmmədov*

* * *

Gəncədən – Biz Ağstafa deposu beynəlmiləl usta və fəhləlari həftə bayramı olmaq üzrə cümə günü hesab edilməsini təhti-qərara aldıq.

*Sədr: Kurat*
*Müavini-sədr: Malinko*

**Şəki və Ərəşdən erməni nümayəndəsi**

Şəkidən Erməni Şurayi-Millisi naminə böylə bir teleqraf gəlmişdir:

"Şəki Erməni Şurayi-Millisi müttəhidülqövl [yekdilliklə] Boqdan Balayan[s]ı Şəki və Ərəş uyezdlərinin erməni əhalisi tərəfindən Azərbaycan Parlamanına nümayəndə intixab etmişdir [seçmişdir]. Balayan[s]ın Parlaman əzalığına [üzvlüyünə] təsdiq edilməsi haqqında lazımi bina-güzarlıqda bulunmağınızı [lazımi addımları atmağınızı] xahiş edirik.

*Milli Şura Sədri: Tumanyan[s]"*

## KONFRANS

### Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibəti ilə

\- 3 -

Bu inqilabın Turan və İslam aləminə faydasımı olacaq, yoxsa zərərimi? İştə, həpimizi düşündürən mühüm bir sual. Bu sual qarşısında mən yenə tərəddüd etməyərək deyəcəyəm ki, bu inqilab Turan və İslam aləminə faydalı, həm çox faydalı olacaq.

Bu hökmü də şu yolda isbat edəcəyəm: Bütün dünyada – nə saxlayalım – kultura (hərs), sivilizasiya (mədəniyyət) cəhəti ilə ən geri qalan biz olduğumuz kimi, qonşuların, bilxassə qeyrilərin o qüvvətli kapitalizminin təhəkkümünə, imperializminin təərrüzünə [hücumuna] ən ziyadə məruz qalan, əzilən də biziz. Bu təhəkküm və təərrüzdən öylə qolay-qolay qurtulammazdıq. Qurtulsaq belə, neçə-neçə sənələr mənən, maddətən yüksəlmək və ən sonra yenə hesabsız qurbanlar vermək, nəhayətsiz qanlar tökmək icab edərdi [lazım gələrdi]. Halbuki şimdi o qolumuzu-qanadımızı sım-sıxı bağlayan zəncirlər kəndiliyindən qırılır, boşalırsa, bundan eyi bir şey, bundan böyük bir nemət təsvir oluna bilərmi?

Bu sözləri sizə söylərkən, sosializmin tətbiqində bizim maddi zərərlərimiz olmazmı, deyə bir sual xatirə gəlir. Ümumiyyət etibarı ilə bütün dünyada mənəviyyatda olduğu kimi, maddiyyatda da ən geridə qalan, əzilən biz olduğumuzu söylədim, keçdim. Türklərin, islamların zənginlikcə ən ziyadə gözə çarpanları Bakıdadır. Bu təsadüfi zənginlərimizin sayısını, varlığını böyük, pək böyük bir əksəriyyətlə fəqirlərdən və kəndi əlinin əməyi ilə keçinənlərdən təşəkkül edən 350-400 milyonluq Turan və İslama nisbət edəcək olarsaq, o sayının, o varlığın əhəmiyyətsizliyi əyan-bəyan meydana çıxmazmı? Ondan ötrü bu məsələ bizi heç ürkütməməlidir. Gələcək cəmiyyəti-bəşəriyyət üçün bir səadət olacağı təbşir edilən [müjdələnən] sosializm proqramı tətbiq ediləcək olarsa, şəxslərin zənginliyi cəmiyyəti-bəşəriyyənin ilk təşəkkülündəki kimi ümuma aid olacaq, yəni xalqın əlinə keçəcək. Görülür ki, bu, xalqımızın səadətinə xidmət etmək cəhəti ilə bizim dini məfkurəmizə də təvafüq etmiş [uyğun gəlmiş] olur. Eşitmişsinizdir ki, peyğəmbərdən sonra xəlifələr, səhabələr xalqın səlaməti, islamın səadəti uğrunda olanca varlıqlarını fəda etmişlərdi. İnləyən əsirləri azad etmək, ağlayan yoxsulları, bikəsləri, öksüzləri güldürmək onların ən mötəna [əhəmiyyətli] şüarlarından biri idi. Şu halda, ondan qorxmaqda, ürkməkdə bir məna yox. "Müsavat" firqəsinin tutduğu yol da bu. Bir fərqi varsa, o da mənim anladığım – tədrici təkamül[ü] proqramına idxal etmiş, bu gün millətinə, xalqına tətbiqi qabil ola biləcək maddələri ortaya sürmüş. Təbiidir ki, ehtiyac göstərdikcə, xalqa doğru daha geniş bir proqramla hərəkət edəcəkdir. Buna heç şübhə etməm.

Şurası əhəmiyyətlə tələqqi edilməlidir ki, millilləşmək məsələsi bizim üçün pək mühüm bir məsələdir. Turan və İslamın bulunduğu yerlərdəki bütün zənginliklər, varlıqlar və onlardan alınan vergilərlə dövlət namına yapılan müəssisələr və işlədilən təbii sərvətlər oluşuduruşuyla öz əllərinə keçəcəkdir. Hər qisim xalq verilən proqramı, təlqin edilən lozunqu [şüarı] qəbul etmək şərti ilə bulunduğu yerin zənginliyini idarə edərək başqa yerlərlə, qitələrlə təklifsiz [maneəsiz], rəsimsiz [vergisiz] əşya mübadiləsinə girişəcək. Bir tərəfin insanları digər tərəfə gedib bir başqa nam ilə təhəkküm, təərrüz etməyəcək. Yol, ideal bu.

Bununla bərabər, bu təbşirləri [şad xəbərləri], bu fərziyyələri biz şimdilik ehtiyatla tələqqi edəlim [qiymətləndirəlim]. Sosializm tətbiqatının mümkün olub-olmadığını bizə zaman göstərəcək. Hər şey kamala təkamül edə-edə gələr. Bu, təbiətin olduğu kimi, sosiologiyanın da bir qanunudur ki, bunun xilafına yürüdülən mühakimələr, yapılan fərziyyələr büsbütün hökmsüz qalar. İqtisadi, ictimai əhvalda öylə incə məsələlər var ki, bugünkü insanın mənəvi inkişaf və tərəqqisi (emansipasiyası) buna kafi gələcəyinə heç ağıl erməyir. İnqilab olacaqdı, oldu. Revolyusionerlərin, anarxistlərin ötədən bəri devirmək, yıxmaq istədikləri o bəxtsiz cəmiyyəti nəhayət devirdilər, yıxdılar. Şimdi sıra o bəxtli cəmiyyəti qurmada. Məsələnin ən müşkül cəhəti də burada. Yapını yıxmaq qolaydır, amma yapmaq gücdür. Bunun bir çox şərtləri vardır. Bu şərtlər də yerinə görə dəyişir. Bu, dəlillərlə sabit ictimai bir həqiqəti-tarixiyyədir ki, inkar etməyə gəlməz.

Almaniyada doğan və fəhlədən başqa orta, yüksək təbəqələrə, hətta darülfünun [univeristet] kürsülərinə qədər yüksələn sosializm nəzəriyyələri Fransada, Belçikada, İtaliyada, Avstriyada, Rusiyada və sair Şərq məmləkətlərində müsaid zəminlər bulduğu, hökmünü sürdüyü halda, İngiltərədə, Amerikada heç müvəffəqiyyət görəmməmişdi. Gördü isə, anqlo-sakson fəhləsində deyil, onlarla bərabər işləyən digər millətlər fəhləsində görmüşdür. Bunun səbəbini də məşhur fransız sosioloqlarından Edmon Demolen təlif etdiyi [yazdığı] "Anqlo-saksonların səbəbi-faiqiyyəti [üstünlüyünün səbəbi] nədir?" nam kitabında pək sərih [açıq] bir surətdə təşrih [şərh, izah] etmiş, demiş:

*"Yer üzündəki nəbatat kimi ictimai vəq'ələrin [hadisələrin] də kəndilərinə məxsus coğrafi yerləri vardır. Onlar hər yerdə eyni tərzdə meydana gəlib başlanammazlar. Bulunduqları mühitin təsirinə qapılacaqları şübhəsizdir. Bu da anqlo-saksonların ictimaiyyət [sosiologiya] nöqteyi-nəzərindən təşəkkülü təşəkküli-infiradi [fərdiyyət zəminində formalaşma]; almanların, fransızların, belçikalıların, italyanların ilaxır [və digərlərinin] təşəkkülü təşəkküli-iştiraki [birgə, kollektiv zəmində formalaşma] olmaqdan irəli gəlir."*

Əvət, bu pək doğrudur. Təşəkküli-infiradiyə mənsub millətlərin kişiləri [fərdləri] təşəbbüsi-şəxsini kəndilərinə adət və sənət edinmişlər. Hər nə olursa, öz gücləri və öz iqtidarları ilə olduğuna inanmışlar. Bu etiqadla da həyata atılmışlar. Alınlarının təri, əllərinin əməyi ilə əldə etdikləri məhsullara, mətalara özgənin iştirak etməsini təbiəti ilə arzu etməmişlər. Onun üçün də Karl Marksın şagirdləri sosialistlər bunların arasında kəndilərinə tərəfdar bulammamışlar.

Halbuki təşəkküli-iştirakiyə mənsub millətlərin kişiləri təşəbbüsi-şəxsini kəndilərinə adət və sənət edinəmməmişlər. Biləks [əksinə], ehtiyaclarının dəfini, diləklərinin qəbulunu cəmiyyətdən, hökumətdən bəkləmişlər. Əvət, onlara arxa vermişlər, qalmışlar. Onun üçün də sosialistlər buralarda haliylə [təbii olaraq] yol almışlar, yürümüşlər. İştə, sosializm proqramının hər tərəfdə mövqeyi-tətbiq bulub-bulammayacağını ehtiyatla tələqqi etdiyim, bu səbəblərdən irəli gəlir. Yoxsa, yoxsa sosializmi bəyənmədiyimdən deyil.

## MƏTBUAT

Rusca "Azərbaycan" qəzetəsi Türkiyənin şimdiki halından bəhs edərkən, "Bütün müsəlman aləmi kamali-diqqətlə Osmanlı hökumətinin başına gələnləri təqib etməkdədir" deyə müsəlmanların hissiyyatına tərcüman olmuş və bu fikrini izah edərək yazmışdır ki:

*"Müsəlman millətlərinin müqəddəratı hər zaman Türkiyə iqtidar və istedadı ilə əlaqədar olmuşdur."*

Daşnaksutyunların "Vperyod" qəzetəsi bundan narazı qalaraq "Panislamistlər" sərlövhəsi ilə bir məqalə yazıb "Azərbaycan"ın yazılarına bir ittihadi-islamçılıq [panislamizm] istinad vermiş və məqalənin məzmununu istədiyi kimi təhrif edərək öylə çıxarmışdır ki, guya "Azərbaycan" deyirmiş ki:

*"İstanbul türklərdən alınar, xəlifə Konyaya köçürülərsə, Başqırdıstan ilə Qırğızıstan tərəqqi edəmməz."*

"Müsavat"ın naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "İstiqlal" qəzetəsi bu münasibətlə yazdığı baş məqaləsində daşnakların istibdad dövründə müsəlmanların hər hərəkətinə "ittihadi-islam", inqilab vaxtında "kontrrevolyusioner" [əksinqilabçı] adı qoyaraq töhmətləndirməklə min fəlakət çıxardıqlarını, Nikolay dövründə Qars, Ərdəhan və Batum faciələri, hürriyyət zamanında Bakı Mart hadisəsi çıxardıqlarını qeydlə deyir ki:

*"Zaman döndü, başqa vaxtlar gəldi. İndi kəndisinə ilqayi-fikir olunacaq [təsir ediləcək] nafiz [nüfuzlu] və hakim qüvvət nə çarizmdir, nə də bolşevizm.*

*– İngiltərə və Müttəfiqlər komandanlığı!*

*Onun üçün hangi surətlə Qafqaziya türkləri haqqında sui-zənn hasil etmək mümkün isə, bittəb' [təbii olaraq] o vasitəyə müraciət ediləcəkdi. "İttihadi-islam" töhməti hər ehtimala görə yenə mövsümünü bulacaqdı. Məlum a, Müttəfiqlərə qarşı bu fikirdən istifadə olunmuşdu. Onun üçün də təsəvvür etməliydi ki, "panislamizm" töhməti hər halda "kontrrevolyusioner" töhmətindən daha kəskin və daha "faydalı" olacaqdı."*

Sonra türklər haqqında ermənilərin nə fikirdə olduqlarını qeydlə, İstanbul məsələsinə və müsəlmanların əlaqəsinə keçərək yazır ki:

*"Fəqət İstanbul bu gün türk aləminin yalnız xəlifəsi oturan bir yer deyildir. Burası türk ədəbiyyatının, türk fəlsəfəsinin, türk elm və ürfanının ən zəngin və ən mütərəqqi mərkəzidir, mərkəzi-ürfanıdır.*

*Türkləri hər bir haqla malik olduqları və bu mülkiyyətlərinə hər nöqteyi-nəzərdən haqlı olduqları İstanbuldan çıxararlarsa, xəlifə ilə mərbutiyyəti-diniyyələri [dini bağlılıqları] nöqteyi-nəzərindən deyil, türk və islam olan kütlələri ona görə rəncidə, ona görə münfəil edər [həyəcanlandırar, etirazlarına səbəb olar] ki, aləmi-mədəniyyət böyük müharibə və böyük inqilabın elan etmiş olduğu təyini-müqəddərat prinsipini iş Türkiyə ilə aləmi-islama gəlincə, ayaqlar altına salmış olar. Türk düşmənliyi ilə ruhlanmış, Türkiyə ədavətini bir ideal dərəcəsinə çıxarmış daşnaksutyun ruhlu mütəəssib [təəssübkeş] və intiqamcu [intiqam axtaran] bir erməni üçün əlbəttə ki, türklərin İstanbul kimi aləmşümul bir mərkəzdən ayrılıb da Anadolunun hücra [uzaq, tənha] bir guşəsinə qovulması arzu olunar bir vəq'ədir.*

*Fəqət bu arzu olunar vəq'əni heç bir türk-müsəlman ruhu üsyan etmədən təsəvvür edəmməz.*

*O abidati-milliyyəsi [milli abidələri], cəvameyi-şərifəsi [mübarək cameləri], ənənati-islamiyyəsi [İslami adət-ənənələri] ilə hər bir türkün və hər bir müsəlmanın mədəniyyət Kə'bəsini təşkil edən İstanbulu bir azərbaycanlı türkü bərfərz [fərz edək ki] İstanbul aşiqi bir firəng mühərriri Pyer Lotidən daha az bir eşqlə sevə bilməz. Böylə türk və müsəlman bir şəhər, nüfusunun [əhalisinin] əksəriyyəti-qatiəsi [mütləq əksəriyyəti] dəxi türk olduğu halda bilməm hangi mövhum [xəyali] bir haqq üçün başqalarına veriləcək də, buna qarşı üsyan etmək "ittihadi-islam" fikrinin "təcavüzkar" bir təzahürü kimi görüləcəkdir?"*

Nəhayət "İstiqlal"ın bu məsələyə necə baxdığını şərh ilə deyir ki:

*"Azərbaycanla bərabər biz də Türkiyədəki xırda millətlərin təyinimü-qəddərat haqqına malik olduqlarını qəbul ediriz. Bu cümlədən ermənilərin dəxi böylə bir haqqa malik olduqlarını hər zaman qəbul etmişiz. Fəqət, bu tələb 2 milyonluq bir millətin qalxıb da 6 milyon nüfusu haiz [əhaliyə malik] olan bir ərazi üzərində təsisi-hakimiyyət etmək fikrinə münqəlib olarsa [çevrilərsə], təbiidir ki, böylə cahangirana [imperialist] bir iştahaya qarşı hər bir demokrat kimi, hər bir türk də üsyan edər.*

*Fəqət, daşnaksaqan zehniyyəti bu üsyanı anlamaz. Onun ruhiyyəti kəndisindən başqasının dərdini, hələ türkün faciəsini heç anlamaz.*

*Yeddi vilayət, Kilikiya və Qarabağ Ermənistan olaraq tələb olunur. İki milyon bu qədər erməni, dörd milyon bu qədər türk və müsəlmana hakim olmaq istər. Bu hakimiyyəti o, dünyanın ətrafına dağılmış erməniləri toplayıb da böyük bir Ermənistan təşkil etmək surətilə istərkən, türk kütləsini ikiyə ayırıb da bir xəncər kimi qəlbgahına sapılar. Xəncərlənmək istənən vücud isə əsəri-həyat göstərib kəndisini müdafiə istədikdə, onu "panislamizm" töhmətilə qorxudar.*

*Fəqət, beyhudə!*

*Dünya nə qədər ədalətsiz olsa da, daşnaksutyun istədiyi qədər ədalətsiz olammaz. Qaç milyonluq erməninin xatirinə böyük türk millətinin həyati mənfəətləri ayaq altına alınammaz.*

*Avropanı qorxudan panislamizm bütün aləmi təsxir [zəbt] etmək və yaxud aləmşümul bir islam hökuməti vücuda gətirmək kimi xülyalarla yaşayan "panislamizm"dir. Bu fikir xülya olduğu kimi, Avropa üçün böylə bir təhlükə mövcud olduğu təhdidi dəxi xülyadır.*

*Fəqət islam millətlərini tapdatma[ma]q, türk millətlərinin hüququnu çiynətməmək [ayaqlatmamaq] mənasına olan ittihad fikri var – bu fikirdən kimsə qorxmaz. Bununla bilxassə [xüsusilə] daşnaksutyunçuların qorxutmaq istədikləri qüvvətlər qorxmazlar.*

*Türklərin kəndilərini anlamasından və türk səltənəti olan Türkiyənin müqəddəratına laqeyd qalmamasından yalnız öz səadətlərini başqalarının fəlakətindən gözləyənlər və kəndi tələblərini başqasının hesabına quran daşnaksutyun misilli dar fikirli millətçilər, intiqamcu mütəəssiblər qorxarlar.*

*Erməni millətinin müqəddəratını əllərində bulunduran əfəndilər bilməlidirlər ki, bugünkü "müsaid" vəziyyətdən bilistifadə [istifadə edərək] quracaqları hökuməti içində bulunduqları türk mühitinin qəlbini yaralamaq surətilə təqviyə etmək [gücləndirmək] istərlərsə, o zaman bundan böyük fayda görəmməzlər."*

## DOKTOR TAĞI KƏRİMOV

Şuşadan alınan xəbərlər Şuşa ziyalılarının ən fəal, ən möhtərəm bir yoldaşlarının uzun xəstəlikdən sonra vəfat etdiyini anladır. Doktor Kərimovu tanıyanlar, onun bu son il zərfindəki cansiparənə [canlabaşla] fəaliyyətindən xəbərdar olanlar bu hadisənin ümum Qarabağ üçün nə qədər böyük bir zıya [itki] olduğunu təqdir edərlər. Doktor hənuz qayət gənc [ikən] tibb fakültəsini Hərbi-ümumi ibtidasına [Dünya müharibəsinin başlanmasına] bir az qalmış Xarkov Darülfünununda [Universitetində] bitirmişdi. Son zamanlar ümum Rusiyanı, ələlxüsus Qafqaziyanı tutan anarşi əsnasında əsla yorulmadan vətəninin asayişi uğrunda çalışdı. Nəhayət, səhhətini qeyb edərək, ailəsini və arxadaşlarını ələmnak edərək [qəmə boğaraq] pək sevdiyi vətəninin qara torpağına əbədi istirahətə getdi. Əvət, Tağı getdi. Onun gələcəyinə böyük ümidlər bəsləyənləri naqabili-tərif [sözlə ifadə edilə bilməyən] bir matəmə düçar etdi. Ümum Şuşa ziyalıları namından hörmətli yoldaşımıza "Allah sənə rəhmət eyləsin" deyib, aileyi-kədərdidəsinə [kədərli ailəsinə] Cənabi-haqqdan təsəlli niyaz eylərəm.

*Əli Yusif*

## BAKI XƏBƏRLƏRİ

**Dağıstan Cümhuriyyətinə müavinət**

"Müsavat" firqəsi tərəfindən Dağıstan Cümhuriyyətinə Denikinin qara qüvvəti ilə eylədiyi hürriyyət müharibəsində kömək eyləmək üzrə könüllü dəstəsi təşkili düşünülməkdədir. Yaxında könüllü dəstəsinə yazılmaq şəraiti [şərtləri] firqə tərəfindən elan olunacaq. Yoldaşlardan könüllü getmək meylində olanların şimdidən firqə İstixbarat [İctimaiyyətlə Əlaqələr] şöbəsinə müraciət edib də kəndilərini yazdırmaları rica olunur.

*"İstiqlal"*

* * *

Şirvanlıların Bakıda sakin olanlarının Məşixət İdarəsi tərəfindən təsdiq olunmuş prixod mollası Molla Səftər Molla Qafarzadə tərəfindən elan edilir ki, şirvanlılar gəlib özlərinin və ailələrinin adlarını və yaşlarını bittamam [əskiksiz, hamılıqla] ümumi dəftərə yazdırsınlar. Ona görə ki, lazım olan vaxtda adlarını indidən ümumi dəftərə yazdırmayan əşxasa [şəxslərə] şəhadətnamə və qeyrə verilməyəcəkdir. Lazım olan vaxtda müşkülata düşəcəklərini nəzərə alaraq tələsməlidirlər.

Məhəlli-iqamətim [sakin olduğum yer]: Bazarnı küçə, Məşhədi Bağı Molla Abbasəli oğlunun dükanında.

*Kamali-ehtiramla:*
*Molla Səftər*
*Molla Qafarzadə*

**Mədən dairələrində gecə kursları**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin mədən dairələrindəki ümum [bütün] şöbələrindən Mərkəzi Komitəyə və Azərbaycan Cümhuriyyəti Maarif nazirinə zeyldəki [aşağıdakı] məzmunda bir ərizə verilmişdir:

"Zeyldə isimləri mühərrər [aşağıda adları yazılmış] məruzəçilər 5 nisan tarixində təşəkkül etmiş müsəlman işçiləri iclasında işçilər üçün gecə məktəbləri açılmaq zimnində [barədə] təşəbbüsatda bulunmaq üzrə intixab edilmişlər [seçilmişlər]. Binaəniləyh [ona görə], canibi-alilərinə müraciətən [uca hüzurlarına müraciət edərək], zeyldə göstərilən məntəqələrdə müsəlman işçiləri üçün gecə məktəbləri açılmasına müsaidə buyurmaları rica olunur:

1) Sabunçu dairəsində: [1)] Musa Nağıyev mədəni; 2) Yenə məzkur [deyilən] dairələrdə Moskovski mədəni;

2) Balaxanı dairəsində: 1) Sovet Syezd məktəb binası; 2) Benkendorf mədən evləri;

3) "Kaspi-Çernomor Yoldaşlarının" Ramana dağ üstündə 50 nömrəli mədən evləri;

4) Zabrat dairəsi "Kaspi Yoldaşlarının" mədən evləri;

5) Mədənlər mərkəzi "Bakı Neft Yoldaşlarının" Kokorev adlı 20 nömrəli mədən evləri;

6) Suraxanı Benkendorf mədəni.

Bu xüsusda əmri-aliləri müstədadır [xahiş olunur] əfəndim.

Müstədilər [xahiş edənlər]: Mirzəağa Kərimzadə, Rəhim Cahangirzadə, Həmid Paşazadə, Zülfüqar Məhəmmədzadə, Haşım Cahangirzadə."

**Balaxanıda mühazirə**

Seşənbə [çərşənbə axşamı] günü aprelin 15-ində Balaxanı məktəbi binasında Piri Mürsəlzadə əhvali-hazireyi-siyasiyyə [hazırkı siyasi vəziyyət] mövzusunda mühazirə (leksiya) oxuyacaqdır. Mühazirə axşam saat 3-də başlanacaqdır.

**"Şurayi-İraniyan" cəmiyyəti**

Eşitdiyimizə görə, Bakı və ətrafında yaşayan İran camaatı keçən səhv və xətalarını düşünərək azad bir məmləkətdə öz gələcək və səadətini təmin etmək üçün "Şurayi-İraniyan" [İranlılar Şurası] adında bir cəmiyyət təşkil edəcəkdir. Məzkur [adı çəkilən] cəmiyyətin ümdə məqsədi iranlıların füqəra və möhtaci-müavinət [köməyə möhtac] olub ədəmi-iqtidarlarından [gücləri olmadığı üçün] küçə və bazarlarda dilənçilik edənlərinə yardım etmək və biçiz [yoxsul; kimsəsiz] vəfat edənlərin səriyyən [vaxtında, dərhal] mədfun [dəfn] edilmələrinə var qüvvəsilə çalışmaqdan ibarət olacaqdır. Bugünlərdə məzkur cəmiyyətin heyəti-mütəşəbbisəsi [təşəbbüs heyəti] tərəfinən Bakı və ətrafında yaşayan iranlıların ümumi iclası dəvət və cəmiyyətə heyəti-idarə intixab ediləcəkdir [idarə heyəti seçiləcəkdir].

**Nəzər məscidində**

Nəzər məscidinin əhli 31 martda keçən Mart hadisatından şəhid olan müsəlman qardaşlar üçün təziyə məclisi bərpa edərək, məhəllə əhlinin əksəri fəqir-biçiz [yoxsul] olduğunu nəzərə alaraq, onlardan ötrü ianə toplamağı məsləhət görmüş və 2000 manata qədər ianə və bir qədər də çörək cəm olaraq o saatda məhəllə ruhanisi olan Hacı Şeyx Musa Axundzadə əliylə məsciddə 400-ə qədər fəqirlərə qismət edilmişdir. İanə edən şəxslərdən Məşhədi Əhəd Bağırzadə 200 manat, Məşhədi Ağababa Yəhya oğlu 200 m., Məhəmmədhənifə Bayraməli oğlu 200 m., Hacı Məhəmmədbağır Əbdüləli oğlu 200 m., Qasıməli 200 m., Hacı Mirnağı Mirməhəmmədnəbi oğlu 220 m., Məşhədi Qara Hacı Cəfər oğlu 200 m., Məşhədi Nəzər Soltanəhməd oğlu 100 m., Hacı Səməd Talıb oğlu 100 m., Qafur bənna 50 m., Məşhədi Mirağa Hacı Mircabbar oğlu 100 m., Məşhədi Əli Məhəmmədəlizadə və qeyrilər 100 m., Həsən Balaməhəmmədəli oğlu 200 m., Məşhədi Fəttah Durmuş oğlu 100 m.

## ERMƏNİSTANDA

**Aclıq**

"Aşxatavor" qəzetəsinin müxbiri aprelin 4-ündə İrəvandan teleqraf edir ki, aclıq əvvəlki kimi hər yerdə hökm-fərmadır [hökm sürməkdədir]. Bu aclıq hökumətindən kənarda olanları heç bir şeylə inandırmaq olmur ki, gündə Ermənistanda 1500-2000 adam acından ölür. Ehtiyac böyükdür, müavinət isə yoxdur. Bir tək İrəvanda gündə 29-32 adam ölməkdədir. Mart ayında Ermənistana 320710 put ərzaq şeyləri gətirilmişdirsə də, bir köməyi olmamışdır. Ermənistan əhalisinin 50 faizi (yarısı) qırılıb və qırılacaqdır. Çünki diri qalanlar da ölü namizədlərindən ibarətdir. Gec kömək olsa da onları xilas etməz. İkinci böyük ehtiyac toxumluq taxıldır. Əkin vaxtı keçir. Hərgah böylə olarsa, gələn il də aclıq olacaqdır. Aclığa görə hərc-mərclik geniş bir dairədədir. Ermənistan sərhədləri hər tərəfdən təhlükə içərisindədir. Heç bir şey tapmaq mümkün deyildir. Qoy heç kəs bizim vətənimizin bu faciəli halına şərik olmasın, lakin öz vicdanını sakit etmək xatirəsi üçün bu həqiqətlərə şübhə etməsin.


**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

10 yaşında bir çocuğu ziyalı müsəlman külfətinə "pansiyona" vermək istəyirəm. Çocuğa rus dili öyrətmək dəxi xahiş olunur. Xahiş edənlər səhər saat 10-12-yə qədər Telefon ilə xəbər verə bilərlər. Telefon nömrə 21-13.

*8714*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üz-bəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***1919 sənəsində buraxılan 100 manatlıq pulların təsviri***

"İkinci xətti": qəzetdə "İkinci tərəfi" getmişdir.

"Sütunların əsası iki xətlə ayrılır və həman şrift ilə yazılmışdır…": "şrift" sözü qəzetdə təhrif edilmişdir.

***Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat***

"dürüstanə": qəzetdə "dostanə" getmişdir.

"1864-cü sənənin gözəl qanun-namələri": II Aleksandr dövrünün islahatları çərçivəsində, 1864-cü ildə zemstvo, yəni yerli özünüidarə qurumları və məhkəmə islahatları həyata keçirilmişdi.

***Teleqraf xəbərləri***

"eserlər": sosialist inqilabçılar.

"sindikalistlər": XX əsrin əvvəllərində fəhlə hərəkatında meydana çıxan sindikalizm cərəyanı nümayəndələri. Sindikalizm cərəyanına görə fəhlələr, sənaye müəssisələri və sahələri konfederasiyalarda yaxud sindikalarda birləşməli idilər.

"Vilhelmin kiçik oğlu Yoaxim…": bu ad qəzetdə təhrif edilmişdir.

"spartaklar": Almaniyada fəaliyyət göstərmiş marksist təşkilat olan Spartak İttifaqının üzvləri. Bu təşkilat ümumdünya proletar inqilabı tərəfdarı idi.

***Sülh ətrafında***

"Şantou" [Shantou]: Çinin cənub-şərqində şəhər dairəsi.

"Kiao-Çao" [Kiautschou]: Çinin şərqindəki Şandun yarımadasının cənub sahilində, 1898-1914-cü illərdə mövcud olmuş Almaniya koloniyası. 1914-cü ildə Yaponiya tərəfindən işğal edilmiş, 1922-ci ildə Çinə qaytarılmışdır.

***Qafqaziya Konfransı***

"Ermənistan hökuməti böylə təsəvvür edir ki, torpaq məsələlərinin həlli məzkur cümhuriyyətlərin istiqlaliyyətini müttəhidən müdafiə etmək üçün, həmçinin bu istiqlaliyyətləri mümkün olan təhlükələrdən müdafiə etməkdən ötrü müttəhid sazişlə tədbirlər görüldü.": Bu cümlə notanın orijinal mətnindən müəyyən qədər anlaşılmaz şəkildə tərcümə edilmişdir; belə olmalıdır: "Ermənistan hökuməti hesab edir ki, həmçinin ərazi məsələlərinin həlli; həm adları çəkilən cümhuriyyətlərin istiqlaliyyətlərinin müdafiəsi üçün birgə hərəkət etməyin, həm də bu istiqlaliyyəti mümkün təhlükələrə qarşı qorumaq barədə birgə tədbirlərə dair hər hansı razılaşmanın ilkin şərti olmalıdır."

***Heyəti-mürəxxəsələrimiz***

"cəmadiyəlsaninin 25-də": burada tarix hicri təqvimlə göstərilmişdir; 25 cəmadiyəlsani (yaxud cəmadiyəlaxir) 1337-ci il miladi təqvimlə 28 mart 1919-cu ilə uyğun gəlir.

***Konfrans***

"hərs": əslində "əkinçilik; torpağı əkib-biçmək" mənasına gələn ərəbcə "hərs" sözü Anadolu türkcəsində "mədəniyyət" mənasında da işlədilmişdir; qəzetdə bu söz təhrif edilmiş şəkildə yazılmışdır.

"…o qüvvətli kapitalizminin təhəkkümünə…": qəzetdə "təhəkkümünə" yerinə "təhkiminə" getmişdir.

"emansipasiya": bir sosiologiya termini olan "emansipasiya" hər növ asılılıqdan qurtulma, mütləq azadlıq mənasına gəlir.

***Bakı xəbərləri***

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası.

"Benkendorf": XIX əsrin axırlarında – XX əsrin əvvəllərində Abşeronda neft hasilatı ilə məşğul olan şirkət nəzərdə tutulur.

"Kaspi-Çernomor Yoldaşları": Abşeronda fəaliyyət göstərən neft şirkəti.

"Kaspi yoldaşları": Bakıda və Abşeronda neft istehsalı və ticarəti ilə məşğul olan şirkət.

"Bakı Neft Yoldaşları": Bakıda XIX əsrin axırlarında qurulan neft istehsalı şirkəti.

"Bu xüsusda əmri-aliləri müstədadır əfəndim.": "müstədadır" sözü qəzetdə təhrif edilmişdir.





# Mədəniyyət





● Teatrlarımızın repertuarından

# Azərbaycan teatrları yeni mövsümdə tamaşaçılara nə vəd edir?

**Yeni teatr mövsümünün başlamasına sayılı günlər qalıb. Sənət ocaqlarımızın əksəriyyətində artıq görüləcək işlər, hansı əsərlərin səhnələşdiriləcəyi müəyyənləşdirilib.**

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında bu ilin sonunadək 4 yeni tamaşa hazırlanacaq. Teatrın mətbuat katibi Cavid Zeynallı bildirdi ki, artıq yaradıcılıq işlərinə başlanılan və Uilyam Şekspirin "Maqbet" faciəsinin motivləri əsasında səhnəyə qoyulacaq "Ledi Maqbet" tamaşası Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibəti ilə benefis tamaşa olacaq.

Bu sənət ocağında yeni mövsümdə premyerası keçiriləcək daha bir səhnə əsəri "Müharibə"dir. Bu tamaşa Mehriban Ələkbərzadə və Nihad Qulamzadənin eyniadlı əsəri əsasında hazırlanacaq.

Teatrın mətbuat katibi Akademik Milli Dram Teatrının uzun illərdən sonra yenidən Cəfər Cabbarlının "Aydın" əsərinə də müraciət etdiyini açıqladı.

Milli Teatrın növbəti yaradıcılıq işi isə məşhur fransız yazıçı-dramaturqu Rober Tomanın "Səkkiz qadın" pyesi əsasında hazırlanacaq eyniadlı tamaşa olacaq.

### Kuklaçıların yaradıcılıq planları

Azərbaycan Dövlət Kukla Teatrı özünün yeni - 93-cü mövsümünə dolğun tamaşa planı, həmçinin səfər proqramları, sosial-mədəni aksiyalar ilə başlayır.

Teatrın baş rejissoru, Prezident mükafatçısı Anar Məmmədovun verdiyi məlumata görə, ötən mövsüm olduğu kimi, bu mövsümdə də yaradıcı heyət istər plana uyğun, istərsə də plandan kənar tamaşalar hazırlayacaq: "Kollektiv ötən mövsüm bir neçə festivala qatıldı, eləcə də özü iki festivala evsahibliyi etdi. Bunlardan biri Azərbaycan və Türkiyə kuklaçılarını bir araya gətirən sənət bayramı - III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalı idi. Bu mövsümdə də ənənəvi festivalda iştirakımız nəzərdə tutulub".

Əməkdaşlıq zəncirinin daha da genişləndiyini vurğulayan baş rejissor bildirdi ki, qardaş ölkə kuklaçıları ilə birgə türk dünyasında məşhur Molla Nəsrəddin lətifələri əsasında komik, eləcə də ibrətamiz hekayələrdən ibarət bir tamaşa üzərində ilkin işlər başlayıb.

Teatrımızın beynəlxalq əlaqələri fonunda qonşu Gürcüstanla əməkdaşlığa da xüsusi önəm veririk. Məlumat üçün deyək ki, Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında əməkdaşlıq memorandumu imzalanıb və bu sənədə əsasən, gürcü rejissorlarla danışıqlar aparılıb. Klassik nağıl nümunələrimizdən birini bu dəfə gürcü rejissor Nikoloz Sabaşvilinin quruluşunda görəcəyik. Özbəkistanın Qaraqalpaq Dövlət Kukla Teatrı ilə də əməkdaşlıq haqqında müqaviləmiz var. Bu mövsüm qəhrəmanlıq, vətənpərvərlik mövzulu müştərək tamaşa planımızı reallaşdıracağıq", - deyə Anar Məmmədov bildirdi.

İlin sonunadək teatrda cari repertuar planına uyğun "Bir gün Şamaxı xanlığında", "Nənəmin aş qazanı" tamaşalarını, eləcə də plandan kənar olaraq, dahi Üzeyir bəy Hacıbəylinin felyetonları, novellaları əsasında böyüklər üçün "Ordan-burdan" tamaşaları hazırlanacaq.

Plandan kənar növbəti tamaşa teatrın rus bölməsi üçün seçilib. Bu, belaruslu rejissor-dramaturq Dmitri Boqoslavskinin "Mən necə səyahətçi oldum" əsəri əsasında hazırlanacaq eyniadlı tamaşadır.

Bu teatrda mövsümü premyera ilə açmaq kimi bir ənənə də var. Teatr təmsilçiləri bu ənənəyə sadiq qalaraq, tamaşaçıların qarşısına sentyabrın 20-də "Lokomotiv və vaqonlar"ın premyerası ilə çıxacaqlar.

### Yeni mövsüm Milli Musiqi Günündən başlayacaq

Hər il olduğu kimi, 115-ci mövsümündə də Azərbaycan Dövlət Akademik Musiqili Teatr maraqlı layihələrlə teatrsevərlərin görüşünə gələcək. Bu barədə qəzetimizə sözügedən teatrın mətbuat katibi Fəridə Aslanova məlumat verdi. Bildirdi ki, yeni mövsüm 18 Sentyabr - Milli Musiqi Günündə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası ilə açılacaq.

Dörd gün ardıcıl davam edəcək ənənəvi "Üzeyir Hacıbəyli həftəsi" çərçivəsində bəstəkarın "Leyli və Məcnun", "Ər və arvad", "Arşın mal alan" tamaşaları nümayiş olunacaq.

Teatrın mətbuat katibi sentyabrın 22-də "Nəğməmə inan", sentyabrın 28-də "Qızıl toy", sentyabrın 29-da Bəxtiyar" tamaşalarının oynanılacağını dedi: "Teatrda məşqləri uğurla davam etdirilən "Bir qalanın sirri", "Əliqulu evlənir", "Palata", "Killerdən teleqram" və digər tamaşaların premyeralarına hazırlıq işləri də görülür. Yaradıcı heyət ilboyu istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda maraqlı layihələrlə çıxış edəcək".



### 97-ci teatr mövsümünə yeni tamaşalarla…

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında da teatrsevərlərə maraqlı tamaşalar təqdim etmək planlaşdırılır. Teatrın mətbuat katibi Samirə Əşrəf bu ay teatrlarda iş gününün sentyabrın 3-dən başlayacağını söylədi: "Bildiyimiz kimi, sentyabrın 1-i parlament seçkiləridir. Növbəti gün istirahət günüdür. Sentyabrın 3-dən teatrımız iş rejiminə başlayacaq. Sentyabrın 21-də isə Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının 97-ci teatr mövsümü açılır. Bu münasibətlə gündüz saat 12:00-da uşaqlar üçün "Qaraca qız" tamaşası təqdim olunacaq. Axşam saat 19:00-da Pyer Bomarşenin eyniadlı əsəri əsasında "Fiqaronun toyu" tamaşası nümayiş olunacaq. Bu tamaşa ötən mövsümün sonuncu premyerası olmuşdur. Biz iyun ayında bu tamaşanı təhvil verib, istirahətə yollandıq. Elə həmin tamaşa ilə də mövsümü açacağıq. Yeni teatr mövsümü üçün hələ ki, planlarımızdan biri İlqar Fəhminin "Şahnamə" pyesi əsasında hazırlanan eyniadlı tamaşadır. Bu mövsümdə tamaşanın oxunuş məşqləri və daha sonra məşqlərinə başlanacaq. Bir də "Cırtdan" nağılı əsasında Elşad Rəhimzadənin "Cırtdan" tamaşası hazırlanacaq".

Teatrın mətbuat katibi onu da əlavə etdi ki, ötən mövsümdə "Man Feyerbax"am monotamaşı festival üçün nəzərdə tutulmuşdu: "Amma bu cür tamaşalar festival üçün səhnələşdirilsə də, sonralar teatrın repertuarına daxil olur. Bu tamaşa da hazırlanırdı, sadəcə, tamamlanmayıb. 97-ci mövsümdə bu tamaşanı bitirib, festivala yollanacağıq. Sonra da tamaşaçılara təqdim edəcəyik".

### "İrəvanda yanan çıraq"la açılan yeni mövsüm

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı keçən teatr mövsümünü şair-dramaturq Hidayətin "İrəvanda yanan çıraq" mistik tarixi dramı və dramaturq Emil Məmmədlinin "Qadın" monopyesi əsasında yeni teatr sistemi ilə, qeyri-səlis məntiqlə hazırlanan "Siluet" tamaşasının premyeraları ilə başa vurub.

İrəvan Dövlət Azərbaycan Dram Teatrı növbəti - 143-cü teatr mövsümünü də "İrəvanda yanan çıraq" tamaşası ilə açacaq. Bu barədə teatrın ədəbi dram hissəsinin rəhbəri Nərminə Ağayeva məlumat verdi.

Bu ilin repertuarına daxil edilən Uilyam Şekspirin "Kral Lir" faciəsi, Adilə Nəzərlinin "Axirətdən gələn səs" pyesləri üzərində də hazırlıq işləri gedir. İlin sonunadək bu tamaşaların da premyeraları nəzərdə tutulub.

Müraciət etdiyimiz paytaxtda yerləşən digər teatrlardan - Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrından, Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrından məlumat verdilər ki, növbəti teatr mövsümündə də teatrsevərlərə yeni tamaşalar təqdim edəcəklər. Ancaq hansı əsərlərin səhnələşdiriləcəyinə tam qərar verməyiblər.

Şuşa Dövlət Musiqili Dram Teatrının inzibatçısı Yaşar Muradov yeni teatr mövsümünü sentyabrın 13-ü Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" əsəri əsasında hazırlanmış tamaşa ilə açacaqlarını söylədi. O bildirdi ki, yeni teatr mövsümündə tamaşaya bir neçə əsər hazırlayacaqlar.

### Gəncə Dövlət Milli Dram Teatrı da yeni repertuarla çıxış edəcək

Bu ilin sonunadək Gəncə Dövlət Milli Dram Teatrında 4 tamaşanın premyerası nəzərdə tutulub. Teatrın baş rejissoru Elşad Əhmədov qəzetimizə məlumat verdi ki, Rey Kunun "Nömrə 13" komediyası, Birgül Gülər Yaşıloğlunun "Qadınlar danışarsa" sosial dramı, Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyası, Toyğun Orbayın "İnsanoğlunun şərəfinə" tamaşası Gəncə Dövlət Milli Dram Teatrının repertuarına daxil ediləcək.

Teatrın baş rejissoru bildirdi ki, növbəti teatr mövsümünün açılışı sentyabrın 19-da Əziz Nesinin "Toros canavarı" sosial komediyası ilə olacaq.

### Qaxlı uşaqları sevindirəcək tamaşalar…

Qax Dövlət Kukla Teatrının kollektivi tam heyətlə sentyabrın ilk günlərindən məzuniyyəti başa vurub yeni mövsümə başlayacaq.

Teatr növbəti mövsümdə dramaturq Vüqar Haqverdiyevin qələmə aldığı "Qarınqulu Ayı balası" nağıl-pyesi əsasında hazırlanmış eyniadlı səhnə əsəri ilə tamaşaçıların görüşünə gələcək. Bu barədə qəzetimizə Qax Dövlət Kukla Teatrının ədəbi hissə müdiri, şair-dramaturq Osman Abdullayev məlumat verdi.

O qeyd etdi ki, üçüncü rübdə Çingiz Ələsgərlinin "Pinokkionun sərgüzəştləri" tamaşasının hazırlanması nəzərdə tutulub. Tamaşa dövlət sifarişi əsasında hazırlanır: "Repertuar planımızda dördüncü rüb üçün Vladimir Orlovun "Qızıl cücə" pyesinin səhnələşdirilməsi var".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Mədəniyyət xadimləri

# Xalq artisti Oqtay Zülfüqarovun anım günü keçirildi



Görkəmli bəstəkar Oqtay Zülfüqarov ömrünün 60 ilindən çoxunu uşaq mahnılarının yazılmasına, Azərbaycan mədəniyyətinin inkişafına həsr edib. Uşaqlara daim böyük sevgi və həssaslıqla yanaşan Oqtay müəllim onlar üçün şən, gözəl mahnı nümunələri yaradıb və neçə nəsil bu mahnılarla böyüyüb. Görkəmli sənətkar, Xalq artisti Oqtay Zülfüqarovun vəfatından 8 il ötür.

Oqtay Zülfüqarov 1929-cu il mayın 31-də hakim ailəsində anadan olub. Musiqi məktəbinin violonçel sinfini, A.Zeynallı adına Musiqi Məktəbi və Dövlət Konservatoriyasının violonçel sinfində təhsil alıb, professor Qara Qarayevin tələbəsi olub.

1957-ci ildə üçüncü kursda oxuyarkən Azərbaycan bəstəkarlarının qurultayında gənc bəstəkarın fortepiano triosu uğur qazanıb. 1958-ci ildə Qara Qarayevin sinfini uğurla başa vuran Oqtay Zülfüqarov müəlliminin məsləhəti ilə uşaqlar üçün silsilə mahnılar yaratmağa başlayıb.

O, uşaqlar üçün "Qız-ulduz", "Pişik və Sərçə" və "Meşə nağılı" operalarını da yazıb. "Şəngülüm, Şüngülüm və Məngülüm" adlı musiqili komediya, violonçel və fleyta üçün konsertlər, simfonik poemalar, kantatalar, dörd simfoniya, instrumental pyeslər, teatr və kino üçün musiqi yazan bəstəkarın böyük simfonik orkestr üçün yaratdığı "Şənlən, mənim xalqım" uvertürası kimi bir çox məşhur musiqi əsərinin müəllifidir.

2010-2012-ci illərdə O.Zülfüqarov "Məlikməmməd" nağılı əsasında uşaqlar üçün "Sehirli alma" ikihissəli balet, eyni zamanda musiqi dərslikləri yazıb. Uzun illər "Tumurcuq" və "Aysel" Uşaq Mahnı Teatrı görkəmli sənətkarın rəhbərliyi altında Azərbaycan Dövlət Televiziyasında verilişlər hazırlayıb. Musiqi ilə yanaşı, bəstəkar həm də şeirlər yazıb və onlar "Oxuyur Aysel" adlı topluda işıq üzü görüb. 1972-ci ildə Əməkdar incəsənət xadimi adına, 2000-ci ildə Xalq artisti adına layiq görülüb. Prezident təqaüdçüsü olan bəstəkar uzun illər Dövlət Uşaq Filarmoniyasının bədii rəhbəri işləyib.

Oqtay Zülfüqarov ömrünün 60 ilindən çoxunu uşaq mahnılarının yazılmasına, Azərbaycan mədəniyyətinin inkişafına həsr edib. O, Azərbaycanın ən böyük uşaq bəstəkarlarından biri kimi bu sənətə öz möhürünü vurub. Uzun müddət Azərbaycan televiziyasında onun apardığı veriliş balacaların sevə-sevə izlədiyi proqram idi.

Oqtay Zülfüqarov 2016-cı il avqustun 31-də 87 yaşında vəfat edib.

# Bakı hindistanlı turistlərin üstünlük verdikləri istiqamətlər sırasında ilk üçlükdə qərarlaşıb

**Metaaxtarış mühərriki funksiyasını daşıyan, aviabiletlərin alınması, hotel və avtomobil icarəsini müqayisəli formada əlçatan edən "Skyscanner" platformasının 2024-cü il üzrə yayımladığı səyahət trendləri hesabatında hindistanlı turistlərin səyahət davranışı və tərcihləri haqqında məlumat və tendensiyalar əksini tapıb.**




Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, platformanın hesabatına əsasən, Bakı şəhəri hindistanlı turistlər arasında populyar istiqamətlərdən biridir və çox axtarılan istiqamətlər siyahısında üçüncü yerdə qərarlaşır.

Belə ki, platformada Bakı şəhəri üzrə axtarış marağı 438 faiz artıb. Birinci və ikinci sırada isə müvafiq olaraq Vyetnamın Da Nanq, Qazaxıstanın Almatı şəhərləri yer alır.

Hesabatda bildirilib ki, Hindistandan Bakıya aviareyslərin qiymətlərində də 22 faiz ucuzlaşma qeydə alınıb və bu, Bakını hindistanlı turistlər üçün əlçatan istiqamətlərdən birinə çevirir.

Həmçinin hesabata görə, hindistanlı səyahətçilərin 86 faizi bu il 2023-cü illə müqayisədə eyni sayda və ya daha çox xaricə səyahət etməyi, 63 faizi səyahətə ötən ildən daha çox büdcə ayırmağı planlaşdırır. Onların 43 faizi destinasiyanın cəlbediciliyini və atmosferini mühüm amil kimi qiymətləndirirlər. Səyahət zamanı ediləcək ən məşhur fəaliyyətlərə gəldikdə isə alış-veriş (49 faiz), tarixi turlar (45 faiz) və yerli yeməklərin dadına baxmaq (38 faiz) prioritetdir.

Qeyd edək ki, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycana səfər edən Hindistan vətəndaşlarının sayı 139 min 109 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 151 faiz artımdır.

● Yeni nəşrlər

# Zülmətdə parlayan ziya

**Pedaqogika üzrə elmlər doktoru Zəhra Muradovanın "Zülmətdə parlayan ziya - Qazax Müəllimlər Seminariyası" adlı kitabı işıq üzü görüb.**

Müəllif bu elmi-metodik vəsaitdə seminariyanın təşkilatçıları, ilk müəllimləri, tələbələri, eləcə də qadın məzunları barədə geniş məlumat verib. Eyni zamanda oxuculara seminariyanın qədim binasının yenidən bərpa olunması və onun nəzdində fəaliyyət göstərən ADA Universitetinin Qazax mərkəzinin təlim prosesi ilə də tanışlıq imkanı yaradıb.

Kitabın "Qazaxda ilk maarif ocağının yaranması" bölümündə Qazax Müəllimlər Seminariyasının təsis edilməsinəqədərki tariximizə qısa nəzər salınıb. Müəllif qeyd edib ki, zaman keçdikcə Azərbaycanın uzaqgörən və xalqın taleyini düşünən maarifpərvər şəxsiyyətləri təhsilə yenilik gətirməyə, onun mahiyyətində əsaslı dəyişikliklər etməyə çalışırdılar.

1876-cı ildə K.D.Uşinskinin layihəsi əsasında Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası (Qori Seminariyası) açıldı və Cənubi Qafqazda ibtidai sinif müəllimi hazırlayan orta pedaqoji təhsil müəssisəsi kimi fəaliyyət göstərdi. Həmin seminariyanın Tatar və digər şöbələrində lisan (dilçilik) dərsi deyən böyük maarifpərvər və ədəbiyyatşünas Firidun bəy Köçərli 1917-ci ildə, çar hökuməti devrildikdən sonra həmin şöbəyə inspektor təyin olundu. Tatar (Azərbaycan) şöbəsinin Qazax şəhərinə köçürülməsini məqsədəuyğun hesab edən və bu istiqamətdə müvafiq işlərə başlayan Firidun bəy Köçərli bir sıra çətinliklərlə qarşılaşdı. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulmasından sonra həmin çətinliklər aradan qaldırıldı. AXC-nin xalq maarif naziri Nəsib bəy Yusifbəylinin imzaladığı qərara əsasən, Qori Seminariyasının Azərbaycan (tatar) şöbəsi Qazaxa köçürüldü.

"Onlar xeyirxahlıq üçün doğulmuşdular" bölməsində Azərbaycan tarixində xeyriyyəçilik fəaliyyətləri ilə tanınmış missionerlərdən söz açılıb. Qazax Müəllimlər Seminariyasının fəaliyyəti, azərbaycanlı uşaqların maariflənməsi üçün imkanı yetdiyi qədər kömək göstərən, 17 otaqlı imarətini belə seminariya-




ya bağışlayan Məşədi İbrahim ağa Kosalıdan, Qazax kəndlərindən və digər bölgələrdən təhsil almaq üçün gələnlərin yaşayış yerlərini təmin etmək məqsədilə mənzilini təmənnasız olaraq yataqxana kimi verən İsrafil ağa Kərbəlayevdən, "təhsilin milliləşdirilməsinə onun məzmunundan başlamaq" ideyasını irəli sürən görkəmli maarifpərvər Firidun bəy Köçərlidən, Cümhuriyyət hökumətinin maarif naziri Həmid bəy Şahtaxtinskidən bəhs olunub. "Azərbaycan dilində yazılan ilk dərslik" adlı bölmədə müəllif 1882-ci ildə Tiflisdə "Qafqaz Kitabı Ticarəti" nəşriyyatında dərc olunan "Vətən dili" kitabı barədə məlumat verərək yazıb: "Bu kitab həmin dövr üçün çox gərəkli dərslik hesab edilirdi".

Kitabın sonrakı - "Qazax Seminariyasında təlim və tərbiyə məsələləri", "Seminariyada sinifdənxaric və məktəbdənkənar işlər", "Seminariyanın təhsilin inkişafında rolu", "Bir ocaqda iki maarif ziyası", "Qazax Müəllimlər Seminariyasının yetirmələri", "Qazax Müəllimlər Seminariyasının qadın məzunları" adlı bölmələrində müəllif Qazax Müəllimlər Seminariyasının milli təhsilimizin inkişafında səmərəli fəaliyyətini, əvəzsiz rolunu diqqətə çatdırıb.

Kitabın "ADA Universitetinin Qazax Mərkəzi" bölümündə bir vaxtlar xeyriyyəçi Məşədi İbrahimin seminariyaya bağışladığı, təxminən 130 yaşlı binanın bərpasından sonra, 2022-ci ilin oktyabrında ADA Universitetinin Qazax Mərkəzinin fəaliyyətə başlamasından bəhs edilib.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Qaqauz rəngləri - 2024" beynəlxalq rəssamlar görüşü başa çatıb

**Bu il Moldova Respublikasının Qaqauz Yeri muxtar bölgəsinin yaradılmasının 30-cu ildönümü qeyd edilir. Bu münasibətlə "Qaqauz rəngləri - 2024" beynəlxalq rəssamlar görüşü keçirilib.**

"TÜRKSOY-un rəssamlar görüşü" ənənəvi layihəsinə Qaqauz Yerinin mərkəzi Komrat şəhəri evsahibliyi edib. AZƏRTAC xəbər verir ki, Qaqauz Yeri Baş Mədəniyyət İdarəsinin təşkilatçılığı və TÜRKSOY-un dəstəyi ilə gerçəkləşən tədbirin məqsədi türk dünyası rəssamları arasında təcrübə mübadiləsinə şərait yaratmaq və qaqauz mədəniyyətini rəsmlərin dili ilə beynəlxalq aləmə tanıtmaqdan ibarət olub.

"Müasir Qaqauz Yeri", "Qaqauz diyarının təbiəti", "Qaqauz xalqının adət-ənənələri" mövzularını əhatə edən sənət görüşünə Qaqauz Yeri, Azərbaycan və Türkiyədən rəssamlar qatılıblar.

Nümayiş etdirilən əsərlərdə muxtar bölgənin təbiəti, mədəni irsi və s. əksini tapıb. Qaqauz Yeri Baş Mədəniyyət İdarəsinin rəisi Marina Semyonova on gün davam edən tədbirin reallaşmasına verdiyi dəstəyə görə TÜRKSOY-un Baş katibi Sultan Rayevə təşəkkürünü bildirib: "Türk dünyası mədəniyyətinin və sivilizasiyasının qorunması, inkişafı və təbliğində əsas rol oynayan TÜRKSOY-un fəaliyyətimizdə iştirakından və dəstəyindən çox məmnunuq və bu köməyi yüksək qiymətləndiririk. Layihəyə qatılan rəssamlara yeni yaradıcılıq uğurları arzulayıram".

Bağlanış mərasiminin sonunda layihədə iştirak edən rəssamlara Baş Mədəniyyət İdarəsinin diplom və hədiyyələri təqdim edilib. Tədbir bədii proqramla başa çatıb.



# İlk qızılımız

## Fransada yenidən Azərbaycan himni səsləndi



**Fransada idman həvəskarlarının həyəcanı artmaqdadır. Parisdə sayca XVII Paralimpiya Oyunları davam edir. Planetin ən güclü idmançılarının yarışdığı turnirdə gərgin idman mübarizəsinin şahidi oluruq.**

Azərbaycanda da hamı Parisdən medal xəbəri eşitmək ümidi ilə yarışları izləyir. Bundan əvvəl iştirak etdikləri son 7 paralimpiadada qazandıqları medallarla xalqımızı sevindirən paralimpiya yığmamızda parataekvondoçuların çıxışları hamının diqqətini çəkdi. Belə ki, ilk yarış günündə bu idman növündə Sabir Zeynalov (58 kq) bürünc medal qazandı.

Sevindirici haldır ki, ikinci yarış günündə qazanılan medalın əyarı qızıl oldu. Belə ki, 70 kq çəkidə yarışan parataekvondoçumuz İmaməddin Xəlilov "Paris-2024"də ölkəmizin hesabına ilk qızıl medalı yazdıran idmançı kimi tarixə düşdü.



Təmsilçimiz mübarizəyə 1/4 finaldan başlayıb. Miçel Ernesto Uolkerlə (Kuba) üz-üzə gələn idmançımız 12:2 hesabı ilə qələbə qazanıb. İ.Xəlilov yarımfinalda özbəkistanlı Cavoxir Alikulovla qarşılaşıb. İmaməddin rəqibinə 7:2 hesabı ilə qalib gələrək finala yüksəlib. Həlledici mərhələdə rəqib türkiyəli Fatih Çelik olub. Rəqibinə 15:2 hesabı ilə qalib gələn İmaməddin Xəlilov Paralimpiya çempionu olub.

Bununla da, Fransada növbəti dəfə himnimiz səsləndi, bayrağımız yüksəkdə dalğalandı. Xatırladaq ki, bir ay bundan öncə Parisdə keçirilən Yay Olimpiya Oyunlarında da himnimiz iki dəfə səslənmişdi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Azad və demokratik ənənənin təntənəsi
Sabah suverenliyini tam təmin etmiş Azərbaycanda ilk parlament seçkiləri keçiriləcək
Qərb Cənubi Qafqazda sülhün olmasını istəmir
Fransanın məkrli siyasəti yeni faciələrə yol aça bilər

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Paraüzgüçümüz gümüş medal qazandı



**Dünən "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycan hesabına daha bir medal əlavə edib. Belə ki, paraüzgüçümüz Raman Saley gümüş medala layiq görülüb.**

S12 kateqoriyasında çıxış edən təmsilçimiz 100 metr məsafəyə arxasıüstə üzməkdə yarışıb. O, təsnifat mərhələsində 1:01,29 göstərici ilə qrup lideri olub. Ümumi yarışda isə ikinci olan Saley finala yüksəlib. Təmsilçimiz finalda 1:00.67 nəticə ilə ikinci yeri tutub.

Qeyd edək ki, Saley "Rio-2016"nın gümüş, "Tokio-2020"nin ikiqat qızıl mükafatçısıdır.

# Azərbaycanın daha bir cüdoçusu dünya çempionatında qızıl medal qazanıb

Azərbaycan cüdoçusu Cəsur İbadlı Perunun paytaxtı Limada yeniyetmələr arasında keçirilən dünya çempionatında qızıl medal qazanıb.

AZƏRTAC xəbər verir ki, 73 kiloqram çəki dərəcəsində çıxış edən idmançı finalda Timur Davidovla (AİN) qarşılaşıb.




Rəqibinə qalib gələn C.İbadlı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 81 kiloqram çəkidə mübarizə aparan Mehdi Abbasov isə üçüncü yer uğrunda görüşdə Kenzo Kremersi (Belçika) məğlub edərək mundialın bürünc mükafatına sahib çıxıb.

Qeyd edək ki, dünya çempionatına bu gün yekun vurulacaq. Azərbaycanın 7 cüdoçu ilə təmsil olunduğu yarışda daha əvvəl Nihad Məmişov (55 kiloqram) qızıl, Məhəmmədəli Hüsiyev (50 kiloqram) isə bürünc medala yiyələnib.

# Si Cinpin afrikalı alimlərin Çin-Afrika icmasının qurulması xahişinə müsbət cavab verib

Çinin Sədri Si Cinpin Afrikanın 50 ölkəsindən olan alimlərin məktubuna cavabında Çin və Afrikanın ortaq gələcəyə malik olduqlarını bildirib.



AZƏRTAC "Sinxua" agentliyinə istinadla xəbər verir ki, Si Cinpin qeyri-sabit və bir-birinə qarışmış dünyada Çin və Afrikanın əvvəlkindən daha çox həmrəylik və əməkdaşlıq nümayiş etdirməli olduqlarını vurğulayıb. O, alimləri ortaq gələcəyə malik yüksəksəviyyəli Çin-Afrika icmasının qurulmasına və Qlobal Cənubun ümumi maraqlarının qorunması üçün intellektual dəstəyi davam etdirməyə təşviq edib.

Si Cinpin qeyd edib ki, bir müddət əvvəl Çin Kommunist Partiyasının (ÇKP) 20-ci Mərkəzi Komitəsinin üçüncü plenar iclası uğurla keçirilib və islahatların daha da dərinləşdirilməsi yolu ilə modernləşmə istiqamətində geniş perspektivlər açmaq çağırışı səslənib. O vurğulayıb: "Dinc inkişafa can atan, islahatlara və açıqlığa sadiq olan Çinin davamlı inkişafı və böyüməsi şübhəsiz ki, dünyada sülh və beynəlxalq ədalət üçün səyləri daha da gücləndirəcək və qlobal modernləşmə prosesinə, xüsusən də iqtisadi inkişafın və dirçəlişin inkişafına tükənməz təkan verəcəkdir".

ÇXR-in Sədri qeyd edib ki, Çin-Afrika Əməkdaşlıq Forumunun (FOCAC) qarşıdan gələn Zirvə toplantısı əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün Çin və Afrika liderlərini yenidən bir araya gətirəcək və bu, gələcək münasibətlər baxımından faydalı olacaq. O, həmçinin ümidvar olduğunu bildirib ki, Darüs-Salam konsensusuna əsaslanan tərəflər - Qlobal Cənub ölkələri, Çin-Afrika və Cənub-Cənub əməkdaşlığını daha da inkişaf etdirəcəklər. Pekin bu proseslərə mühüm intellektual dəstək verməyə davam edəcək.

Qeyd edək ki, Cənubi Afrika Respublikasının diplomatı Gert Qrobler və Afrikanın 50 ölkəsindən 63 alim Si Cinpinə məktub göndərərək, Çin-Afrika icmasının yaradılmasına köməklik göstərilməsini xahiş edib.

# *Avropa Gimnastikasının rəsmisi:*
# "Bizi Bakıda maraqlı və rəqabətli yarış gözləyir"

"Sevindiricidir ki, 15-ci dəfə keçiriləcək "TeamGym" üzrə Avropa çempionatı bu dəfə yüksək təşkilatçılıq qabiliyyətinə malik Azərbaycan Gimnastika Federasiyasına həvalə olunub".

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Gimnastikasının "TeamGym" üzrə Texniki Komitəsinin prezidenti Per Şoustrand Bakıda bu növ üzrə ilk dəfə keçiriləcək Avropa çempionatı barədə danışarkən deyib. Qurum rəhbəri Azərbaycan Gimnastika Federasiyasının beynəlxalq yarışlara evsahibliyi etmək təcrübəsinin çox olduğunu qeyd edib: "Bizi Bakıda maraqlı və rəqabətli yarış gözləyir. Bu turnir hər il Avropanın müxtəlif ölkələrində keçirilir. Yeni şəhərlər və fərqli mədəniyyətlər kəşf etmək bizə zövq verir. Hər ölkədə yeniliklərlə qarşılaşırıq. İnanırıq ki, Bakıda da tamamilə fərqli atmosfer olacaq".




O, turnirdə qitənin ən güclü komandalarının iştirak edəcəyini vurğulayıb: "Ümid edirəm ki, Milli Gimnastika Arenasında tamaşaçıların möhtəşəm dəstəyi bizi daha da həyəcanlandıracaq, azarkeşlər idmançıların çıxışlarını izləyib, zövq alacaqlar. Çünki bu çempionatı fərqli formatda keçirməyi planlaşdırırıq. Hazırda gimnastikanın bu növü Avropanın 20 ölkəsində sürətlə inkişaf etməkdədir. İnanırıq ki, bu rəqəm ildən-ilə artacaq. Digər ölkələr də mötəbər turnirlərə evsahibliyi etmək barədə Azərbaycanın təcrübəsindən yararlanacaqlar".

Qeyd edək ki, "TeamGym" üzrə Avropa çempionatı oktyabrın 16-19-da Milli Gimnastika Arenasında təşkil olunacaq. Yarışda 14 ölkədən 268-i böyük və 230-u yeniyetmə olmaqla, ümumilikdə 498 idmançı mübarizə aparacaq.

# BMT Beynəlxalq Afrika Mənşəli İnsanlar Günü münasibətilə müraciət yayıb

Birləşmiş Millətlər Təşkilatı (BMT) 31 Avqust - Beynəlxalq Afrika Mənşəli İnsanlar Günü münasibətilə müraciət yayıb.

AZƏRTAC təşkilatın saytına istinadla xəbər verir ki, BMT-nin Baş katibi Antonio Quterreş qeyd edib: "Mən dövlətləri irqi ayrı-seçkiliyin köhnə və yeni formaları ilə mübarizə aparmaq üçün Afrika mənşəli insanların və onların icmalarının tam iştirakı ilə konkret addımlar atmağa çağırıram. Birgə səylərlə əsrlər boyu kök salmış struktur və institusional irqçiliyi aradan qaldırmaq lazımdır".

Müraciətdə deyilir: "Bu il Beynəlxalq Afrika Mənşəli İnsanlar Günü ilə yanaşı, həm də BMT Baş Assambleyası tərəfindən Amerika qitəsində Afrika mənşəli insanların tanınması təşəbbüsü olan Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin son ilini də qeyd edirik. Birləşmiş Millətlər Təşkilatı bu vasitə ilə Afrika diasporunun dünyada fövqəladə töhfələrini təşviq etmək və Afrika mənşəli insanlara qarşı ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq məqsədi daşıyır".

BMT qeyd edir ki, beynəlxalq günlər cəmiyyətin paylaşdığı dəyərləri əks etdirir. Bütün insanlar azad, ləyaqət və hüquq baxımından bərabər doğulurlar, onlar öz cəmiyyətlərinin inkişafına və rifahına konstruktiv töhfə vermək potensialına malikdirlər. İrqi üstünlük haqqında hər hansı bir doktrina elmi cəhətdən yanlışdır, əxlaqi cəhətdən pislənir, sosial cəhətdən ədalətsizdir və təhlükəlidir, həmçinin ayrı-ayrı insan irqlərinin mövcudluğunu müəyyən etməyə cəhd edən nəzəriyyələrlə birlikdə rədd edilməlidir.




Təşkilat bəzi ölkələrdə hüquq-mühafizə orqanlarının afrikalılara qarşı davam edən zorakılıq praktikasını və həddindən artıq güc tətbiqini qətiyyətlə pisləyib və bütün dünyadakı ədalət sistemlərində struktur irqçiliyi pisləyib. Müraciətdə qeyd edilir: "BMT eyni zamanda Trans-Atlantik qul ticarətini bəşər tarixinin ən qaranlıq səhifələrindən biri kimi tanıyır və köləlik, qul ticarəti və müstəmləkəçilik qurbanlarını, xüsusən də qaradərili insanların ləyaqətini və bərabərliyini müdafiə edir".

# Yunanıstanın Santorini adasının meri ifrat turist axını ilə bağlı xəbərdarlıq edib

Santorini meri Nikos Zorzos xəbərdarlıq edib ki, Yunanıstanın ən məşhur tətil məkanına çevrilən adanın nəzarətsiz inkişafı, ifrat dərəcədə turist axınının nəzərəçarpacaq təsiri dərhal dayandırılmasa, bu yaşayış məntəqəsini "xilas etmək" mümkün olmayacaq.



AZƏRTAC xəbər verir ki, bu il Siklad adalarının bu məşhur kurortuna 3,4 milyondan çox turistin gələcəyi gözlənilir. Nikos Zorzos adanın məhv olması təhlükəsi yaradan tikintini dayandırmaq üçün təcili tədbirlər görməyə çağırıb.

Zorzos "The Guardian" nəşrinə deyib: "Biz 25 min nəfər əhalisi olan bir adada yaşayırıq və sakinlərə daha çox hotel və ya kirayə otaqlar lazım deyil. Adada olan zəngin mənzərəni məhv etsəniz ilk növbədə insanların buraya gəlmə səbəbini də aradan qaldırmış olursunuz".

Ölkədə ifrat turizmin təhlükələri haqqında ictimaiyyətə ilk məlumat verən Zorzosun sözlərinə görə, tikinti bumu birbaşa olaraq adaya gələn turistlərin rekord sayda olması ilə bağlıdır və bu, hələ COVID pandemiyasından əvvəl ən yüksək səviyyəyə çatıb.

Cənubi Egey adasının təxminən beşdəbiri artıq betonlanıb. Lakin ekoloqların da təəccübünə səbəb olan fakt ondan ibarətdir ki, Afina səlahiyyətliləri 2018-2022-ci illər arasında daha çox tikinti icazəsini təsdiq edib və burada daha 449,579 kvadratmetr ərazidə - 76 kvadrat kilometr ümumi ərazinin təxminən 2 faizində tikinti işlərinə imkan verib.

2028-ci ilə qədər Yunanıstan bütün ölkə üzrə demək olar ki, 40 milyon turist cəlb etməyə ümid edir. Bu, cari ildəki ilə müqayisədə 5,5 milyon nəfər və ya ölkənin ümumi əhalisindən təqribən dörd dəfə çoxdur.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Yeganə Xudiyevaya əzizi

**SƏYYARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4011
Sifariş 1921

Qiyməti 60 qəpik